

# Qarabağ savaşından sonra regionda yeni düzən qurulur

*Məlum olduğu kimi, Fransa Prezidenti Emanuel Makron Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyanla görüşü zamanı Ermənistanla Azərbaycan arasında dialoqun inkişafına yardım edəcəyini bildirib. O, Azərbaycan-Ermənistan sərhədində baş verən "son hadisələrlə bağlı" deyib ki, delimitasiya prosesi yalnız danışıqlar yolu ilə və "güc tətbiq etmədən" həyata keçirilməlidir.*

Səh.13



# Zaur Hüseynovun müəmmalı səssizliyi...


UNİKAL

№20 (2058) 4 İYUN 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru


Səh.8



# Məmurlara yeni həbs anonsu...

## "Bakı Metropoliteni"nin tenderləri ilə bağlı iddia və ittihamlar niyə cavabsız qalıb?

*Son günlər "Bakı Metropoliteni" QSC-nin keçirdiyi tenderlərlə bağlı bir-birindən diqqətçəkən məlumatlar yayılmaqdadır. Yerli mətbuatın başlıca müzakirə mövzularından birinə çevrilən bu məlumatlarda həmin tenderlərdə kifayət qədər şübhəli məqamların olduğuna diqqət çəkilir. Məsələn, ötən ay şin, mis torpaqlama zolağı və müxtəlif ölçülü mis kabel ucluğun satın alınması üzrə elan edilən tenderin qalibi "Bakı Yastıq Zavodu" ASC olub. Bildirilib ki, satınalma müqaviləsinin maliyyə dəyəri 272 580 AZN-dir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, "Bakı Yastıq Zavodu" ASC 16 iyul 2004-cü ildə qeydiyyata alınıb. ASC-nin nizamnamə kapitalı 253 922 AZN-dir.*

Səh.8

## "Xalqın iradəsinin hakim olması əsas şərtdir"



*Son dövrlər Ermənistan tərəfi Azərbaycan sərhədini pozmaqda, təxribat törətməkdə davam edir. Əsgərlərimizin həyata keçirdiyi əks-əməliyyat nəticəsində bir neçə dəfə ayrı-ayrılıqda erməni diversant qrupları zərərsizləşdirilib, əsir götürülüb. Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə...*

Səh.4

## Heydər Əsədovla bağlı gecikmiş "hesablama"...



*Heydər Əsədovun Kənd Təsərrüfatı naziri olduğu dövrlə bağlı yoxlamalara başlana bilər. Bu barədə qəzetimizə məlumatlı mənbədən bildirilib. Mənbənin dediyinə görə, Əsədovun nazir olduğu dövrdə kənd təsərrüfatı sahəsinə ayrılan dövlət vəsaitlərinin xərclənməsində böyük yeyintilərə yol verilib:*

Səh.12

## "Beynəlxalq təşkilatları işğaldan azad edilmiş ərazilərə aparmalıyıq"



*Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin vəziyyəti dünyanın gözü qarşısındadır. 28 il əvvəl gülüstan olan şəhər və kəndlərin yerində indi xarabalığı xatırladan mənzərə yaranıb. Bu torpaqlarda doğulan insanlar belə öz doğulduğu evlərin yerini tapmaqda çətinlik çəkirlər. Ermənistanın işğal dövründə Azərbaycan...*

Səh.15

# Samira TİX-ə ərə gedir

***"Dürüst olmaq lazımdırsa, deyim ki, əvvəlcə Norveç təmsilçisi TİX-in marağı mövzusunda ciddi deyildim. Nə olduğunu anlamırdım. "Avroviziya"ya qazanmaq üçün getdim, biri ilə tanış olmaq üçün yox. Seçim və arzularımda qətiyyətliyəm. Mənə mahnı oxudu və duyğularını etiraf etdi".***




Bu sözləri müğənni Samirə Əfəndi "Sputnik"ə müsahibəsində bildirib. O, Norveç təmsilçisi TİX-lə yaşadığı eşqdən söhbət açıb. Samirə ailə qurduğu zaman Azərbaycandan köçəcəyini açıqlayıb:

"Ora tamamilə fərqli düşüncələrlə getdim, amma taledən bir hədiyyə aldım. "Avroviziya" bitdikdən sonra ondan əvvəl də TİX-in mənə xitab edən müxtəlif videolar çəkdiyini öyrəndim. Bundan xəbərsiz idim. Onu Bakıya dəvət etdim, ailəmlə tanış olmaq istədi. Onunla evlənərəm, ya yox, bunu bilmirəm. Hər şey təklifə bağlıdır. Ayrıldığımızda qoluma qızıl taxdı və dedi ki, məni gözlə, unutma!

Hər gün danışırıq. Evlənsəm, ehtimal ki, Norveçə köçəcəm. Ərim hardadırsa, mən də orada olacam. TİX gələn zaman ona şirniyyatlarımızı təqdim edəcəm. Rotterdamda şəkərbura və paxlavamızı yemişdi".

# "Heç vaxt ikinci dəfə evlənmərəm" - Murad Arif



***"7 ilə sənətimə yarım milyona yaxın pul xərcləmişəm. Söz və musiqini özüm yazdığım üçün çox olmayıb".***

Bu sözləri müğənni-bəstəkar Murad Arif "Üzə-düz" proqramında deyib. İfaçı yaradıcılığına son 7 ildə xərclədiyi məbləği açıqlayıb.

Murad daha sonra sosial şəbəkədə aktiv olan ifaçılardan söz açıb:

"Bəlkə də, "TikTok", İnstaqram dönəmində çıxıb, meymunluq eləyib tutmaq olur. Amma səni meymunluğuna görə çağıracaqlarmı? Axı səni ifana görə dəvət edirlər. Aktyor nəyə görə aktyordur? Rollarına görə. İfaçı nəyə görə ifaçıdır? Repertuarına görə. Ona görə qazanmaq üçün sosial aləmdə meymunluq etmək olmaz. Bəziləri deyir, "mənə şou-biznes deməyin". Şou və biznes sözünə niyə belə diksinirsiz? Bizim təltifetmə gecələrimizi "Oskar"la müqayisə edə bilərikmi? Yox! Bizim müğənnilərin konsertini Beyonsunku ilə müqayisə edə bilərikmi? Yox! Heç kimi qınamıram, industriya, avadanlıq, ortaya qoyulan pullar belədir".

İfaçı son vaxtlar boşanmaların sayının çoxalmasından danışıb:

"Çünki insanlar daha az dözmək istəyir. İnsanlar daha çox karyera haqqında düşünmək istəyir. Keçmişdə ayağını qır otur, döz, şiddətə, qayınata, ər təzyiqinə, qayınana söyüşlərinə döz deyilirdi. Psixoloji cəhətdən qırıq, çat vermiş nəsillər yetişdirdik. Bəs, bunun nəyi yaxşıdır? İki insanda alınmırsa, ayrılmaq daha yaxşıdır. Düzdür, boşanma tərəfdarı deyiləm, övladlar da var.

Mənim üçün dost, karyera faktoru, yer kürəsində ailədən sonra gəlir. Ailə mənim vətənimdir. Ailəmin içində hüzur tapıram. Ölərəm ailəsiz. Mənfi enerjilərdən, təzyiqlərdən, dilə düşməkdən o qədər qorxuram. Həyat yoldaşım çox ciddi bir ailənin övladı idi. Mən də sənət dünyasından bir adam. Ona görə tərəddüdlərim var idi ki, görəsən bu iş alınarmı? Böyüklərinin böyüklüyüdür ki, ünsiyyət zamanı anladılar qarşılarındakı boş adam deyil. Elçilikdə heç bir problem yaşanmadı. Onun bütün qohumları Bakıda yaşayır, təkcə öz ata-anası İsveçdə. Anamgil gedib ailəsi ilə tanış oldular. Heç vaxt ikinci dəfə evlənmərəm. Belə qlobal məsələlərdə mən qədərə, qismətə inanmaram. Evlilik yalnız 1 dəfə".

# Rəqsanədən Nadirə: "Toydan sonra evə get"

***Xəbər verdiyimiz kimi, Nadir Qafarzadə də bir müddətdir ki, Moskvaya gedib.***

"Unikal" big.az-a istinadən xəbər verir ki, Nadir sosial media hesabında Rəqsanə ilə video paylaşıb. Hansısa toy məclisində Rəqsanə Nadirə "Əvvəla xoş gəlmisən. Nə demişəmsə yaxşı eləmişəm. Bir də ayağını sındıraram birbaşa evə gedirsən. Toydan sonra evə gedin, həyat yoldaşınızın yanına" sözlərini deyir. Onların bu zarafatı qısa zaman ərzində sosial şəbəkələrdə yayılıb.

# "Atamın bizdən başqa qızı da var"

***Əkiz müğənnilər - Sevinc və Sevil Səfərovalar dünyasını dəyişmiş atalarının Rusiyada daha bir qız övladının olduğunu açıqlayıb.***



"Həmin Zaur" proqramında qonaq olan ifaçılar atalarının nikahdankənar dünyaya gələn bacıları ilə əlaqələrinin olduğunu deyiblər.

Sevinc Səfərova bildirib ki, Alana adlı xanım Rusiyada ailə həyatı qurub: "Mərhum atamın Rusiyada yaşayan Alana adlı qızı var. Bacımızdır. Anası rusdur. 20-dən çox yaşı var. Görüşmüşük. Bakıya heç vaxt gəlməyib, orada ailə qurub. Bir-birimizə çox oxşayırıq. Sevilə daha çox bənzəyir. Atam sağ olarkən maraqlanardı. Anam da ona heç vaxt fərq qoymayıb. Hazırda qardaşımla anam onunla eyni şəhərdə yaşayır, bir-birilərini görürlər".



## Zaur Mikayılov fermerlərlə onlayn görüş keçirdi

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov fermerlərlə videokonfrans şəklində görüş keçirdi.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin nümayəndəsi Dilqəm Şərifovun Unikal.org-a verdiyi məlumata görə, su təminatının daha da yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılovun rəhbərliyi ilə 17 rayon üzrə Kənd Təsərrüfatı Nazirliyinin Dövlər Aqrar İnkişaf Mərkəzi yanında Fermlər Şurasının üzvləri ilə videokonfrans şəklində görüş keçirilib. Görüşdə Cəmiyyətin sədr müavinləri Rafiq Aslanov və Zakir Quliyev, yerli istismar idarələri və Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri iştirak edib. Görüşün məqsədi su təminatının daha da yaxşılaşdırılması və onlarin həll yolları ilə bağlı idi.

Videokonfransda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov və sədr müavinləri Rafiq Aslanov, Zakir Quliyev fermerlər tərəfindən qaldırılan məsələləri geniş müzakirə etdilər.

Videformat şəklində keçirilən görüşdə hər bir fermer aid olduğu rayon ilə bağlı suvarma suyu təminatına köməklik göstərilməsi məqsədilə öz təkliflərini bildirdilər.

Cəmiyyətin sədri Zaur Mikayılov bu cür görüşlərin gələcəkdə də tez-tez təşkil olunacağını bildirdi və fermerlərin təkliflərinə dair aidiyyəti üzrə tapşırıqlar verdi.

## "Qida təhlükəsizliyi hamının işidir" şüarı altında keçirilən layihənin miqyası genişlənib

***7 iyun - dünyada Ümumdünya Qida Təhlükəsizliyi Günü kimi qeyd olunur. Ümumdünya Qida Təhlükəsizliyi Günü dünyanın diqqətini qida təhlükəsizliyi mövzusuna çəkmək üçün "Qida təhlükəsizliyi hamının işidir" şüarı ilə keçirilir.***

Unikal.org xəbər verir ki, bu məqsədlə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəliyi ilə birgə silsilə maarifləndirici tədbirləri davam etdirir. Həyata keçirilən tədbirlər çərçivəsində AQTA sədri Qoşqar Təhməzli şəbəkələrdə videomüraciətlə çıxış edib. Qida təhlükəsizliyinin təmin olunmasının əhəmiyyətini vətəndaşların diqqətinə çatdıran Q. Təhməzli FAO-nun Azərbaycan Respublikasındakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Melek Çakmakı kampaniyaya qoşulmağa dəvət edib. Çağırışa qoşulan M. Çakmak qida təhlükəsizliyinin təmin olunmasında hər kəsin üzərinə məsuliyyət düşdüyünü bildirib və kampaniyanı BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzaiyə ötürüb. Daha sonra kampaniyaya əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, kənd təsərrüfatı naziri İnam Kərimov da qoşulub. Hökumət nümayəndələri və beynəlxalq qurumların rəhbərləri Ümumdünya Qida Təhlükəsizliyi Günü ilə bağlı qida zənciri boyunca iştirak edən tərəflərin öhdəliklərini diqqətə çatdırıblar və hər kəsin prosesdə iştirakının vacibliyini vurğulayıblar.

Qeyd edək ki, Ümumdünya Qida Təhlükəsizliyi Günü Birləşmiş Millətlər Təşkilatının (BMT) 2018-ci il 20 dekabr tarixli qərarı ilə ərzaq təhlükəsizliyinin qida məhsullarının təhlükəsizliyi ilə sıx bağlı olması, dünyada ərzaq istehsalatı və təchizatı zəncirinin daha da mürəkkəbləşdiyi, qida məhsullarının təhlükəsizliyi ilə bağlı istənilən xoşagəlməz hadisələrin insanların sağlamlığına, ticarətə və ümumilikdə bütün dünya iqtisadiyyatına mənfi təsiri nəzərə alınaraq təsis edilib.

# Heydər Əsədovla bağlı gecikmiş "hesablama"...

## Sabiq nazirin işlədiyi dövr yoxlamalara cəlb edilə bilər - sensasiyalı təfərrüatlar!

***Heydər Əsədovun Kənd Təsərrüfatı naziri olduğu dövrlə bağlı yoxlamalara başlana bilər. Bu barədə qəzetimizə məlumatlı mənbədən bildirilib.***

Mənbənin dediyinə görə, Əsədovun nazir olduğu dövrdə kənd təsərrüfatı sahəsinə ayrılan dövlət vəsaitlərinin xərclənməsində böyük yeyintilərə yol verilib: "Hazırda Dəniz Akademiyasının rektoru olan sabiq nazir beş il boyunca dövlətin iqtisadi siyasətinin prioritetlərindən birini təşkil edən aqrar sahəyə rəhbərlik edib. Onun bu postu tutduğu müddətdə ölkədə kənd təsərrüfatının ciddi inkişafına dair gözləntilər özünü doğrultmayıb. Halbuki sözügedən dövrdə hökumət bu sahəyə



böyük məbləğdə vəsaitlər ayrılmışdı".

Həmin vəsaitlərin istənilən nəticəni verməməsinin müqabilində H.Əsədovun qısa zaman kəsiyində sürətlə varlanmasının məntiqi izahının olmadığını söyləyən qaynağımız maraqlı məqama diqqət çəkib: "Bilirsiniz ki, Heydər Əsədov nazir təyinatından öncə ölkənin ali audit qurumuna - Hesablama Palatasına rəhbərlik etmişdi. Quruma ondan sonra sədr təyin olunan Vüqar Gülməmmədov da əslində keçmiş nazirin kadrı kimi qiymətləndirilirdi. Məhz bu səbəbdən Hesablama Palatası Heydər Əsədovun Kənd Təsərrüfatı Nazirliyinə rəhbərlik etdiyi dövr ərzində ciddi yoxlamalar aparmamış, yaxud aparılan yoxlamalar formal xarakter daşımış, aqrar sahəni ağuşuna alan korrupsiya, yeyinti hallarına belə demək mümkünsə göz yumulmuş, dırnaqarası münasibət sərgilənmişdi. Əks təqdirdə mətbuat səhifələri Kənd Təsərrüfatı Nazirliyi sistemində mənimsəmələrə dair konkret faktlarla aşıb-daşdığı zaman Hesablama Palatasının hesabatlarında da bunu görərdik".

H.Əsədovun sabiq sədr olması səbəbilə nüfuzundan istifadə edərək ali audit qurumunun obyektiv yoxlamalarını əngəllədiyini bildirən qaynağımızın sözlərinə görə, yaxın zamanlarda adıçəkilən nazirlikdə onun rəhbərlik elədiyi dövrlə bağlı yoxlamalara start veriləcəyi barədə xəbər yayılsa kimsə buna şübhələnməməlidir. "Ölkədə korrupsiyaya qarşı mübarizə davam edir. Təkcə vəzifədə olanlar deyil, vaxtilə vəzifə tutanlar da bu mübarizədən nəsibini alırlar. Aydın görünür ki, tutulan xətt dövlət vəsaitlərini talan edənlərin kimliyindən, eləcə də korrupsiya cinayətlərinə nə vaxt - bu gün, yoxsa keçmişdə yol verməsindən asılı olmayaraq aparılır. Bu mənada Kənd Təsərrüfatı Nazirliyində Heydər Əsədov dövrünün təftişinə başlanması da istisna olunmamalıdır" söyləyən mənbə əlavə edib ki, ədalətli yoxlamalar sonucunda 2013-2018-ci illərdə aqrar sahəyə ayrılan dövlət vəsaitlərinin böyük bir hissəsinin mənimsənildiyinə şübhə qalmayacaq.

"Əslində bu yoxlamalar aparılmadan belə həmin büdcə pullarının korrupsiya predmetinə çevrildiyi kimsədə şübhə doğurmamalıdır. Əks təqdirdə ortada ciddi nəticələr olmalı, həmin beş ildə aqrar sektorun göstəriciləri müsbətə doğru əhəmiyyətli şəkildə dəyişməli idi. Dəyişməyibsə, deməli Heydər Əsədov və komandası dövlət vəsaitlərini səmərəsiz, effektsiz xərcləyib. Bu isə elə korrupsiya deməkdir" deyə qaynağımız əlavə edib.

Qeyd edək ki, H.Əsədovun nazir olduğu dövrdə ölkədə kənd təsərrüfatının inkişafı baxımından arzuedilən nəticələr əldə edilmədiyi fikrində əksər ekspertlər, mütəxəssislər həmrəydir. Bəli, dövlət həm ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, ixrac potensialının artırılması, həm də əhalinin məşğulluğunun təmin olunması və külli miqdarda valyutanın xaricə axmasının qarşısını almaq baxımından, aqrar sektorun inkişafına xüsusi diqqət ayırıb. Buna görə də, ölkə başçısı keçirdiyi bütün müşavirələrdə aqrar sektora xüsusi yer ayırıb, bu sahənin inkişafı ilə bağlı göstərişlər verib. Eyni zamanda, kənd təsərrüfatına dövlət dəstəyinin, subsidiyaların artırılması, fermerlərin lazımi texnika və aşağı faizli kreditlərlə təmin olunması istiqamətində geniş tədbirlər həyata keçirilib. Ancaq bütün bunlara baxmayaraq, Əsədov kənd təsərrüfatında sıçrayışlı inkişafın təmin edilməsinə nail ola bilməyib. İnkişaf yalnız şişirdilmiş statistik rəqəmlərdə özünü göstərib. Böyük vəsaitlər xərclənsə də, səmərəliliyin əldə olunmaması ortaya qoyub ki, H.Əsədov:

1) aqrar sahənin doğru idarəetməsini təşkil etməyi bacarmayıb;

2) ətrafına kənd təsərrüfatını inkişaf etdirmək qabiliyyətində olan mütəxəssisləri deyil, özünə yaxın dost-tanışını toplayıb; beləliklə, aqrar sektorun problemlərini daha da dərinləşdirib;

3) ən əsası isə dövlətin bu sahəyə ayırdığı vəsaitlərin ünvanına doğru çatmasını təmin eləyə bilməyib, şəffaflıq və hesabatlılığı arxa plana keçirib, nəticədə subsidyalar "şapkasız", lizinqlə alınan aqrotexnika rüşvətsiz verilməyib və s.

Bütün bunlar isə H.Əsədovun cəmi beş ildən sonra nazir postundan uzaqlaşdırılmasına gətirib çıxarıb.

Lakin iddialar bu yöndədir ki, proses başa çatmayıb: qarşıda bizi Əsədovun nazir olduğu dövrlə bağlı təftiş gözləyir. Həmin təftişin başlayacağı təqdirdə necə tamamlanacağını isə yeqin ki, hər kəs təxmin edə bilir...

***Hüseyn İsgəndərov***

# Qarabağ savaşından sonra regionda yeni düzən qurulur

## Sərhəd məsələsində yaranan gərginliyin ölkəmizin maraqları çərçivəsində həlli diplomatik qələbənin nəticəsi olacaq

***Məlum olduğu kimi, Fransa Prezidenti Emanuel Makron Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyanla görüşü zamanı Ermənistanla Azərbaycan arasında dialoqun inkişafına yardım edəcəyini bildirib.***

O, Azərbaycan-Ermənistan sərhədində baş verən ”son hadisələrlə bağlı” deyib ki, delimitasiya prosesi yalnız danışıqlar yolu ilə və ”güc tətbiq etmədən” həyata keçirilməlidir. Makronun sözlərinə görə, ”Azərbaycan qoşunları Ermənistan ərazisini tərk etməli”, ”tərəflər 11 may tarixindən etibarən tutduqları mövqelərə qayıtmalıdırlar”.

Azərbaycan Xarici İşlər Nazirliyi buna cavab olaraq bildirib ki, onlar iki ölkə arasında atəşkəs rejiminə riayət edilməsində ”Fransanın hər hansı rolunu” görmürlər. Qurum onu da əlavə edib ki, Azərbaycan, Ermənistan və Rusiya baş nazir müavinləri səviyyəsində görüşlər keçirilir və dialoq mövcuddur. ”Lakin Fransanın bu prosesdə hər hansı rolu yoxdur,”- Azərbaycan XİN sözçüsü Leyla Abdullayeva bildirib. ”Delimitasiya və demarkasiya prosesinə gəldikdə, bəyan etdiyimiz kimi, Azərbaycan delimitasiya prosesinə başlamağı dəstəkləyir və bu proses danışıqlar yolu ilə öz həllini tapmalıdır,” - nazirlik sözçüsü vurğulayıb.

Paşinyanla Makronun görüşü barədə fikirlərini ”Unikal”qəzeti ilə bölüşən Milli Məclisin deputatı Sahib Alıyev bildirib ki, öz ölkələrinin tarixində daha çox rüsvayçı hərəkətləriylə xatırlanacaq hər iki belə demək mümkünsə, liderin bu görüşləri Fransa və Ermənistanda keçiriləcək seçkilərə hesablanıb: “Açığı elə məhz həmən seçkilərin gedişinə əhəmiyyətli də olmasa, təsirdən başqa Paşinyan-Makron danışıqları heç bir tərəfə müsbət heç nə vəd etmir. Makron növbəti açıq hayparəst açıqlamasıyla ölkəsinin Minsk qrupuna həmsədrlik etmək haqqının qətiyyən çatmamasıyla bağlı mövcud rəyi daha da möhkəmlətdi. İslanmışın yağışdan nə qorxusu məntiqindən çıxış etsək, elə düşünmək olar ki, burada Fransa nə itirəcək. Amma itirəcək və bu, ən azından Azərbaycanla gələcək əməkdaşlıqda özünü göstərəcək.

Fransanın Ermənistandan faydalanmaqla regionda müstəqil oyunçu kimi çıxış etməsi də mümkünsüzdür. İlk növbədə o səbəbdən ki, forpost yiyəsiz deyil, ikincisi, rəsmi Parisin Qafqazda möhkəmlənməsi üçün nə yetərincə sərt, nə də yumşaq güc potensialı var. Hətta olsa idi belə, Yaxın Şərqdə, Aralıq dənizi regionunda baş verənlər göstərdi ki, o potensialdan qətiyyətlə və rasional şəkildə faydalana biləcək rəhbər, elə həm də elita yoxdur. Və əgər Fransa burada Ermənistanı dəstək məsələsində sözdən hərəkətə keçmək istəsə, onda burnundan vurulacaq, həm də Aralıq dənzi regionundan daha pis vurulacaq”.

Millət vəkilinin fikrincə, Paşinyan da bunun yaxşı fərqindədir və açığı onun Makronla görüşündə daha çox bizim əleyhimizə fikirlər səslənsə də, əslində Azərbaycan-Ermənistan sərhəddində baş verənlərlə bağlı qaldırılan səs-küy kimi bu səfər də ilk növbədə Rusiyaya qarşı demarş xarakteri daşıyır.

Politoloq Elxan Şahinoğlu isə bildirib ki, Ermənistanın baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın iyunun 2-də Fransaya səfəri İrəvanın sərhəd məsələsində Parisdən növbəti dəfə dəstək almaq məqsədi daşıyırdı: “Həqiqətən Fransa prezidenti Emmanuel Makron Paşinyanla görüşdə dedi ki, Azərbaycan hərbçiləri Ermənistan ərazisini tərk etməlidirlər. Makron bu açıqlamanı ikinci dəfədir səsləndirir. Fransa prezidentinin məsələnin mahiyyətini bilmədən yalnız ermənilərin mövqeyini səsləndirməsi bu ölkənin vasitəçi statusuna kölgə salır. Makron prezident olduğu müddətdə Fransa-Azərbaycan münasibətlərini əvvəlki axarına qaytarmaq çətin olacaq. Bunun üçün Makron Azərbaycana münasibətini dəyişdirməlidir. Ancaq Makron müharibə və ondan sonrakı dövrdə olduğu kimi ermənipərəst siyasətini davam etdirir. Nikol Paşinyanın Makronla görüşdə səsləndirdiyi digər cümlə diqqəti çəkdi. Paşinyan Ermənistanda keçirilən son sorğuya istinad edərək dedi ki, ermənilərin Fransaya rəğbəti daha da artıb. Bu açıqlama Kremldə xoş qarşılanmayacaq. Çünki həmin sorğunun nəticəsinə görə ermənilərin Fransaya artan rəğbəti Rusiyaya azalan rəğbəti müqabilində baş verib. Ermənilər düşünürdülər ki, Rusiya gəlib onların əvəzinə Azərbaycanla savaşmalıdır və ya sərhəddə Azərbaycan hərbçilərini durdurmalıdır. Bu baş vermədikdə ermənilərin Rusiyaya olan rəğbəti azalmağa başlayıb”.

Müsahibimiz onu da qeyd edib ki, Nikol Paşinyan Fransaya səfər etməklə parlament seçkisi öncəsi daha çox səs qazanacağına ümid edir. Onun sözlərinə görə, Paşinyan bir tərəfdən göstərir ki, o ermənilərin daha çox rəğbət etdiyi Fransaya səfər edib, digər tərəfdən Fransa prezidenti yenə Ermənistanı dəstəkləyib: “Buna baxmayaraq, Fransanın Azərbaycanla Ermənistan sərhəddinin müəyyənləşdirilməsinə təsir etmək imkanı yoxdur. Azərbaycan Fransanı artıq vasitəçi dövlət kimi qəbul etmir. Fransanın Azərbaycana təzyiq etmək alətləri də yoxdur. Əksinə, Emmanuel Makron hər dəfə İrəvanı dəstəkləməklə Fransa-Azərbaycan münasibətlərinə zərbə vurur. Bu arada, yeni, iyunun 2-də Moskvada Rusiya- Azərbaycan və Ermənistan nümayəndələrinin üçtərəfli məsləhətləşmələr keçirməsi diqqəti çəkdi. Tərəflər Azərbaycan-Ermənistan sərhədinin ayrı-ayrı rayonlarında deskalasiyanı müzakirə etdilər. İşgüzar əlaqələrin davam etdirilməsi barədə razılıq əldə olundu.

Rəsmi Bakı Moskvanın vasitəçiliyini qəbul edir. Ancaq Azərbaycan sərhəd məsələsini birbaşa Ermənistanla həll etməlidir. İrəvan istəyir ki, rusiyalı hərbçilər Azərbaycanla sərhəddə yerləşsinlər. Digər tərəfdən İrəvan istəyir ki, rusiyalı hərbçilər Azərbaycan sərhədçilərini yerləşdikləri məntəqələrdən çıxarsınlar. Bu mümkün deyil. Rəsmi Bakı Rusiya hərbçilərinin Ermənistan tərəfdə sərhəddə yerləşdirilməsinin əleyhinə deyil, bu Rusiya ilə Ermənistanın daxili işidir. Ancaq bu Azərbaycan hərbçilərinin Ermənistanla sərhədi tam nəzarətə götürməsindən sonra mümkündür. Moskva bu məsələdə ehtiyatlıdır. Kreml Azərbaycanla Ermənistan arasında moderator olduğundan Azərbaycana təzyiq etmək istəmir. Digər tərəfdən Türkiyə amili də var. Moskva sərhəd məsələsində Azərbaycana təzyiq etmək istəsə Türkiyə Azərbaycana real dəstək verəcək. Bu zaman türkiyəli hərbçilərin Qarabağda yerləşməsi prosesi sürətlənəcək”.



***Z.Məmmədli***

# Beynəlxalq əlaqələri olan partiyalar

***Azərbaycanda Ədliyyə Nazirliyindən rəsmi qeydiyyatdan keçmiş 62 siyasi partiya fəaliyyət göstərir.***

Rəsmi qeydiyyatda olan siyasi partiyalardan hansının beynəlxalq əlaqələri var?

Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlının sözlərinə görə, təşkilatın 30 ölkə ilə sıx əlaqəsi var: “Müsavat Partiyası Avropada ən böyük Partiyalar İttifaqı olan Liberal Demokrat İttifaqı Partiyası ilə müttəfiqdir. Həmin partiyada 30 ölkədən 75 partiya birləşir. Müsavat Partiyasının da həmin beynəlxalq partiyalarla əlaqəsi var”.

Kommunist Partiyasının sədri Rauf Qurbanov bildirib ki, qurumun dünyanın 153 ölkəsi ilə işgüzar əlaqəsi var: “Azərbaycan Kommunist Partiyası 1994-cü ilin dekabr ayından bu günə qədər Beynəlxalq Kommunist Təşkilatı Siyasi Şurasının üzvüdür. Keçmiş sovet məkanına daxil olan bütün respublika komitələri həmin qurumda təmsil olunur. Həmin qurumun rəhbərliyində AKP-nin sədri kimi mən təmsil oluNuram.

Bununla yanaşı, Azərbaycan Kommunist Partiyası hazırda dünyanın 153 ölkəsində fəaliyyət göstərən, o cümlədən Çin, Kuba, Vyetnam, Fransa, Türkiyə və bütün Avropa ölkələrinin əksəriyyətində fəaliyyət göstərən Kommunist partiyaları ilə sıx əlaqədədir.

Eyni zamanda, Azərbaycan Kommunist Partiyası Venesuela, Kuba, Çin və Amerika Birləşmiş Ştatları Kommunist partiyaları ilə də mütəmadi olaraq sıx işgüzar əlaqələr saxlayır. Mən Azərbaycanda Kommunist Partiyası qədər beynəlxalq əlaqələrə malik olan ikinci bir partiya təsəvvür etmirəm. Çünki dünyanın 200-dən artıq ölkəsində Kommunist partiyaları fəaliyyət göstərir. Məhz Kommunist Partiyası olduğu üçün bizim əlaqələrimiz respublikada olan digər partiyalardan bir neçə dəfə çoxdur”.

Milli İstiqlal Partiyasının (AMİP) rəsmisi Əli Orucov qeyd edib ki, Azərbbaycanda heç bir siyasi təşkilatın beynəlxalq əlaqəsi AMİP-inki qədər güclü deyil:

“Azərbaycan Milli İstiqlal Partiyasının beynəlxalq təşkilatlarla olan əlaqəsi heç bir partiyada yoxdur. Hətta hakim Yeni Azərbaycan Partiyasının əlaqələri belə bizim mövcud əlaqələrimiz qədər geniş deyil.

Azərbaycan Milli İstiqlal Partiyası dünyanın 70-ə yaxın ölkəsinin 80-dən çox siyasi təşkilatını özündə birləşdirən Beynəlxalq Demokrat İttifaqının üzvüdür. AMİP lideri Etibar Məmmədov da həmin qurumun sədr müavinidir.

Eyni zamanda, partiyamız Avropa Parlamentində Avropa Xalq Partiyası ilə əməkdaşlıq edir.

Bundan əlavə, partiyamızın hakimiyyətdə olmuş Moderatorluq Partiyası ilə əməkdaşlığı var. Hər il beynəlxalq konfranslar keçirilir. Yəni bu kimi partiyalarla münasibətlər AMİP-in beynəlxalq əlaqələrinin geniş olduğunu göstərir. Həmçinin, Güney Azərbaycan İstiqlal Partiyası var ki, qərargahı Kanadada yerləşir. Həmin təşkilatla da ikitərəfli müqaviləmiz var”.

# İlham Əliyev İsrailin yeni Prezidentini təbrik etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin yeni seçilmiş Prezidenti İsxak Hersoqa təbrik məktubu ünvanlayıb.***

Unikal.org-un xəbərinə görə, məktubda deyilir:

"Hörmətli cənab Hersoq, İsrail Dövlətinin 11-ci Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Xalqlarımız arasındakı dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Azərbaycan-İsrail münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ikitərəfli əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost İsrail xalqının rifahı naminə qarşıdakı ali fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm".

# Sahibə Qafarova: "Qadın parlamentarların sessiyasına sədrlik etməkdən məmnuniyyət duydum"

***Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan nümayəndə heyətinin 1-2 iyun tarixində Pakistana səfəri ilə bağlı status paylaşıb.***

- Azərbaycan nümayəndə heyətinin 1-2 iyun tarixində Pakistana səfəri İslam Respublikasında keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının İkinci Ümumi Konfransında iştirakı uğurla tamamlanmışdır. Konfrans çərçivəsində Assambleyanın İcraiyyə Şurasında və Ümumi Konfransında iştirak etdik, regional inteqrasiyanın da-



ha da irəli aparılması üçün parlamentlər olaraq üzərimizə düşən missiyaları daha effektiv həyata keçirməyin yollarını müzakirə etdik. Bundan əlavə, konfrans çərçivəsində keçirilən və üzv ölkələrdən qadın parlamentarları bir araya gətirən sessiyaya sədrlik etməkdən böyük məmnuniyyət duydum. Eyni zamanda, konfrans çərçivəsində Özbəkistan, Türkiyə və Əfqanıstandan olan həmkarlarımızla ikitərəfli görüşlər keçirmək, ölkələrimiz arasında mövcud əlaqələri, xüsusilə də parlamentlərarası əlaqələri müzakirə etmək imkanımız oldu. Həmçinin qardaş Pakistan televiziyasına müsahibə verdik. Konfransın yekunu olaraq İslamabad Bəyannaməsinin imzalanmasını məqsədlərə çatmaq istiqamətində mühüm nəticə hesab etmək olar.

# Nazirliyin idmançı əməkdaşı jurnalisti hədələdi



***Xırdalan şəhəri Şıxəli Qurbanov küçəsində çoxmərtəbəli yaşayış binasının tikilməsi nəzərdə tutulub. Bu də ərazidə yaşayan sakinlərin haqlı narazılığına səbəb olub.***

Unikal.org xəbər verir ki, ərazidə tikinti vətəndaş Gülzar Cəlilova tərəfindən həyata keçirilir.

Sakinlərin narazılığına səbəb olan isə Abşeron Rayon İcra Hakimiyyətinin Memarlıq Tikinti Şöbəsinin layihə əsasında 210 kvadratmetrlik tikintiyə icazə verməsinə baxmayaraq, vətəndaşın 800 kvadratmetrlik üçmərtəbə, bir mansard tipli binanın bünövrəsini qazdırması olub.

Baku TV əməkdaşları sözügedən ərazidə olduqları zaman özünü tikintinin sahibi kimi təqdim edən Araz Musayev adlı şəxs çəkilişə mane olmağa çalışıb.

Dünya və Avropa Çempionu, Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Yanğından İcbari Sığorta işinə nəzarət şöbəsinin baş mütəxəssisi Araz Musayev çəkiliş qrupunu hədələyib. Hətta o, Birinci Qarabağ müharibəsi qazilərini də həmin əraziyə gətirərək jurnalistləri hədələyib.

# "Ali təhsil haqqında" qanun layihəsi yeni müzakirəyə çıxarılacaq

***"Ali təhsil haqqında" qanun layihəsi üzərində iş davam edir və sənəd yaxın vaxtlarda yeni redaktədə komitənin müzakirəsinə çıxarılacaq.***

"Unikal"ın məlumatına görə, bunu Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev komitənin bu gün keçirilən onlayn iclasında deyib.

İclas zamanı B.Əliyev "Milli Məclisin 2021-ci ilin yaz sessiyası dövründə Elm və təhsil komitəsində görülən işlərin hesabatı"nı təqdim edib. O bildirib ki, yaz sessiyasında komitənin 8 iclası keçirilib, 15 məsələyə baxılıb, iş planında nəzərdə tutulan məsələlər həllini tapıb.

Sonra iclasda "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilib.

Komitə sədri bildirib ki, qanun layihəsi bütövlükdə vətəndaşların daha keyfiyyətli xidmətlərlə təmin olunmasına, dövlətin əlillərə qayğısının daha da gücləndirilməsinə yönəlib.

İclasda qanun layihəsini



təqdim edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, nəzərdə tutulan dəyişikliklər əsasən əlilliyin təyinində faiz indikatorunun tətbiqini, bu sahəyə dair qabaqcıl beynəlxalq təcrübənin və standartların milli qanunvericilikdə təsbit olunmasını ehtiva edir.

Müzakirə zamanı deputatlar Kamilə Əliyeva, Pərvin Kərimzadə, Etibar Əliyev, Ceyhun Məmmədov, Müşfiq Məmmədli, Şahin Seyidzadə rəy və təkliflərini bildiriblər. Yekunda sözügedən qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Ağ Ev Bayden-Ərdoğan görüşünün yeri və tarixini AÇIQLADI



***ABŞ Prezidenti Co Bayden və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 14-də Brüsseldə görüşəcək.***

Unikal.org xəbər verir ki, bu barədə Ağ Ev məlumat yayıb.

Bildirilib ki, görüş NATO-ya üzv ölkələrin dövlət başçılarının sammiti çərçivəsində baş tutacaq.

Görüş zamanı ikitərəfli əlaqələr və regional məsələlər müzakirə olunacaq.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# "Maskadan düzgün istifadə olunmazsa, yoluxma sayında artım olacaq" - Xəbərdarlıq

***"Yumşalma tədbirləri zamanı əhalidə adətən laqeydlik yaranır. Açıq havada maska istifadəsi tələbinin ləğvi məsuliyyət hissini azaltmamalıdır".***

Unikal.org xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib. Onun sözlərinə görə, özünü narahat hiss edən, yaxud evdə xəstə şəxsə baxan biri mütləq maska istifadə etməlidir: "Xroniki xəstəliyi olan şəxs istər bazara gedəndə, istərsə də dayanacaqlarda avtobus gözləyərkən özünü qoru-



maq üçün maska taxmalıdır. Qapalı məkanlarda bəzən maskanın düzgün taxılmaması müşahidə olunur. Maska istifadəsi tələbi olanda tibbi maskanı evdən çıxanda taxırdılarsa, indi qadağanın ləğvi insanlarda lazımi yerlərdə tibbi maskanın taxılmasını unutdurur".

Baş infeksionist bildirib ki, maskanı qatlayıb cibə qoymaq və ya qırışdırmaq olmaz: "Maskanı xüsusi paketdə saxlamaq lazımdır. Eyni zamanda nəmlənən maskanın istifadəsi düzgün deyil. Odur ki, maska istifadəsi tələbinin ləğvi arxayınlıq yaratmasın. Yoxsa, yenidən yoluxma sayında artım olacaq".

# Prezident İlham Əliyev “Binəqədi” yarımstansiyasının açılışında



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonunda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/6 kilovoltuq “Binəqədi” yarımstansiyasının açılışında iştirak edib.***

Unikal.org xəbər verir ki, “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi. Bildirildi ki, 1952-ci ildə inşa edilən “Binəqədi” yarımstansiyası istismar müddətini iki dəfə keçmişdi. Bu isə texnoloji itkilərin çoxalmasına, müxtəlif qəza hallarının, qısaqapanmaların baş verməsinə, istehlakçıların enerji təchizatında fasilələrin yaranmasına səbəb olurdu. İndi bu yarımstansiya müasir avtomatika sistemləri ilə təchiz edilərək tam yenidən qurulub. Burada görülən işlər çərçivəsində yeni avadanlıqla komplektləşdirilmiş, müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri ilə təchiz olunmuş yeni İdarəetmə Mərkəzi tikilib və yerli mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.

Qeyd edək ki, “Binəqədi” yarımstansiyasının yenidən qurulması həm də ona görə əhəmiyyətlidir ki, o, paytaxtın Binəqədi, Nərimanov, Nəsimi rayonlarının dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasında mühüm rol oynayır.

Diqqətə çatdırıldı ki, Abşeron Regional Elektrik Şəbəkəsinin bu ərazidə yerləşən inzibati binası da yenidən qurulub. Şəbəkənin köhnə inzibati binası genişləndirilərək əsaslı təmir olunub, heyətin fasiləsiz iş rejimində çalışması üçün zəruri şərait yaradılıb. Bununla yanaşı, “Azərenerji” ASC-nin xüsusi təyinatlı maşın-mexanizmləri üçün nəqliyyat sahəsi və onlara təmir xidməti göstərəcək sahələr yaradılıb. Müxtəlif relyeflərdə, ağır şəraitdə işləyə biləcək xüsusi təyinatlı maşınlar alınıb. Ərazidə transformatorların təmir sahəsi qurulub, xüsusi layihə əsasında abadlıq işləri görülüb, geniş yaşıllıq sahələri salınıb.

Prezident İlham Əliyev “Binəqədi” yarımstansiyasını işə saldı.

Dövlətimizin başçısına işğaldan azad edilən Suqovuşan qəsəbəsində yenidən qurulması tam başa çatan, ümumi gücü 7,8 meqavat olan “Suqovuşan-1” və “Suqovuşan-2” kiçik su elektrik stansiyalarında görülən işlər barədə də məlumat verildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonunda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/6 kilovoltuq “Binəqədi” yarımstansiyasının açılışında iştirak edib.

”Report” xəbər verir ki, “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 1952-ci ildə inşa edilən “Binəqədi” yarımstansiyası istismar müddətini iki dəfə keçmişdi. Bu isə texnoloji itkilərin çoxalmasına, müxtəlif qəza hallarının, qısaqapanmaların baş verməsinə, istehlakçıların enerji təchizatında fasilələrin yaranmasına səbəb olurdu. İndi bu yarımstansiya müasir avtomatika sistemləri ilə təchiz edilərək tam yenidən qurulub. Burada görülən işlər çərçivəsində yeni avadanlıqla komplektləşdirilmiş, müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri ilə təchiz olunmuş yeni İdarəetmə Mərkəzi tikilib və yerli mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.

Qeyd edək ki, “Binəqədi” yarımstansiyasının yenidən qurulması həm də ona görə əhəmiyyətlidir ki, o, paytaxtın Binəqədi, Nərimanov, Nəsimi rayonlarının dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasında mühüm rol oynayır.

Diqqətə çatdırıldı ki, Abşeron Regional Elektrik Şəbəkəsinin bu ərazidə yerləşən inzibati binası da yenidən qurulub. Şəbəkənin köhnə inzibati binası genişləndirilərək əsaslı təmir olunub, heyətin fasiləsiz iş rejimində çalışması üçün zəruri şərait yaradılıb. Bununla yanaşı, “Azərenerji” ASC-nin xüsusi təyinatlı maşın-mexanizmləri üçün nəqliyyat sahəsi və onlara təmir xidməti göstərəcək sahələr yaradılıb. Müxtəlif relyeflərdə, ağır şəraitdə işləyə biləcək xüsusi təyinatlı maşınlar alınıb. Ərazidə transformatorların təmir sahəsi qurulub, xüsusi layihə əsasında abadlıq işləri görülüb, geniş yaşıllıq sahələri salınıb.

Prezident İlham Əliyev “Binəqədi” yarımstansiyasını işə saldı.

Dövlətimizin başçısına işğaldan azad edilən Suqovuşan qəsəbəsində yenidən qurulması tam başa çatan, ümumi gücü 7,8 meqavat olan “Suqovuşan-1” və “Suqovuşan-2” kiçik su elektrik stansiyalarında görülən işlər barədə də məlumat verildi.

## Ermənistandakı morqlarda saxlanılan meyitlər Azərbaycan hərbçilərinə aid deyil - RƏSMİ

***İyunun 2-də Ermənistan mətbuatında həmin ölkənin morqlarında saxlanılan meyitlərdən bəzilərinin Azərbaycanın hərbi qulluqçularına aid olması ehtimalı barədə həqiqətəuyğun olmayan fikirlər səsləndirilib.***

Bakıvaxtı.az xəbər verir ki, məsələ ilə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidməti məlumat yayıb.

Bildirilib ki, Ermənistan səhiyyə nazirliyinin tabeliyində olan morqlarda saxlanılan və kimlikləri məlum olmayan meyitlərin içərisində Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətinə aid hərbi qulluqçu yoxdur. Belə ki, Ermənistan hüquq mühafizə orqanları tərəfindən təyin edilmiş məhkəmə-genetik ekspertizasının (DNT testi) rəyi ilə həmin meyitlərin erməni hərbçilərə məxsus olması müəyyən edilib.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq doğmalarına təhvil verilməsi istiqamətində Azərbaycan Respublikası Baş Prokurorluğunun, Respublika Hərbi Prokurorluğunun, Dövlət Təhlükəsizliyi Xidmətinin, Müdafiə və Fövqəladə Hallar Nazirliklərinin peşəkar əməkdaşlarından ibarət axtarış qrupları tərəfindən intensiv iş aparılır.

## Sergey Narışkin İlham Əliyevə məktub yazdı

***Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***

“Unikal” xəbər verir ki, məktubda deyilir: ”Hörmətli İlham Heydər oğlu. Milli bayramınız - Respublika Günü münasibətilə Sizi Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan təbrik edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.

Fürsətdən istifadə edərək Sizə ölkələrimizin xüsusi xidmət orqanlarının kəşfiyyat xətti üzrə qarşılıqlı fəaliyyətinə göstərdiyiniz diqqət və dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu qarşılıqlı fəaliyyət bundan sonra da Rusiya və Azərbaycanın qardaş xalqlarının təhlükəsizliyinin təminatına və milli maraqlarının qorunmasına etibarlı zəmanət olacaq”.

## Kəmaləddin Heydərovdan Formula 1 ilə bağlı ƏMR



***İyunun 4-6-da Bakı şəhərində keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi ilə bağlı Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejiminə keçib.***

“Unikal” xəbər verir ki, bununla bağlı Fövqəladə Hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun imzaladığı əmrə əsasən, yarışın keçiriləcəyi ərazilərdə aidiyyəti təhlükəsizlik tədbirlərinə riayət olunmasının yoxlanılmasının təşkili, habelə baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılması məqsədilə Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

Bu çərçivədə, yarışın keçiriləcəyi trek və onun ətrafındakı küçələrdə nəqliyyatın hərəkətinə qoyulan məhdudiyyət nəzərə alınaraq, şəhərin mərkəzi hissəsində baş verə biləcək hər hansı fövqəladə hadisənin qarşısının çevik və effektiv alınmasının təmin edilməsi məqsədilə həmin ərazilərdə Fövqəladə Hallar Nazirliyinin aidiyyəti qəza-xilasetmə qurumlarının müvafiq şəxsi heyət və texnikasının növbətçiliyi təşkil olunub.

## QMİ-dən ittihamlara reaksiya



***Xəbər verdiyimiz kimi, Qafqaz Müsəlmanları İdarəsi (QMİ) COVID-19 pandemiyası ilə əlaqədar məsciddə və digər ibadət yerlərində riayət olunmalı qaydaları açıqlayıb. Bu qaydalar ictimaiyyət tərəfindən bir mənalı qarşılanmayıb.***

Belə ki, yalnız COVID-19 pasportuna (peyvənd vurulmasına dair və ya immunitet sertifikatına) malik olan şəxslərin ibadət yerlərində dini ayinlərin icrasında iştirakına icazə verilməsi və azyaşlı (14 yaşdan yuxarı olmayan) uşaqların ibadət yerlərinə gətirilməməsi narazılığa səbəb olub.

Məsələ ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin mətbuat xidmətinin rəhbəri Rəhimə Dadaşova bildirib ki, qaydalar Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri əsasında müəyyənləşdirilib.

“Biz ötən gün qaziləri QMİ-yə dəvət edərək qaydaları onlara açıqladıq. İclasda qazilərin suallarına da cavab verildi. Narazı qalmaq üçün səbəb olmadı”,-deyə R.Dadaşova bildirib.



# Azərbaycanın Baş Prokuroru BMT-nin toplantısına qatılıb

***İyunun 2-də Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində hibrid formatda Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Korrupsiyanın qarşısının alınması, onunla mübarizə və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş xüsusi sessiyası (BMT BA-nın xüsusi sessiyası) öz işinə başlayıb.***

"Unikal" xəbər verir ki, tədbirdə ölkəmizi Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti, o cümlədən Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəsi Yaşar Əliyev təmsil edir:

"Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırın açılış nitqi ilə başlanmış tədbirdə korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə sahəsində qarşıya çıxa biləcək çətinliklərin həlli yolları, BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının müddəalarının daha effektiv tətbiq edilməsi üçün mövcud olan nəzarət mexanizmləri, eləcə də bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi kimi mövzular ətrafında geniş müzakirələr aparılıb. Daha sonra, BMT-nın Baş Assambleyasının 17 dekabr 2018-ci il tarixli 73/191 nömrəli qətnaməsi əsasında yaradılmış korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə sahəsində qarşıya çıxa biləcək çətinliklərin həlli yollarına, həmin Konvensiyasının müddəalarının tətbiq edilməsi üçün mövcud olan nəzarət mexanizmlərinin və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək, Tərəf Dövlətlərinin birgə səyləri ilə hazırlanıb və korrupsiyaya qarşı mübarizədə kollektiv tədbirlərə yönəlmiş Siyasi Bəyannamə qəbul edilib.

Daha sonra, BMT-nin nümayəndələrinin, Türkiyə Respublikası, Rusiya Federasiyası, ABŞ, Böyük Britaniya, Avropa Birliyi, Avstraliya, Norveç Krallığı, Meksika Birləşmiş Ştatları, Braziliya Federativ Respublikası, Çin Xalq Respublikası və Korrupsiya əleyhinə Konvensiyaya tərəf olan digər ölkələrin dövlət və hökumət başçıları, o cümlədən digər yüksək vəzifəli şəxsləri ilə yanaşı video formatda çıxış edən Baş prokuror Kamran Əliyev dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər barəsində geniş məlumat verərək, iştirakçılara bu sahədə effektiv mübarizə siyasətinin tərkib hissəsi kimi həyata keçirilmiş islahatlardan, ölkədə korrupsiyaya qarşı mübarizədə əhəmiyyətli rol oynayan "ASAN xidmət" mərkəzlərinin və eləcə də hüquq-mühafizə orqanlarının səmərəli fəaliyyətindən bəhs edib, o cümlədən qəbul edilmiş Siyasi Bəyannamənin növbəti bir universal sənəd kimi Tərəf Dövlətlərin səylərinin daha da möhkəmləndirilməsinə böyük töhfə verəcəyinə inamını ifadə edib.

Habelə, çıxışında ölkə təcrübəsində şəffaflıq və keyfiyyətlilik meyarlarının rəhbər tutulduğu kompleks tədbirlərə dair nümunələrə toxunan Baş prokuror son illər milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin, azad rəqabət mühiti və insan kapitalının inkişafının təmin edilməsinin ölkəmizin dünya miqyasında mövqeyinin daha da gücləndirməsi, həmçinin Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış nüfuzlu beynəlxalq təşkilatlar olan Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Antikorrupsiya Şəbəkəsi ilə qarşılıqlı əməkdaşlığından danışıb.

Həmçinin, xüsusi sessiyaya əlavə olaraq Azərbaycan tərəfinin təşəbbüsü ilə dünyada qeyri-kommersiya təşkilatlarında baş verən korrupsiya hüquqpozmaları ilə bağlı məsələlərinin müzakirəsi üzrə müvafiq görüş keçiriləcək".

Rəsmim məlumata görə, BMT BA-nın xüsusi sessiyası öz işini cari ilin 4 iyun tarixinədək davam etdirəcəkdir.

# "Xalqın iradəsinin hakim olması əsas şərtdir"

## Zəlimxan Məmmədli: "İslahat adı ilə baş qatmalar zaman-zaman sınanmış, amma iflası mütləq olan oyunbazlıqdan, cəmiyyəti aldatmaqdan başqa bir şey deyildir"



***Son dövrlər Ermənistan tərəfi Azərbaycan sərhədini pozmaqda, təxribat törətməkdə davam edir. Əsgərlərimizin həyata keçirdiyi əks-əməliyyat nəticəsində bir neçə dəfə ayrı-ayrılıqda erməni diversant qrupları zərərsizləşdirilib, əsir götürülüb. Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə verən siyasi şərhçi Zəlimxan Məmmədli mühüm məqamlara toxunub.***

***-Zəlimxan bəy, Azərbaycan-Ermənistan sərhədində baş verən gərginlik nəyin nəticəsidir, ermənilər indi nə istəyirlər?***

-Birmənalı hər kəsə bəllidir ki, son 2 əsrə yaxındır ki, erməni kartı Rusiyanın və bəzi qərb dövlətlərinin əlində oynadılan siyasi kapitaldır. Əsas hədəf Azərbaycanı buxovlamaq və Türk dünyasının, konkret olaraq Azərbaycan- Türkiyə birliyinə əngəl olmaqdır. İndiki halda baş vermis və baş verən hadisələr Rusiyanın strateji maraqlarının təmininə yönəlib. Rusiya Ermənistandakı seçkilərdə nökəri Köçəryanın reytinqini artırmaq üçün əsas rəqibi və Rusiyanın qırmızı xəttini tapdalamış Paşinyanı elektoral bazadan məhrum etməyə yönəlmiş addımlara şərait yaradır. Sərhəddə baş verənlər daha çox Rusiya-Kocaryan cütlüyünun diversiyalarına bənzəyir.

***-Türkiyə-Azərbaycan münasibətlərinin daha da sıxlaşdırılmasının tərəfdarı kimi çıxışlar edirdiniz. Hazırkı Türkiyə-Azərbaycan münasibətlərini necə qiymətləndirirsiniz?***

-Bir şey həll olunub ki, Türkiyə bölgəyə, Azərbaycana daxil olub. Mübarizə müstəvisi daha çox Rusiya-Türkiyə müstəvisində cərəyan edir. Azərbaycan siyasi hakimiyyətinin rusofillərlə zənginliyi Türkiyənin ölkəmizlə daha sürətli və rasional inteqrasiyasını əngəlləyən ən ciddi maneədir.

***-Türkiyə-Azərbaycan yaxınlaşması bəzi dövlətləri qıcıqlandırır. Bu barədə nə düşünürsünüz?***

- Hətta mən deyərdim ki, Türkiyə- Azərbaycan yaxınlaşması dünyanın əhəmiyyətli hissəsini, xüsusilə də güc mərkəzlərini narahat edir. Bir həqiqəti dərk edənlər çoxalır ki, yeni dünya düzənində yeni güc mərkəzi - Türkiyə-Azərbaycan mərkəzli yeni güc mərkəzi yaranmaqdadır. Burada Türkiyə siyasi sisteminin cəsarəti xüsusi qeyd edilməlidir.

***-Zəlimxan bəy, düşünürdük ki, müharibədən, qələbədən sonra ölkədə problemlər öz həllini tapmağa başlayacaq. Amma məmurların həbsi, narazılıqların davam eləməsi problemin həll olmadığını göstərir. Məsələ odur ki, Prezident də özbaşınalıqlara və qanunsuzluqlara qarşı daha sərt reaksiya verir. Son dəyişikliklər, həbslər də buna sübutdur. Amma görünən odur ki, nəticə çıxaran yoxdur. Sizcə, məmurlar necə seçilməlidir ki, belə hallar yaşanmasın?***

-Azərbaycan hakimiyyətindən fərqli olaraq xalqımız və siyasi qüvvələr çıxış yolunun demokratiyadan olması həqiqətini bilirlər. Azərbaycanın 5-ci kalonla zəngin iqtidarı isə bu həqiqəti görməkdə kordur, kardır. Azad-ədalətli seçki islahatları bu utanc gətirən idarəetmə sistemindən dövlətimizi azad edər. Xalqın iradəsi hakimiyyətə daşınmasında ağıl istismar olunacaq, ağıl istismar olunduqca əxlaq istismar olunacaq. Ağıl və əxlaq istismar olunduqca millət bölünəcək. Hakim satın alındıqca Ədalət öləcək. Ədalət öldüsə, dövlət çökəcək. Bu Fatih Sultan Mehmetin formuludur. Göründüyü kimi, xalqın iradəsinin hakim olması əsas şərtdir. İslahat adı ilə baş qatmalar zaman-zaman sınanmış, amma iflası mütləq olan oyunbazlıqdan, cəmiyyəti aldatmaqdan başqa bir şey deyildir.

***-Belə bir məqamda müxalifətin üzərinə hansı məsuliyyət, hansı yük düşür?***

-Demokratiyaya, demokratiyaya keçid üçün yenə də etimad ideyası əsasında təmərküzləşmək, bəs verənlərə duyğusal, emosional müstəvidən deyil, daha dolğun siyasi-strateji müstəvidən yanaşmaq tələb olunur. Millətimiz isə öz qurduğu dövlətə seyrçi kimi deyil, bu dövlətin sahibi kimi yanaşmalı, təşkilatlanmalı, siyasi proseslərə müdaxilə üçün cəsarətlənməlidir.

***- Bəs bunun üçün nə çatmır?***

-Ənənəvi münasibətlər sisteminin qüsurlu olmasını əsas maneələrdən hesab edirəm. Düşünürəm ki, yeni siyasi reallıqlar, yeni siyasi mühiti və uyğun olaraq münasibətlər sistemini diqtə edir. Fikrimcə, yeni, daha münbit siyasi proseslər ərəfəsində yaşayırıq. Çoxluğun bu reallığı doğru dəyərləndirəcəyinə inanıram. Təmsil olunduğum partiyanın bu istiqamətdə daha dolğun təkliflərinin olacağı da yaxın gələcəyin yeniliklərindən biri ola bilər.

***Z.Məmmədli***

# Məmurlara yeni həbs anonsu...

## Həftənin şərhi: deputat hansı vəzifəlilərə mesaj göndərdi?

***Azərbaycanda son illərdə korrupsiyaya bulaşmış vəzifəli şəxslərin həbsi intensivləşib. Tutduğu postdan istifadə edərək dövlət vəsaitlərini talamış bir çox məmur iş başında, yaxud vəzifəsindən azad edildikdən sonra qandallanıb.***

Bu proses cəmiyyətdə təqdirlə qarşılanır. Lakin o da maraqlıdır ki, həyata keçirilən həbslərin məmur təbəqəsində sanki ciddi dönüş yaratmadığı müşahidə olunur. Çünki hələ də media səhifələrindən tutmuş sosial şəbəkələrədək müxtəlif vəzifəli şəxslərin özbaşınalıqları, qanunsuz əməlləri barədə şikayətlərə, konkret faktlara rast gəlmək olar.





Belə görünür ki, bəzi məmurlar ya özlərini toxunulmaz hesab etdiklərindən, ya da arxalarındakı hansısa gücə inandıqlarından həbs növbəsinin onlara da çata biləcəyini istisna eləyirlər.

Yola salmaq üzrə olduğumuz həftə millət vəkili Vahid Əhmədovun yerli mətbuata verdiyi müsahibədəki bəzi nüanslar belə fikirləşən vəzifəli şəxslər üçün ciddi siqnal sayıla bilər. "Bunu hamı başa düşməlidir, istər nazir olsun, istər icra başçısı olsun, istər komitə sədri olsun, istər şirkət rəhbəri olsun, istərsə də baş həkim olsun. Kimliyindən asılı olmayaraq, pulu hər şeydən üstün tutanlar, korrupsiyaya bulaşanlar, xalqı incidənlər mütləq bir gün cavab verməli olacaq" söyləyən deputat xatırladıb ki, bir vaxtlar Azərbaycanda vergi siyasətində çox ciddi problemlər vardı, sahibkarlar çox əziyyət çəkirdi: "Mikayıl Cabbarov vergi sahəsinin şəffaflaşdırılması üçün ciddi islahatlara getdi. Faktiki olaraq sahibkarlardan tələb olunan odur ki, vaxtında ödənişlərini etsinlər, sənədləri qaydasında olsun. Ümid edək ki, digər sahələrdə də bu şəffaflığa nail olunacaq. Bu gün "Azərbaycanda korrupsiya yoxdur" deyilə bilməz. Bu dəqiqə Azərbaycanda çox ciddi inhisarçılıq, monopoliya var. Hansı sahədə desəniz, monopolistə rast gəlmək mümkündür, özü də arxasındakılar elə-belə adamlar deyil. O insanlar ki, korrupsiyaya qurşanırlar, onların axırı yaxşı olmayacaq. Çünki ölkəmizdə korrupsiyaya qarşı Prezident, Prezident Adminstrasiyası, Dövlət Təhlükəsizliyi Xidməti, hüquq-mühafizə orqanları səviyyəsində mübarizə aparılır. Ona görə də etimad sahibi olan, vəzifə etibar edilən hər kəs bunu dərk etməlidir".

Deputatın sözlərindən bir neçə önəmli nəticə meydana çıxır. Əvvəla, aydın olur ki, indiyə qədərki həbslərə baxmayaraq bəzi məmurlar hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə davranmağa, yeni idarəçilik standartlarından uzaq dayanaraq, korrupsiya, özbaşınalıq, rüşvət kimi meyllərindən əl çəkməməyə davam edirlər.

İkincisi, bəzi iri məmurlar qanunvericiliyin tələblərinə dırnaqarası yanaşaraq özlərinə yaxın şəxslər vasitəsilə yaratdıqları biznesdən əl çəkmək istəmir, üstəlik, bu bizneslərini hələ də bazarda monopolist güc kimi qoruyub saxlayırlar.

Qeyd edək ki, yuxarıdakı hər iki məqam cəmiyyətdə ciddi narazılığa yol açır, eyni zamanda belə məmurların hökuməti sabotaj eləməsi kimi qiymətləndirilir.

Nəhayət, üçüncü və xüsusilə ciddi önəm kəsb edən nəticə: bu günə qədər hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən anti-korrupsiya əməliyyatları bundan sonra da davam etdiriləcək; beləliklə, biz qarşıdakı dövrdə yeni məmur həbslərinin şahidi ola bilərik.

Millət vəkilinin sözlərindən eyni zamanda o da anlaşılır ki, ölkədə korrupsiya və rüşvətə bulaşmış, ya da bulaşmağa davam edən məmurlar qaldıqca belə həbslərin olmasına da təbii yanaşmaq lazımdır...

***P.S. Yeri gəlmişkən, qarşıdakı mərhələdə həbs edilə biləcək vəzifəli şəxslər arasında kimlər ola bilər? Əlbəttə, konkret ünvanlar göstərməklə bu suala adbaad cavab vermək mümkün deyil. Sadəcə, təxminlər irəli sürmək olar. Elə deputat Vahid Əhmədovun haqqında danışdığımız müsahibəsinin aşağıdakı bölümündən çıxış edərək oxucularımız da özləri üçün təxminlərini ortaya qoya bilərlər: ""Vəzifəyə gəlməklə böyük pullara sahib olacağam" düşüncəsi çox geridə qalıb. Son həbslər də bunu diqtə edir. O fikirlə gələnlər, elə o fikrə də qurban gedirlər. Biz cənab Prezidentin rəhbərliyilə müasir, modern Azərbaycan qururuq. Əksini düşünənlər, elə əks qütbdə qalmalı olacaqlar. Və təəssüf edirəm ki, onların sayı kifayət qədər çoxdur. Baş verənlərdən dərs çıxarmırlar, büdcəni talaya-talaya öz sonlarını hazırlayırlar. Bəzi icra başçıları, dövlət qurumlarının sədrləri, şirkət rəhbərləri elə bilirlər ki, vəzifəyə rüşvət yığmaq üçün təyin ediliblər. Bunların hamısının qarşısı alınacaq".***

***Necə deyərlər, sitatın sonu...***

*Orxan Həsənli*

# 304 nəfər dövlət qulluğundan çıxarıldı

***Ötən il "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarının tələblərini pozan 1245 dövlət qulluqçusu barədə intizam tənbeh tədbiri tətbiq edilib.***



"Unikal"ın məlumatına görə, bu barədə Dövlət İmtahan Mərkəzinin "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanuna uyğun olaraq etik davranış məsələləri ilə bağlı həyata keçirilmiş maarifləndirmə tədbirləri və etik davranış qaydalarına əməl edilməsi vəziyyəti barədə 2020-ci il üzrə hesabatında bildirilib.

Həmin intizam tənbeh tədbirlərindən 1044-ü mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumlarında, 201-i isə yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları barədə tətbiq edilib.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumlarında tətbiq edilmiş 1245 intizam tənbeh tədbirindən 887-si töhmət, 304-ü dövlət qulluğundan azad edilmə, 34-ü vəzifə maaşının azadılması, 11-i ixtisas dərəcəsinin bir pillə aşağı salınması, 4-ü həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilmə, 3-ü daha aşağı təsnifatdan olan vəzifəyə keçirilmə olub.

# Əcnəbi tələbələr "Qarabağ Azərbaycandır!" dedilər



***Ölkəmizdə təhsil alan əcnəbi tələbələrin işğaldan azad olunmuş Füzuli və Cəbrayıl rayonlarına səfəri təşkil edilib.***

Təhsil Nazirliyindən "Unikal"a bildirilib ki, səfər Təhsil və Müdafiə nazirlikləri, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə baş tutub. Səfərdə 16 ali təhsil müəssisəsinin 31 ölkəni təmsil edən 40 əcnəbi tələbəsi iştirak edib. Səfər çərçivəsində Füzuli rayonunda qədim məscid, qəzet redaksiyası, köhnə qəbiristanlıq, Cəbrayıl rayonunda Xudafərin körpüsü, su elektrik stansiyası, "Dostluq bulağı", "Qədim çinar", yay kinoteatrı ziyarət olunub, şəhərlərdə dağıntılar nümayiş edilib. Cəbrayıl rayonunda xidmətdə olan əsgər və zabitlərlə görüş keçirilib.

Səfər zamanı əcnəbi tələbələr tərəfindən Azərbaycanın böyük ölçülü dövlət bayrağı açılıb və "Qarabağ Azərbaycandır!" şüarı səsləndirilib.

Qarabağın Azərbaycan üçün əhəmiyyətini, bölgənin tarixi və zəngin mədəni irsini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə "Nargis" jurnalının Qarabağ mədəniyyətinə və tarixinə həsr olunmuş "Karabakh is Azerbaijan" adlı xüsusi buraxılışı əcnəbi tələbələrə təqdim edilib. Sonda xatirə şəkli çəkdirilib, əcnəbi tələbələrin təəssüratları dinlənilib.

# Miqrantlarla bağlı yeni tələb

## Rus dilini və tarixini bilmək məcburidir

***Rusiya hökuməti əcnəbi işçilər üçün rus dilini, tarixini və qanunvericiliyin əsaslarını minimum səviyyədə bilmək üçün tələbləri təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV-ləri məlumat yayıb. Beləliklə, miqrantlar sosial-ümumi və bəzi digər mövzularda sərbəst danışmalıdırlar. Xüsusilə, bu qayda işə qəbul, xəstəxanada konsultasiya və polisə müraciət etmək üçün tətbiq olunur. Lazımi sənədləri və müraciətləri doldurmaq üçün rus dilini bilmək vacibdir. Rusiya tarixi üzrə imtahandan keçərkən xaricdən müraciət edənlər əsas hadisələr, böyük şəhərlərin adları və mühüm dövlət bayramları barədə biliklərinə görə sınanırlar. Bundan əlavə, miqrantlar ölkədə olduqları müddətdə özlərinin əsas hüquqları, azadlıqları və vəzifələri ilə tanış olmalıdırlar. Bu tələblər, bəzi istisnalarla, yalnız Rusiyada müvəqqəti yaşamağı planlaşdıranlara da şamil edilir.

Bundan əvvəl Daxili İşlər Nazirliyi MDB ölkələrindən olan qanunsuz miqrantların 15 iyun 2021-ci il tarixinədək Rusiya Federasiyası ərazisini tərk etmələrini tələb edib.

# Etik davranış qaydaları ən çox pozulan icra hakimiyyətləri - SİYAHI



***Keçən il "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanunun müddəalarının tələblərini pozan yerli icra hakimiyyəti orqanlarında qulluq keçən 201 dövlət qulluqçusu barədə intizam tənbeh tədbiri tətbiq edilib.***

Unikal.org xəbər verir ki, bu barədə dövlət qulluğunda xidməti fəaliyyətin qiymətləndirilməsinə dair 2020-ci il üzrə hesabatda bildirilib.

Hesabata əsasən, təhlil zamanı müəyyən olunub ki, Masallı Rayon İcra Hakimiyyəti üzrə- 19, Lerik Rayon İcra Hakimiyyəti üzrə- 16, Qobustan Rayon İcra Hakimiyyəti üzrə- 12, Samux Rayon İcra Hakimiyyəti üzrə- 11, Ağcabədi Rayon İcra Hakimiyyəti üzrə- 11, Tərtər Rayon İcra Hakimiyyəti üzrə- 10, Beyləqan Rayon İcra Hakimiyyəti üzrə- 9, Xaçmaz Rayon İcra Hakimiyyəti üzrə- 8, Zaqatala Rayon İcra Hakimiyyəti üzrə- 8, Qazax Rayon İcra Hakimiyyəti üzrə- 8, Bərdə Rayon İcra Hakimiyyəti üzrə- 6, İsmayıllı Rayon İcra Hakimiyyəti üzrə- 6, Şamaxı Rayon İcra Hakimiyyəti üzrə- 6, Ucar Rayon İcra Hakimiyyəti üzrə- 6, Binəqədi Rayon İcra Hakimiyyəti üzrə- 5, Qaradağ Rayon İcra Hakimiyyəti üzrə- 5, Daşkəsən Rayon İcra Hakimiyyəti üzrə- 5, Yardımlı Rayon İcra Hakimiyyəti üzrə- 5, Səbail Rayon İcra Hakimiyyəti üzrə- 4, Ağdam Rayon İcra Hakimiyyəti üzrə- 4, Ağstafa Rayon İcra Hakimiyyəti üzrə- 4, Şəki Şəhər İcra Hakimiyyəti üzrə- 4, Abşeron Rayon İcra Hakimiyyəti üzrə- 3, Ağdaş Rayon İcra Hakimiyyəti üzrə- 3, Kəlbəcər Rayon İcra Hakimiyyəti üzrə- 3, Tovuz Rayon İcra Hakimiyyəti üzrə- 3, Bakı Şəhər İcra Hakimiyyəti üzrə- 2, Nərimanov Rayon İcra Hakimiyyəti üzrə- 2, Füzuli Rayon İcra Hakimiyyəti üzrə- 2, İmişli Rayon İcra Hakimiyyəti üzrə- 2, Cəlilabad Rayon İcra Hakimiyyəti üzrə- 2, Qəbələ Rayon İcra Hakimiyyəti üzrə- 2, Pirallahı Rayon İcra Hakimiyyəti üzrə- 1, Yasamal Rayon İcra Hakimiyyəti üzrə- 1, Kürdəmir Rayon İcra Hakimiyyəti üzrə- 1, Oğuz Rayon İcra Hakimiyyəti üzrə- 1, Qax Rayon İcra Hakimiyyəti üzrə- 1 dövlət qulluqçusuna intizam tənbeh tədbiri tətbiq edilib.

Xətai Rayon İcra Hakimiyyəti, Xəzər Rayon İcra Hakimiyyəti, Suraxanı Rayon İcra Hakimiyyəti, Nizami Rayon İcra Hakimiyyəti, Nəsimi Rayon İcra Hakimiyyəti, Sabunçu Rayon İcra Hakimiyyəti, Ağsu Rayon İcra Hakimiyyəti, Astara Rayon İcra Hakimiyyəti, Biləsuvar Rayon İcra Hakimiyyəti, Cəbrayıl Rayon İcra Hakimiyyəti, Gədəbəy Rayon İcra Hakimiyyəti, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Şəhər Kəpəz Rayon İcra Hakimiyyəti, Gəncə Şəhər Nizami Rayon İcra Hakimiyyəti, Göyçay Rayon İcra Hakimiyyəti, Göygöl Rayon İcra Hakimiyyəti, Hacıqabul Rayon İcra Hakimiyyəti, Lənkəran Şəhər İcra Hakimiyyəti, Mingəçevir Şəhər İcra Hakimiyyəti, Balakən Rayon İcra Hakimiyyəti, Naftalan Şəhər İcra Hakimiyyəti, Quba Rayon İcra Hakimiyyəti, Qusar Rayon İcra Hakimiyyəti, Saatlı Rayon İcra Hakimiyyəti, Sumqayıt Şəhər İcra Hakimiyyəti, Siyəzən Rayon İcra Hakimiyyəti, Şirvan Şəhər İcra Hakimiyyəti, Şuşa Rayon İcra Hakimiyyəti, Xızı Rayon İcra Hakimiyyəti, Xocalı Rayon İcra Hakimiyyəti, Xocavənd Rayon İcra Hakimiyyəti, Yevlax Rayon İcra Hakimiyyəti, Zəngilan Rayon İcra Hakimiyyəti, Zərdab Rayon İcra Hakimiyyəti, Goranboy Rayon İcra Hakimiyyəti tərəfindən intizam tənbeh tədbiri tətbiq edilməyib.

Masallı Rayon İcra Hakimiyyəti tərəfindən 11, Ağdaş Rayon İcra Hakimiyyəti tərəfindən 5, Füzuli Rayon İcra Hakimiyyəti tərəfindən 4, Lerik Rayon İcra Hakimiyyəti tərəfindən 4, Tərtər Rayon İcra Hakimiyyəti tərəfindən 4, Qazax Rayon İcra Hakimiyyəti tərəfindən 3, Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən 1 dövlət qulluqçusuna xəbərdarlıq edildiyi bildirilib.

Laçın Rayon İcra Hakimiyyəti, Neftçala Rayon İcra Hakimiyyəti, Şabran Rayon İcra Hakimiyyəti və Şəmkir Rayon İcra Hakimiyyəti tərəfindən intizam tənbeh tədbirlərinin tətbiq edilib-edilməməsi barədə məlumat verilməyib.

Yerli icra hakimiyyəti orqanlarında tətbiq edilən 201 intizam tənbeh tədbirindən 182-si töhmət, 12-si dövlət qulluğundan azad edilmə, 3-ü ixtisas dərəcəsinin bir pillə aşağı salınması, 2-si həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilmə olub.

Cəlilabad Rayon İcra Hakimiyyəti tərəfindən təqdim edilən məlumatda 2 intizam tənbeh tədbirinin tətbiq edildiyi göstərilsə də, pozulmuş etik davranış qaydası qeyd edilməyib.

# Mustafa Abbasbəyli Dövlət Məşğulluq Agentliyini girdabdan çıxara bilmir

## Böyük ümidlərlə start verilən proqram niyə özünü doğrultmadı?




***Son illər ölkə mediasının, həm də haqlı olaraq əsas tənqid hədəflərindən biri Dövlət Məşğulluq Agentliyidir. Bu qurum üzərinə düşən vəzifələri yerinə yetirməkdə, ən azından layiqincə yerinə yetirməkdə çətinlik çəkir. Elə ona görə də təkcə medianın yox, həm də ictimaiyyətin qınaqları ilə üzləşib.***

Nizamnaməsinə görə, Dövlət Məşğulluq Agentliyi aktiv məşğulluq tədbirlərinin təşkili, işsizlikdən sığorta vəsaitinin idarə edilməsi, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi ilə bağlı tədbirlərin, "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl olunmasına nəzarətin, habelə aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə əmək bazarının təhlili və qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması ilə bağlı nəzarət tədbirlərinin həyata keçirilməsi, bununla bağlı maarifləndirmə, məlumatlandırma, təbliğat işinin təşkili sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir. Agentlik Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərir.

Lakin burada "fəaliyyət göstərir" ifadəsi reallıqla tərs-mütənasibdir. Çünki yazının əvvəlində də qeyd elədiyimiz kimi, cəmiyyət Agentliyin məhz fəaliyyətsizliyindən şikayətçidir. Belə şikayətlər isə əbəs yerə ortaya çıxmayıb.

Düzdür, ötən ilin aprelində quruma yeni rəhbər təyin edildi; Mustafa Abbasbəyli Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri təyin olundu. Bundan sonra gözləntilər o yöndə idi ki, adıçəkilən qurum öz fəaliyyətində müsbətə doğru ciddi dəyişikliklər edəcək. Lakin təəssüf ki, sözügedən təyinatın üzərindən bir ildən çox vaxt keçməsinə baxmayaraq həmin dəyişiklikləri müşahidə etmirik.

Uzağa getməyək, böyük ümidlərlə start verilən özünüməşğulluq proqramını götürək. Dövlət Məşğulluq Agentliyi illər boyunca bu proqramın icrasını həyata keçirsə də, ortada ciddi nəticədən danışmaq mümkün deyil. Ciddi nəticəni bir kənara qoyaq. Hətta həmin proqram ətrafında çoxsaylı korrupsiya şübhələri meydana çıxdı, proqrama cəlb edilən vətəndaşlar bir çox səbəblərlə kəskin giley-güzarlar irəli sürdülər.

Elə iki ay öncə Hesablama Palatasının açıqladığı bir fakt da sözügedən proqramın uzun illər özünüməşğulluqdan çox kimlərinsə maraqlarına xidmət elədiyinin isbatı sayıla bilər. Belə ki, Palatanın 2020-ci ildə fəaliyyəti haqqında" hesabatına görə, özünüməşğulluq tədbirləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi tərəfindən vətəndaşlara verilmiş iribuynuzlu və xırdabuynuzlu heyvanların alış qiymətləri üzrə 2019-cu ilin göstəriciləri 2018-ci ilin müvafiq göstəricilərindən çox olub.

Hesabatda o da qeyd olunub ki, 2018-ci ildə bağlanmış satınalma müqaviləsində heyvanların alınması üzrə nəzərdə tutulmuş şərtlərə tam əməl edilməyib, alınacaq heyvanların say tərkibi dəyişdirilsə də, alış qiymətləri saxlanılıb: "Agentlik tərəfindən xırdabuynuzlu heyvanların satın alınması üçün təchizatçı ilə bağlanılmış müqavilələrdə, qiymət protokollarında və müvafiq biznes-planlarda nəzərdə tutulmuş şərtlərə tam əməl edilməyərək bəzi hallarda yüksək məhsuldarlıqlı heyvanlar satın alınmayıb, 2018-ci ildə vətəndaşlara bir çox hallarda ətlik danalar və toğluların verilməsi son nəticədə vətəndaşların özünüməşğulluğunun nəzərdə tutulduğu səviyyədə təmin olunmamasına şərait yaradıb, 2018-ci ildə alındığı rəsmiləşdirilib, lakin vətəndaşlara paylanılmamış 1400 baş toğlunun qalıq qismində qalması, yaxud əvəzləşdirilməsinə dair Agentliklə icraçı müəssisə arasında müvafiq rəsmiləşdirmə aparılmayıb".

Bu və buna bənzər çoxsaylı faktlar Dövlət Məşğulluq Agentliyinin haqqında danışdığımız proqramı yerinə yetirməkdə acizlik nümayiş etdirdiyinin göstəricisidir. Hələ onu demirik ki, internet üzərindən kiçik bir araşdırma apardıqda qarşımıza özünüməşğulluq proqramının icrası ilə bağlı saysız-hesabsız şikayətlə qarşılaşırıq.

Qeyd edək ki, hələ 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində əhalinin məşğulluğu sahəsində siyasətin və icra mexanizmlərinin təkmilləşdirilməsi, aktiv məşğulluq tədbirlərinin və özünüməşğulluq proqramının səmərəliliyinin artırılması məsələlərinə dair müşavirə keçirilmiş, müşavirədə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev vurğulamışdı ki, məşğulluq orqanlarının fəaliyyətinin nəticələri, o cümlədən işsiz və işaxtaran kimi qeydə alınmış insanların məşğulluğunun təmin edilməsi göstəriciləri qənaətbəxş deyil. Bu açıqlamanın üstündən 3 il keçsə də nazirin iradı aktuallığını qoruyur.

Bir sözlə, hər şey böyük ümidlərlə başlayan özünüməşğulluq proqramının iflas etdiyini göstərir. Dövlət Məşğulluq Agentliyinin ötən ilin yazında təyin olunan rəhbərinin də məlum durumu hələlik dəyişə bilmədiyini ortaya qoyur. Bu situasiyanın nə qədər davam edəcəyini isə zaman göstərəcək...

***Toğrul Əliyev***

# Zaur Hüseynovun müəmmalı səssizliyi...

## "Bakı Metropoliteni"nin tenderləri ilə bağlı iddia və ittihamlar niyə cavabsız qalıb?

***Son günlər ”Bakı Metropoliteni” QSC-nin keçirdiyi tenderlərlə bağlı bir-birindən diqqətçəkən məlumatlar yayılmaqdadır. Yerli mətbuatın başlıca müzakirə mövzularından birinə çevrilən bu məlumatlarda həmin tenderlərdə kifayət qədər şübhəli məqamların olduğuna diqqət çəkilir.***

Məsələn, ötən ay şin, mis torpaqlama zolağı və müxtəlif ölçülü mis kabel ucluğun satın alınması üzrə elan edilən tenderin qalibi “Bakı Yastıq Zavodu” ASC olub. Bildirilib ki, satınalma müqaviləsinin maliyyə dəyəri 272 580 AZN-dir.

İqtisadiyyat Nazirliyi yanında



Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, “Bakı Yastıq Zavodu” ASC 16 iyul 2004-cü ildə qeydiyyata alınıb. ASC-nin nizamnamə kapitalı 253 922 AZN-dir. Hüquqi ünvanı Bakı şəhəri Nizami rayonu, Keşlə qəsəbəsi, ev 31-də yerləşən şirkətin qanuni təmsilçisi Əhmədov İmam Baba oğludur.

Açıq mənbələrdə “Bakı Yastıq Zavodu” ASC barəsində məlumatlar məhduddur. Baxmayaraq ki, şirkət 16 ildir fəaliyyət göstərir. Şirkətin hazırda 8008.85 AZN vergi borcu var. “Dövlət satınalmaları haqqında” Qanuna görə, vergi borcu olan şirkətlər tenderlərə qatıla bilməz. Bəzi iddialara görə, ASC-nin rəhbərliyi tenderdə iştirak üçün vergi borcu olmadığı barədə saxta arayış təqdim edib.

“Bakı Yastıq Zavodu” İmam Əhmədova gəlincə, onun adı məhkəmə işində keçir. Məlum olur ki, Loğman Bəşirov adlı vətəndaş onu əmlak üzərində mülkiyyət hüquqnun tanınması və zərərin ödənilməsi, saxta sənədləşdirmə yolu ilə əmlak və nəğd vəsaitin mənimsənilməsi iddiası ilə məhkəməyə verib.

Bir neçə gün öncə isə ”Bakı Metropoliteni” QSC müxtəlif növ rabitə, siqnal və güc kabellərinin satınalınması ilə bağlı elan etdiyi açıq tenderə yekun vurub. Vahid dövlət satınalmaları portalına istinadən verilən xəbərə görə, tenderin qalibi ”Sumqayıt Texnologiyalar Parkı” (STP) MMC-yə məxsus “STP Global Cable” MMC olub.

Qalib şirkətə 1,778 milyon manat ödəniləcək.

Bu qədər böyük məbləğdə dövlət satınalmasını qazanan ”STP Global Cable” MMC ötən ilin noyabrında qeydiyyata alınıb.

Daha əvvəl isə ”Bakı Metropoliteni”nin kabel və şin bağlantılarının satın alınmasına dair keçirdiyi tenderin qalibi ”ERG Baku” MMC olmuşdu. Satınalmanın məbləği 103 min 858 manat 76 qəpik məbləğində qiymətləndirilmişdi.

Nizamnamə kapitalı 100 manat olan şirkət 2016-cı ildə Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ, ev 22 ünvanında qeydiyyata alınıb. MMC-nin qanuni təmsilçisi Şiriyev Tərlan Nəzərəli oğludur.

Maraqlı orasıdır ki, şirkət yarandığı gündən indiyə kimi yalnız ”Bakı Metropoliteni”nin keçirdiyi satınalmalarda qalib olub. 2019-cu ilin aprel ayının 29-dan indiyə kimi QSC ilə ”ERG Baku” arasında 8 satınalma müqaviləsi bağlanıb.

Qeyd edək ki, bunlar Zaur Hüseynovun rəhbəri olduğu ”Bakı Metropoliteni”nin keçirdiyi və yerli medianın şübhəli hesab elədiyi tenderlərin az bir qismidir. Adıçəkilən QSC-nin bu yöndəki iddiaları susqunluqla qarşılaması və cavabsız qoyması isə məsələnin başqa bir maraqlı tərəfidir. Bu susqunluğun səbəbini izah eləmək çətindir. Sadəcə onu deyə bilərik ki, susmaq adətən razılıq əlaməti kimi qəbul olunur. Həmin məntiqdən çıxış etsək, belə düşünə bilərik ki, ”Bakı Metropoliteni”nin rəhbərliyi keçirdiyi bir çox tenderlərin şübhəli xarakter daşıdığı yöndə eyhamlarla və iddialarla dolayısı ilə razılaşır...

Cəmiyyətdə belə bir qənaətin hasil olmaması üçün adıçəkilən QSC-nin şübhəli tenderlər mövzusunda KİV-də yazılanlara, ictimai rəydə dolaşan fikirlərə həssaslıqla yanaşması vacibdir. Üstəlik, söhbət təkcə ”Bakı Metropoliteni”ndən də getmir. Hər bir dövlət qurumu keçirdiyi satınalma müsabiqəsi ilə bağlı cəmiyyətdə yaranan suallara aydınlıq gətirməli olduğuna dair məsuliyyətini unutmamalıdır.

Bir halda ki, söhbət yenə şübhəli dövlət satınalmalarından gedir, onu da vurğulamaq yerinə düşər ki, ”Unikal” qəzeti olaraq indiyədək dövlət satınalmalarındakı qaranlıq məqamlarla bağlı dəfələrlə, ətraflı bəhs etmiş və ölkədə korrupsiyanın kökünün kəsilməsinə həm də dövlət satınalmalarından başlamağın zəruriliyinə toxunmuşuq. Bildirmişik ki, Azərbaycanda faktiki olaraq ”tender korrupsiyası” formalaşıb. Bu isə məmurların büdcə vəsaitlərinə xalqın və dövlətin malı kimi deyil, ”şəxsi malı” kimi baxmasının nişanəsidir. Onlar üçün büdcə pullarının bircə təyinatı var: talançılıq! Nəyin bahasına olur- olsun, həmin pulları havaya sovurmaq, öz ciblərinə yönəltmək istəyirlər, nəticədə isə bunun fərqli hiylələrini fikirləşib tapırlar. Həmin hiylələrin bir çoxu elə müəmmalı, şübhəli tenderlər vasitəsi ilə həyata keçirilir. Bu günədək həbs olunan icra başçılarının, ayrı-ayrı nazirliklərin rəhbər şəxslərinin cinayət dosyelərindən çıxan nəticə budur.

Bir halda ki bəziləri hələ də belə qanunsuz əməlləri davam etdirirlər, deməli, onda yeni məmur həbsləri də qaçılmazdır. Bizdən söyləmək, gerisini qoy dövlət satınalmalarını korrupsiya predmetinə çevirən vəzifəlilər düşünsün!

***Sənan Mirzə***



# Cavid Osmanovdan benzinin bahalaşması ilə bağlı açıqlama

***”Son günlər dünya bazarında neftin qiymətinin artması neft məhsullarının da qiymətində artımlara gətirib çıxarır. Xüsusilə də yüksəkoktanlı benzin qiymətində artımların olması diqqətçəkən məqamlardandır. Məlum olduğu kimi ölkəmizdə yüksəkoktanlı benzin istehsal olunmur, ölkəyə idxal olunur - qiymət idxal edilən ölkələrin, yəni beynəlxalq bazarın qiymətlərindən asılıdır. Bahalaşma bu markalı benzinin xaricdən alış qiymətinin artmasının nəticəsidir. Benzin istehsalı ilə məşğul olan ölkələrin ixrac siyasətinin dəyişməsi qiymətlərin bahalaşmasının əsas səbəbidir”.***

Bu fikirləri Unikal.org-a açıqlamasında Cavid Osmanov deyib. O bildirib ki, ölkə daxilində bu benzin növlərinin qiymətinin artımı dünya bazarında yüksəkoktanlı yanacağın bahalaşması ilə birbaşa əlaqədardır.

”Beləliklə, dünyada neft məhsullarının bu növünün qiyməti artdıqca, Azərbaycanda da qiymət artır, azaldıqca - azalır. Məsələn, pandemiyadan əvvəl Aİ-95-in bir litrinin qiyməti 1,5 manat idi, daha sonra, pandemiya dövründə 1,2 və 1,1 manat oldu. İndi isə dünyada qiymət artıb və bununla əlaqədar olaraq idxal edilən benzin növlərinin qiyməti Azərbaycanda da yüksəlib. Bir sözlə, bahalaşma ölkədaxili təşəbbüsün nəticəsi deyil.

Dünya bazarında neftin qiymətin artmasına isə bir sıra amillər səbəb olur. Dünyada gedən siyasi proseslər, münaqişələr, İran ətrafında gedən proseslər, Rusiya-ABŞ münasibətlərinin gərginləşməsi, dünyada yüksəkoktanlı benzinə olan tələbat və bir sıra digər geosiyasi amillər dünya bazarında neft və neft məhsullarının qiymətinə bilavasitə təsir edə bilir. Yüksəkoktanlı benzinin bahalaşmasının ölkə iqtisadiyyatına təsir etməyəcəkdir. Belə ki, Azərbaycanda yüksəkoktanlı benzinə olan tələbat cəmi 5 faizdir. Sözügedən markalı yanacaqlardan əsasən mühərrikləri güclü olan bahalı maşın sahibləri istifadə edirlər. Ona görə də, bu markalı benzinlərin bahalaşması orta təbəqənin gəlirlərinə və ya ərzaq məhsullarının bahalaşmasına təsir etməyəcək.

Ölkəmizdə istifadə edilən əsas yanacaq növləri dizel və Aİ-92 benzinidir ki, bunlar da ölkə daxilində istehsal olduğuna görə, onların qiymətini dövlət özü tənzimləyir.

Yüksəkoktanlı benzinin qiymətlərində baş vermiş dəyişikliklər təqribən 12% təşkil edir ki, bu da dünya yanacaq bazarında olan dəyişikliklər fonunda böyük bahalaşma kimi dəyərləndirilə bilməz. Bu növ benzinin qiyməti ölkəmizdə qonşu ölkələrlə müqayisədə aşağıdır. Qonşu ölkələrdən Gürcüstanda 95 oktanlı benzinin satış qiyməti 1,75 AZN, 98 oktanlı benzinin satış qiyməti isə 1,82 AZN-dir. Türkiyədə bu qiymət müvafiq olaraq 1,94 AZN və 2 AZN təşkil edir. Ukraynada da bu növdə avtomobil benzinlərinin satış qiyməti 2 AZN-dir.

Ölkə iqtisadiyyatının dünyadakı benzin qiymətlərindən asılılığının azaldılması Azərbaycan hökumətinin diqqət mərkəzindədir.

Belə ki, beynəlxalq yanacaq bazarındakı qiymət dəyişikliklərindən asılılığı azaltmaq üçün Azərbaycanda yeni zavodların inşası nəzərdə tutulub. Heydər Əliyev adına Neftemalı Zavodunda aparılan modernizasiya nəticəsində 2022-ci ildən sonra ölkəmizdə Aİ-95 markalı benzinin istehsalı mümkün ola bilər. Belə olduğu halda, bu benzinin idxalından asılılığımızı azalda və yaxud ümumiyyətlə aradan qaldıra bilərik. Nəticədə isə dövlət öz siyasətinə uyğun olaraq qiymətləri tənzimləyə biləcəkdir”.

# Bu kafe və restoranlarda nöqsanlar aşkarlandı - SİYAHI



***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) nəzarət tədbirləri çərçivəsində ötən gün ölkə üzrə 449 ictimai iaşə obyektində 781 monitorinq keçirib.***

AQTA-dan Unikal.org-a verilən məlumata görə, monitorinqlər zamanı 21 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunub.

Aşkar edilən nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq tədbirlər görülüb. Pozuntular aşkar edilmiş ictimai iaşə müəssisələri aşağıdakılardır:

1. Bakı şəhəri, Nərimanov rayonuy, Məsud Əlizadə 24 B ünvanında yerləşən, fiziki şəxs Rüstəmov Rüstəm Çapay oğluna məxsus "Wood House" restoranı;
2. Bakı şəhəri, Nərimanov rayonuy, Məsud Əlizadə 47 C ünvanında yerləşən, fiziki şəxs Babayev Nadirə məxsus kafe;
3. Bakı şəhəri, Səbail rayonu, Əliyeva 3 y ünvanında yerləşən, hüquqi şəxs "Simurg" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Second cup" restoranı;
4. Bakı şəhəri, Yasamal yrayonu, Moskva prospekti 47 ünvanında yerləşən, fiziki şəxs Bağırov Arif Nofəl oğluna məxsus " Saluonol lounge" kafesi;
5. Bakı şəhəri, Nəsimi yrayonu, Vurğun küçəsi 68 ünvanında yerləşən, hüquqi şəxs "Kobra" kiçik müəssisəsinə məxsus kafe;
6. Bakı şəhəri, Yasamal yrayonu, Cavid pr. A.Sultanova küç. kəsişməsində yerləşən, hüquqi şəxs "Reges Restauran" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus restoran;
7. Bakı şəhəri, Nərimanov yrayonu, Əliyar Əliyev 1993-cü məhəllə, qeyri yaşayış sahəsində yerləşən, fiziki şəxs Əliyev Nazim Süleyman oğluna məxsus kafe;
8. Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev prospekti 94F,102D ünvanında yerləşən, fiziki şəxs Babayev Əkrəm Rəhim oğluna məxsus "Bazaar rooms" restoranı;
9. Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Zaqulba çimərlik ünvanında yerləşən, hüquqi şəxs "Alka " Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Sea side" restoranı;
10. Bakı şəhəri, Nizami rayonu, M.Şərifli küç., dağüstü parkda yerləşən, fiziki şəxs Qasımov Vaqif Mikayıl oğluna məxsus kafe;
11. Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan ŞTQ ünvanında yerləşən, fiziki şəxs Məmmmədov İlham Xanbala oğluna məxsus "Görüş" restoranı;
12. Bakı şəhəri, Səbail rayonu, Seymur Məmmədov 1 ünvanında yerləşən, fiziki şəxs Səmədov Emil Nadir oğluna məxsus kafe;
13. Abşeron rayonu, Hökməli qəsəbəsində yerləşən, fiziki şəxs Abuzərov Əhəd Abuzər oğluna məxsus "Ruzi" dönər evi;
14. Xaçmaz rayonu, H.Z.Tağıyev 35 A ünvanında yerləşən, fiziki şəxs Əlifxanov Fəxri Əlövsət oğluna məxsus kafe;
15. Ağstafa rayonu, M.Ə.Rəsulzadə ünvanında yerləşən, fiziki şəxs Abbasov Saqif Rəşid oğluna məxsus kafe;
16. Balakən rayonu, Z.Bünyadov küçəsində yerləşən, fiziki şəxs Soltanov İmran Əliəhməd oğluna məxsus kafe;
17. İsmayıllı rayonu, İsmayıllı-Qəbələ yolunda yerləşən, fiziki şəxs Quluzadə Daşqın Məhərrəm oğluna məxsus kafe;
18. Masallı rayonu, H.Əliyev prospektində yerləşən, fiziki şəxs Musayev Röyal Rəcəb oğluna məxsus kafe;
19. Cəlilabad rayonu, Göytəpə ünvanında yerləşən, fiziki şəxs Hüseynov Şahin Firudin oğluna məxsus kafe;
20. Beyləqan rayonu, Bolsulu ünvanında yerləşən, fiziki şəxs Şamirov İntiqam Müseyib oğluna məxsus çay evi;
21. Ucar rayonu, Qarabörk ünvanında yerləşən, fiziki şəxs Mehdiyev Famil Yaqub oğluna məxsus kafe.

Qeyd edək ki, AQTA tərəfindən Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən ictimai iaşə obyektlərində monitorinqlərin miqyası genişləndirilib. Hazırda AQTA müfəttişləri tərəfindən respublika üzrə monitorinqlər davam etdirilir və qaydalara əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görüləcəkdir.

# "DGK büdcə öhdəliyinə 114,2% əməl edib" - Səfər Mehdiyev

***Bu ilin yanvar-may aylarında Dövlət Gömrük Komitəsi büdcə öhdəliyinə 114,2% əməl edib.***

Unikal.org xəbər verir ki, bunu Komitənin sədri Səfər Mehdiyev "Tvitter" sosial şəbəkəsindəki hesabında bildirib. "Nəzərdə tutulan proqnozdan əlavə 206,3 milyon manat gömrük ödənişləri toplanaraq büdcəyə köçürülməsi təmin olunub" - deyə o qeyd edib.

# Bir gündə 50 mindən çox insan vaksinasiya olundu

***Azərbaycanda bu gün 50 988 nəfər vaksinasiya olunub.***

Unikal.org xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

# Müstəqim Məmmədovun yanlış müstəqimliyi...

## Həftənin replikası: Tərtər rayonunun icra başçısı adının mənasını səhv anlayıb, yoxsa...?



***Azərbaycan dilinin izahlı lüğətində "müstəqim" sözünün iki anlamı verilib. 1. Düz, rast 2. Birbaşa, bilavasitə, düzünə.***

Yox, qətiyyən elə düşünməyin ki, biz burada Azərbaycan dili dərsi vermək fikrindəyik. Sadəcə, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun yeni "məharət"i barədə oxuduqda ağlımıza ilk gələn onun adının mənasını axtarmaq oldu.

Məsələ burasındadır ki, çox hörmətli Müstəqim müəllimin vətəndaşlarla kobud rəftarını, insanların üstünə çığırıb-bağırmasını, videoçəkilişə icazə verməməsini əks etdirən kadrlar bir neçə gündür mətbuatda və sosial şəbəkələrdə müzakirə mövzusudur.

Həmin epizodda vətəndaşlar icra başçısının onların problemləri ilə maraqlanmamasından narahatlıqlarını bildirirlər. Bu zaman bəzi sakinlər ağıllı telefonlar vasitəsilə çəkiliş aparmaq istəsələr də, başçı onların üstünə qışqıraraq, telefonların yığışdırılmasını tələb edir və yan-yörəsindəki "əyan-əşrəflərindən" kiməsə "yığışdır əəə, onu" deyərək əmr verir. Görünür, həmin "əəə" də başçının əmrini can-başla yerinə yetirir, çünki video burada bitir və çəkiliş dayandırılır...

Əlbəttə, hər kəsdən öz adına uyğun davranış biçimi gözləmək sadəlövhlük olardı. Üstəlik, belə olsaydı, dünyada heç bir yamanlıqdan, pislikdən danışmazdıq. Axı demək olar bütün adlar yaxşı cəhətlərə, keyfiyyətlərə işarə edir.

Lakin təəssüf ki, adlar onların qoyulduğu insanların xarakterlərini müəyyənləşdirməkdə acizdir və bu mənada belə başa düşmək olar ki, Tərtər rayonunun çox hörmətli icra başçısı da "müstəqim" sözünün mənasını ya yanlış anlayıb, ya da yanlış yerə yozmaq onun maraqlarına çox xidmət edir. Əks halda adının anlamı "düz" olan biri niyə vətəndaşların düz sözündən, iradından cin atına minsin ki?

Ya da adının başqa bir anlamı "birbaşa", "düzünə" olan bir adam niyə vətəndaşın ürəyindən keçənləri birbaşa, düzünə söyləməsindən belə qəzəblənsin, buna həqarətli və acıqlı münasibət sərgiləsin?

Yeddi ildir Tərtər Rayonunun İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışan çox hörmətli Müstəqim müəllim bundan əvvəl 2006-2012-ci illərdə Yevlax Şəhər İcra Hakimiyyəti başçısının şəhər təsərrüfatı üzrə müavini - şöbə müdiri, 2012-2014-cü illərdə isə Yevlax Şəhər İcra Hakimiyyəti başçısının müavini - şəhər təsərrüfatı şöbəsinin müdiri vəzifələrində işləyib. Əvvəlki vəzifələrini bir kənara qoysaq təkcə son 15 ildə iki fərqli rayonda yüksək postlar tutması onun təcrübəli bir bürokrat olmasını düşünməyə əsas verərdi. Lakin məlum qalmaqalından sonra bu cür düşünmək üçün sadəlövh olmq lazımdır. Həm də elə-belə sadəlövh yox ha! Lap uşaq kimi sadəlövh olmaq lazımdır.

Əks təqdirdə çox hörmətli Müstəqim müəllim bilərdi ki, xüsusilə son illərdə onun adı mütəmadi olaraq korrupsiya və rüşvət iddialarında hallanır, barəsindəki vətəndaş şikayətlərinin sayı-hesabı yoxdur. Elə buna görə də söhbət nə vaxt vəzifələrindən uzaqlaşdırılmalı olan, yaxud həbs edilən icra başçılarının siyahısına qoşulmalı olan rayon rəhbərlərindən söz düşsə, onun adı da mütləq ilk sıralarda çəkilir.

Belədə çox-çox hörmətli Müstəqim müəllimdən gözlənilən artıq yanlışlarından nəticə çıxarmaq, səhvlərindən əl çəkmək və yeni dövrün idarəçilik prinsiplərini əxz eləməkdir. Məmurların ilk vəzifəsinin xalqa layiqli xidmət olduğunu unutmamaq, bununla bağlı ölkə başçısının tövsiyə və tapşırıqlarını rəhbər tutmaqdır.

Əks təqdirdə indi dəmir barmaqlıqlar ardında olan sabiq həmkarlarının xoşagəlməz aqibətinin onu da gözləyə biləcəyini yaddan çıxarmamaqdır.

Lakin o nə edir? Şikayətlənən vətəndaşa acıqlanır, onu aşağılayır, özünü bir icra başçsından çox, "kiçik padşah" kimi aparır və beləcə adı ətrafında növbəti qalmaqalın qopmasına rəvac verir. Özü də belə qalmaqalların əvvəl-axır yaxşı nəticə vermədiyini bir çox keçmiş icra başçılarının - Nizaməddin Quliyevlərin, Alimpaşa Məmmədovların, Vilyam Hacıyevlərin acı təcrübəsindən bizim də, özünün də çox yaxşı bildiyi halda!

Əlavə sözə gərək yoxdur. Ən yaxşısı yazıya müdrik bir el sözü ilə nöqtə qoymaqdır: "Bir insanın özünə etdiyi yamanlığı el yığılsa bacarmaz"...

***Sənan Mirzə***

# Sedat Pekerin Mübariz Mənsimov və Lotu Quli NAĞILLARI



***Son günlər türiyəli iş adamı, türkün sözü "mafiya babası" Sedat Pekerin açıqlamaları gündəmdədir. Sedat Peker hazırda laməkandır, öz təbirincə, "Türkiyə dərin dövləti"ni ifşa edir. Guya "Türkiyə dərin dövləti" azərbaycanlı iş adamı Mübariz Mənsimovu aradan götürmək istəyir və bütün mərəkə də buna görədir...***

Sedat Peker hətta azərbaycanlı məşhur avtoritet Lotu Qulinin də "Türkiyə dərin dövləti"nin sifarişi ilə Bakıda həbsdən azad edildiyini və "killer" qismində İstanbula aparıldığını iddia edir.

Lotu Quli Mübariz Mənsimovu qətlə yetirməkdən imtina etdikdə (!), Mübariz Mənsimov "Türkiyə dərin dövləti"nin adamı ilə ABŞ-a göndərilir və məlum Xoca ilə tanış edilir. Sonra Müabariz Mənsimovu Xoca ilə işbirliyində şərləyib həbs edirlər. Lotu Quli isə "Türkiyə dərin dövləti"nin əli ilə qətlə yetirilir...

Göründüyü kimi, Sedat Pekerin "Türkiyə dərin dövləti"nə qaşı ittihamları çox ciddidir və hazırkı araşdırmaların predmetidir.

Sedat Peker kimdir?

Bu 50 yaşlarında, Türkiyədə "mafiya babası" və imkanlı iş adamı kimi tanınan, Türkiyə hökumətində və cinayətkar aləmində danılmaz nüfuzu olan ciddi fiqurdur. Lotu Qulinin Sedat Pekerlə çox isti, dostyana, hətta qol-qola şəkilləri var. Amma Sedat Pekerin mətbuata açıqlamaları siyasətə qoşulması kimi dəyərləndirilməlidir və bu, bütün dünyada cinayət aləmində pis qəbul edilir.

Sovetin cinayət aləmində siyasətə qoşulan avtoritetlər "apelsin" adlanırdı və aşağı "sortlu" sayılırdı.

Keçək Sedat Pekerin konkret ittihamlarına.

Adam iddia edir ki, Mübariz Mənsimov Türkiyədə kokain alverinin babası idi. Aralıq dənizində bir ada almışdı və minlərlə ton kokain Mübariz Mənsimovun neft tankerlərində ora aparılırdı, sonra bütün Türkiyəyə idxal edilirdi. "Türkiyə dərin dövləti" də məhz bu biznesi Mübariz Mənsimovun əlindən almaq üçün ona "torba tikib".

Məlum olduğu kimi, Mübariz Mənsimov Türkiyədə ilk "onluq"a düşən ciddi iş adamı, milyarder idi. Belə bir adamın şübhəli və cinayətli bir biznesə məşğul olması nə qədər realdır və ona nə qədər lazımdır?!

Sonra, Mübariz Mənsimov Türkiyədə məlum "Gəmi mafiyası"nın üzvü idi, ona cinayətli "narko-trafikə" qoşulmaq imkanı verilərdimi?!

ABŞ-da yaşayan və Türkiyə hakimiyyətinə düşmən olan Xoca ilə şübhəli əlaqələr iş adamı Mübariz Mənsimova nə qədər lazım idi?!

Göründüyü kimi, bu suallar bu gün də cavabsızdır. Deməli, Sedat Peker də yalan danışır. Mübariz Mənsimovun sanksiyalara məruz qalan İrandan neft daşıması və ABŞ-ın sifarişi ilə həbs olunması versiyası daha realdır...

Nəhayət, Sedat Pekerin Lotu Quliyə yapışdırmaq istədiyi "killerlik" damğası.

Məlum olduğu kimi, cinayətkar aləmdə pulla adam öldürmək pis sayılır və hətta killerlər cəzalandırılır. Bilənər bilir, bilməyənlər üçün deyim ki, Lotu Quli postsovet məkanında "qanuni oğru" adını qiyabi alan tək-tək adamlardan biri idi. Türmədə, qapalı məkanda oturan və bütün postsovet məkanında ciayətkar aləmə təsir imkanları olan yeganə avtoritet idi. Bunu hətta cinayətkar aləmin sovet əfsanələri - Ded Xasan və Yaponçik də edə bilməmişdi. Lotu Qulinin hər iki ciddi düşməni - Hikmət Sabirabadski və Rövşən Lənkəranski Azərbaycandan çox uzaqda, naməlum şəraitdə qətlə yetirilmişdi. Doğrudur, bu qətllər hamıdan çox Lotu Quliyə sərfəli idi, amma o, bu zaman hələ türmədə idi...

Bəli, Lotu Quli çox ciddi adam idi, faktiki olaraq, cinayətkar aləmin postsovet əfsanəsi idi. Belə bir adamın "killer" kimi əskik bir missiyanı boynuna götürməsi və Mübariz Mənsimov kimi hörmətli bir oğlanı öldürmək üçün Türkiyəyə getməsi nə qədər real, ağlabatandır?!

Deməli, Sedat Peker yenə də yalan danışır. Amma niyə yalan danışır, bu, onun nəyinə lazımdır?

Bəli, bu suallar da çox ciddidir və növbəti araşdırmaların predmetidir...

***Qalib Arif***

# Türkiyədə müalicə alan daha 6 qazi sağalaraq geri dönüb

***Ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 6 qazimiz sağalaraq Vətənə geri dönüb.***

"YAŞAT" Fondundan "Unikal"a verilən məlumata görə, onlar Quliyev Şahmar Anar oğlu, Əliyev Xəyyam Şeadət oğlu, Quliyev Şəhriyar Əsa oğlu, Eyvazov Səbuhi Rahim oğlu, Məmmədov Seymur Rafiq oğlu, Hüseynov Ülvi Məsum oğludur.

Türkiyədəki müalicə proseduru artıq uğurla yekunlaşıb. Onların qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən təmin edilib.

"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 62 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir.

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.

Allah qazilərimizə şəfa versin!



Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və Fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

# Bölgələrə işləyən taksilərin qiyməti ucuzlaşıb?




***Məlum olduğu kimi rayonlararası ictimai nəqliyyatın hərəkətinə qoyulan qadağa aradan qaldırılıb. Çoxları düşünürdü ki, avtobuslar fəaliyyətinə icazə verildikdən sonra takislərə tələbat azalacaq. Bölgələrə sərnişindaşıma ilə məşğul olan taksilərdə qiymətin düşəcəyi də gözlənilirdi. Amma fərqli mənzərə yaşanır.***

"Unikal" xezerxeber.az-a istinadən bildirir ki, rayonlararası ictimai nəqliyyatın yenidən fəaliyyətə başlaması bölgələrə sərnişindaşıma ilə məşğul olan taksilərdə qiymətlərə təsir etməyib.

Minik avtomobili ilə rayonlara sərnişin daşıyan taksi sürücüləri deyir ki, əvvəlki günlərlə müqayisədə bölgələrə üz tutanların sayında artım var. Onların sözlərinə görə bu taksilərə tələbatın artmasına səbəb olub. Sürücülər bildirir ki qiymətlərdə dəyişiklik yoxdur.

Minivanla taksi fəaliyyəti göstərən sürücülər isə sərnişin azlığından şikayətlənir. Rayonlara avtobusla gediş-gəlişin bərpa olunması onların işinə təsir etsə də qiymətlər olduğu kimi qalıb.

Taksi və avtobuslar arasında qiymət fərqi olsa da bəzi sərnişinlər mənzil başına daha tez çatmaq üçün kiçik tutumlu nəqliyyat vasitəsinə üstünlük verir.

Qeyd edək ki, ölkədə şəhərlərarası və rayonlararası sərnişin daşıma fəaliyyəti mayın 31-dən bərpa edilib.

# Leyla Əliyevanın təşəbbüsü ilə silsilə xeyriyyə aksiyaları keçirib



***Rusiyanın Azərbaycan Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə bu təşkilat Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə silsilə xeyriyyə aksiyaları keçirib.***

RAGB Moskva Şəhəri Ailə və Uşaqlara Dəstək Mərkəzinin səyyar tədbirlərinin həmtəşkilatçısı olub, təbil çalmaq, rəqs və akvaqrimlər çəkilməsi üzrə ustad dərsləri keçirib. Uşaqlar "Yallı" rəqsini ifa edib, badminton və digər oyunlar üzrə məharətlərini göstəriblər.

Tədbirin sonunda bu müəssisədə tərbiyə alanları xoş bir sürpriz gözləyirdi: onları plova və şirniyyata qonaq ediblər.

RAGB "Anqelı sredi nas" ("Mələklər bizim aramızdadır") xeyriyyə fondu ilə birlikdə "Uşaqlıq - sən və mənik" adlı daha bir bayramın təşkilində iştirak edib. Bu bayramın qonaqlarını Rodion Qazmanov, "Moonisha", Pyer Narsis, Karolina-Kristel və başqa artistlər təbrik ediblər.

Tədbirdə uşaqlar özləri də çıxış edib, "AIT" Uşaq Estrada Teatrının çıxışı tamaşaçıları sevindirib.

RAGB-nin Həştərxan, Rostov və Volqoqraddakı regional bölmələri həmin şəhərlərdə oxşar xeyriyyə aksiyaları təşkil ediblər.

# Əmək məcəlləsinə dəyişikliklər edilib

***2 aprel 2021 ci il tarixli qanunla əmək məcəlləsində bir sıra dəyişiklik edilib.***

"Unikal" Real TV-ə istinadən bildirir ki, Məqsəd Dövlət sosial sığorta haqlarından və eləcə də icbari tibbi sığorta haqlarından yayınma, əmək preoseslərində mülki hüquqi müqavilələrindən sui istifadə etmə hallarının qarşısını almaqdır.

Dəyişikliyə əsasən əmək münasibətlərinin əmək müqavilələri ilə rəsmiləşdirilməsi əmək məcəlləsinin prinsiplərindən biri kimi müəyyən edilib və əmək müqavilələrinin bağlanması vacibdir.

Qeyd edilən hallarda əmək müqavilələrinin rəsmiləşdirilməməsi məsuliyyətə səbəb olacaq. Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 2.000 manat, ikinci dəfə yol verdikdə 4.000 manat, üç və daha çox dəfə yol verdikdə 6.000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

# Diqqət, sağlam olmaq üçün şəkərdən imtina edin!



***Kardioloqlar insanları məlumatlandırmaq istəyirlər. Şəkər insan orqanizmində B1 vitaminin azalmasına səbəb olur. Bu isə ürək əzələsinin zəifləməsi başda olmaqla bir çox başqa təhlükəli xəstəliklərin meydana gəlməsinə səbəb olur. Belə ki, B1 vitamini maddələr mübadiləsində, zülal və karbohidrat mübadiləsində yaxından iştirak edir. Həddindən çox şirniyyat yeyən uşaqların sağlam inkişafdan qalmasının səbəbi də şəkərdə görülür.***

Hollandiyalı bir rejissor bir ay müddətində şəkər tərkibli qidalardan imtina etmək qərarına gəlir. Bu qərarın qəbul edilməsinə səbəb isə onun yüksək təzyiqdən və qanda xolesterinin miqdarının çox olmasından əziyyət çəkməsi olub.

Alimlər şəkərin insan orqanizmində bir çox patologiyalara səbəb olduğunu çoxdan sübut ediblər. Sağlam olmaq üçün lazım olan şəkər miqdarının isə müxtəlif təbii qidalar vasitəsilə qəbul edilməsinin daha düzgün olduğu isə elmə çoxdan məlumdur.

Hollandiyalı rejissor bu eksperimenti həkimlərin nəzarəti altında həyata keçirib. Əvvəlcə, o bütün tibbi müayinələrdən keçib. Müayinə zamanı hətta beyin və ürəyin fəaliyyəti də yoxlanılıb. Oğlanın müayinələr zamanı sağlam olduğu aşkarlanıb, yalnız qanda xolestrinin miqdarı həddindən çox artıq olub. Həkimlər oğlanda meydana çıxan yüksək təzyiqin səbəbini isə xolesterinin yüksək olması səbəbindən olduğunu da qeyd ediblər.

Eksperiment müddətində bir həftə hər şey normal yolunda gedib. Xəstə oğlan gün ərzində yumurta, meyvə və ağartı məhsulları ilə qidalanıb. Bir həftə sonra isə orqanizmin şəkərə olan ehtiyacı narahatlıq hissinin meydana çıxmasına səbəb olub. Bu zaman aclıq, yeməkdən doymamaq hissi, baş ağrısı, baş hərlənməsi kimi əlamətlər meydana çıxıb. Həkimlər bunun səbəbini qanda şəkərin normadan aşağı olması ilə əlaqələndirib. Bu zaman isə orqanizmin şəkərə olan tələbatı quru meyvələr qəbul etməklə aradan qaldırılıb və oğlana dözümlü olmaq məsləhət görülüb. Kişmiş, qaysı, banan qurusu, xurma və s. kimi quru meyvələr yeməklə orqanizmin şəkərə olan normal tələbatı aradan qalxıb və bir neçə gün sonra oğlan quru meyvə deyil, təzə və lətli meyvələr yemək istədiyini qeyd edib. Daha sonra isə normal və şəkərsiz qidalanmaya keçib. Bir ay ərzində oğlanın çəkisi 4 kq azalır və qanda xolesterinin miqdarı normallaşır. Bu dövrdə isə onun arterial təzyiqi də normallaşır.

# Hamının ürəyindən olan ŞAD XƏBƏR - RƏSMİ

***"Təcili tibbi yardım xidməti icbari tibbi sığortaya aiddir. Dərman təminatı da sığorta zərfinə daxildir".***

"Unikal" sfera.az-a istinadən xəbər verir ki, bu fikirləri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova deyib.

Agentlik rəsmisi qeyd edib ki, hər hansı bir tibbi xidmət pasiyentin istəyinə görə deyil, həkimin təyinatı ilə pulsuz göstərilə bilər: "Hansısa tibb müəssisəsinin həkiminin göndəriş verməməsi ilə bağlı narazı qalan vətəndaş həmin səhiyyə ocağının rəhbərliyinə müraciət edə bilər. Əgər xəstənin istəyi əsaslıdırsa, onun şikayəti təmin edilə bilər".

# Karantin rejminin yumşaldılmasından ən çox bu sahələr faydalanacaq

***Karantin qaydalarının yumşaldılması, eləcə də bir sıra sahələrdə fəaliyyətin bərpa olunmasına icazə verilməsi iqtisadiyyata, eləcə də real sektora müsbət təsir göstərəcək.***

"Unikal" bildirir ki, bunu Trend-ə Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

Deputat bildirib ki, açılışların xarakteri, eyni zamanda ümumi daxili məhsulun strukturu göstərir ki, karantin qaydalarınmın yumşaldılması nəqliyyat sektoruna müsbət təsir göstərəcək:

"Çünki rayonlar arası, o cümlədən Bakı ilə rayonlar arasında ictimai nəqliyyat bərpa olunub ki, bu da təbii ki, bu sahədə yeni dəyərin yaranmasına imnkan verəcək. Eyni zamanda metro-



nun açılmasının nəqliyyat dövrüyyəsinə xüsusi təsiri olacaq. Bu baxımdan yumşalmaların nəqliyyat sektoruna böyük müsbət təsiri olacaq".

V.Bayramovun sözlərinə görə, turizm sektoru da yumşalmalardan faydalanan sektorlardan biri olacaq çünki rayonlararası ictimai nəqliyyatın bərpa edilməsi həm də yerli turizmin inkişafını stimullaşdıracaq:

"Xüsusilə nəzərə alsaq ki, turizm mövsümü yaxınlaşır, turizm sektoru bu açılımlardan ən çox qazanan tərəflərdən biri olacaq. İctimai iaşə və xidmət sektoru da birmənalı şəkildə yumşalmalardan qazanan tərəfdir və bu baxımdan bu sektorda da əlavə dəyərin yaranması gözlənilir. Bütövlükdə ölkə iqtisadiyyatı yumşalma tədbirlərindən faydalanacaq və ÜDM-də artımın əldə edilməsinə imkan yaradacaq".

# Azərbaycanda boğazına ip keçirib tövlədə saxlanılan yaşlı qadınla bağlı ŞOK FAKTLAR

***Sosial şəbəkələrdə ahıl qadının tövlədə bağlanaraq saxlanılmasına dair yayılan video-görüntülərlə bağlı Gədəbəy rayon Polis Şöbəsinin əməkdaşları müvafiq araşdırmalar aparıb.***

"Unikal" APA TV-yə istinadən xəbər verir ki, həmin qadının Daşkəsən rayonunda qeydiyyatda olmaqla Gədəbəy rayon İvanovka kəndində yaşayan, 1934-cü il təvəllüdlü Səkinə Həsənova olması müəyyən edilib.

Polis əməkdaşları onun yerini həmin kənd ərazisində gəzərkən aşkar ediblər. Hazırda həmin görüntülər əsasında qadını bağlayan şəxs və ya şəxslərin kimliyinin müəyyən edilməsi istiqamətində araşdırmalar aparılır.

Qonşuların sözlərinə görə, ahıl qadın ər-arvad olan dayısı oğlu və xalası qızıyla yaşayıb. 1988-ci ildən İvanovka kəndində yaşayan Səkinə Həsənovaya son iki ildə kənd camaatı baxıb. Son iki ayda isə kənddə gözə dəyməməsini görən kənd sakinləri icra nümayəndəliyinə məlumat veriblər:

Ahıl qadının şiddət görməsi ilə bağlı paylaşılan görüntülər dərhal Sosial Xidmətlər Agentliyi tərəfindən nəzarətə götürülüb və araşdırılıb. Agentliyin 26 saylı filialının əməkdaşları Gədəbəy Rayon Polis Şöbəsinin əməkdaşları ilə birgə dərhal həmin ünvanda vəziyyətlə yerindəcə tanış olublar. Qohumu Qəzənfər adlı şəxsin yanında qaldığı bildirilən və kobud rəftara məruz qalan və-



təndaş Səkinə Həsənova hüquq-mühafizə orqanı əməkdaşlarının iştirakı ilə saxlanıldığı yerdən götürülüb. O, Sosial Xidmətlər Agentliyinin müvafiq müəssisəsinə yerləşdirilib.

# Bu gün Ümumdünya Velosiped Günüdür

***Artıq 4-cü ildir ki, iyunun 3-ü bütün dünya Velosiped Gününü qeyd edir. Yeni bayramın təsis edilməsi haqqında qətnamə 2018-ci ildə BMT-nin Baş Assambleyasında qəbul edilmişdir. Nəyə görə məhz velosiped bu qədər diqqətə layiqdir?***

Bu, maddi cəhətdən çox sərfəli və ekoloji təmiz nəqliyyat növüdür. Velosiped mobil olmağa və şəhərin tıxaclarında dayanmamağa imkan verir. Velosipedlə hərəkət etmə idmanın inkişafına və ətraf mühitlə daha yaxın olmağa kömək edir.

Statistik məlumatlara əsasən, 2030-cu ilə qədər Avropada velosipedçilərin, eləcə də velosiped vasitəsilə səyahətlərin sayı 2 dəfə artmalıdır. Velosiped sürməyin populyarlaşması üzrə Panavropa planına imza atan 56 ölkənin təmsilçiləri bu fikirdədir.

Bu məsələdə rəsmi Bakı da kənarda qalmadı: Bakı Nəqliyyat Agentliyinin (BNA) rəhbəri Vüsal Kərimli bu günlərdə bəyan etdiyi kimi, Bakıda velosiped zolaqlarının inkişaf konsepsiyası həm Bakının Baş planında,



həm də BNA-nin strateji inkişaf planında öz əksini tapmışdır. Ümumi strateji plana əsasən, Dənizkənarı park tərəfdə velosiped cığırlarının uzunluğu 7,5 km, 2027-ci ilə qədər 63,5 km, 2040-cı ilə qədər isə 251 km-dək təşkil edəcək.

Azərbaycan Dəmir Yolu da velosiped nəqliyyatının inkişafından kənarda qalmayıb: Abşeron dairəvi dəmir yolunun bəzi stansiyalarında artıq veloparkinqlər (velosiped dayanacaqları) quraşdırılıb, gələcəkdə isə onlarla bütün yeni stansiyaların təmin olunması planlaşdırılır. Bununla yanaşı paytaxtımızın müxtəlif hissələrində yerləşən yeni parklar xüsusi velosiped cığırları ilə təchiz olunur, velosipedlərin icarəsi üçün məntəqələr yaradılır. İri marketlər velosipedlərin rahat parkinqi üçün artıq xüsusi zonalar ayırır.

Velosipedçilər üçün infrastrukturun fəal surətdə yaradılması ilə bərabər Bakıda ildən ilə satışa çıxarılan velosipedlərin sayı da artır. Tut.az Pulsuz Elanlar saytının Velosipedlərin Satışı bölümünün statistik göstəricilərinə görə, Bakı və respublika bölgələrində velosipedlərin alqı-satqısı üzrə elanların sayı sürətlə artır. Satışın əsas hissəsini, qiyməti 250-300 manatdan başlayan Çin istehsalı olan velosipedlər təşkil edir. Burada liderlər StelSport, Adore, Saft, Anmier kimi brendlərdir. Satışın mərkəzi isə Sədərək TM-ində yerləşən mağazalardır. Öz növbəsində peşəkarlar, qiyməti 500 manatdan başlayan Avropa istehsalı olan daha keyfiyyətli sürətli Trinx, İsma, Cube və digər velosipedlərə üstünlük verirlər.

# Cəbrayıl və Kəlbəcər deyiləndə yada düşən məşhur simalar, adətlər...



***İşğaldan azad olunmuş hər bir bölgəmizin yaddaşlardan silinməyəcək simaları, adət-ənənələri var. Məsələn, Cəbrayıl və Kəlbəcərin adını çəkəndə, hər şeydən öncə o bölgələrdən olan tanınmış simalar, adət-ənənələr yada düşür.***

Cəbrayıl rayonunu Milli Məclisdə təmsil edən deputat Ceyhun Məmmədov Cəbrayılın yaddaşlardan silinməyəcək simaları və adətləri ilə bağlı Modern.az-a danışıb. O bildirib ki, Cəbrayıl hər zaman öz camaatının ziyalılığı ilə seçilib: "Cəbrayıl deyəndə gözümdə canlanan ilk simalardan biri hər zaman xatirələrimizdə olan keşmiş nazir Mehdi Mehdizadədir. O, fəal təhsil işçisi, maarif naziri olub.Uzun illər təhsil sahəsində fəaliyyət göstərib.Türk dünyasının tanınmış alimi Tofiq Hacıyev də cəbrayıllı kimi yaddaşlardan silinməyəcək şəxsiyyətlərdən olub. Bu sırada şair və yazıçı kimi xatirələrdə yaşayan Sabir Əhmədovu da qeyd edə bilərəm. Gözümdə canlanan simalar çoxdur. Cəbrayıllı alimlərdən hazırda xaricdə fəaliyyət göstərənləri də var".

Deputat adət-ənənələrdən danışarkən söyləyib ki, Cəbrayılda Novruz çərşənbələri çox yüksək səviyyədə keçirilirdi: "Şəhər mərkəzində təşkil olunan bayram tədbirlərini insanlar coşqu ilə keçirirdilər. O, anlar mənim hər zaman yaddaşımdadır. Qurban bayramı məclisləri də çox geniş yayılmışdı. Hacı Qaraman ocağı, Çələbilər məscidi Cəbrayılda məşhurdur. Dünyanın müxtəlif yerlərindən insanlar o ocağı ziyarət etmək üçün davamlı olaraq Cəbrayıla gəlirdilər. Dünyaca məşhur olan Xudafərin körpüsünü də insanlar ziyarətgah kimi mütəmadi olaraq ziyarət edirdilər. Təəssüf hissi ilə qeyd edirəm ki, erməni daşnaqları tək Cəbrayıl yox, işğaldan azad olunmuş digər bölgələrimizdəki ziyarətgah və mədəniyyət ocaqlarımızı talan ediblər".

Kəlbəcərin keçmiş icra başçısı və hazırda həmin rayonu Milli Məclisdə təmsil edən deputat Aqil Məmmədov Kəlbəcər deyəndə gözündə canlanan simalar, kəlbəcərlilərin adətləri haqda danışarkən bölgəni Azərbaycanın ən dilbər guşələrindən biri adlandırıb: "Kəlbəcər yerüstü və yeraltı sərvətləri ilə zəngin və məşhurdur. Qayaüstü rəsmlərinə görə Kəlbəcəri ikinci Qobustan da adlandırırlar. Kəlbəcərin tanınmış və yaddaşlardan silinmyəcək simaları yetəri qədərdir. O simaların bəziləri Kəlbəcərin özündə, bəziləri isə vətən həsrətilə yaşayaraq dünyadan köçüblər.

Ağdabanlı şair Qurban, Dədə Şəmşir, Ənvər Rza Kəlbəcərdə dünyasını dəyişən unudulmaz sənətkarlardır. Vətən həsrəti ilə yaşayıb, "Kəlbəcər" deyə-deyə bu dünyadan köçənlər isə Bəhmən Vətənoğlu, Sücaət, Qəmkeş Allahverdi və Məmməd Aslandır".

A.Məmmədov onu da vurğulayıb ki, Kəlbəcərdə qonaqpərvərlik yüksək səviyyədə olub: "Böyüklərin yeri hər zaman xüsusidir. Kəlbəcərdə ailə qurma məsələləri çox ciddi iş idi. Ailə quracaq şəxslərin nəsil-nəcabəti araşdırılırdı, böyüklərin xeyir-duası ilə gənclər ailə qururdu. O, ailələrd ə uzunömürlüyü ilə seçilirdi. Buna ən gözəl nümunə Dədə Şəmşirlə Güllü nənədir. Güllü nənə dünyadan köçməzədən əvvəl vəsiyyət etmişdi ki, onu elə dəfn etsinlər ki, Kəlbəcər azad olunduqdan sonra qəbrini Dədə Şəmşirin məzarının yanına köçürmək mümkün olsun. Güllü nənə öz istədiyi kimi dəfn olundu ki, Kəlbəcər azad olunanda vəsiyyəti yerinə yetirilsin. Kəlbəcərin yaddaşımdan silinməyəcək adətlərindən biri gənclərin əsgər getməzdən əvvəl böyüklərin xeyir-duasını alması və "veşməşoq" deyilən çantamıza fəsəli, qatlama kimi şirniyyatlar qoyulması idi".

***Humay İsgəndərova***

# UNEC-də beynəlxalq konfrans keçiriləcək

***4-7 iyun tarixlərində Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı, "PAŞA Holdinq"in baş sponsorluğu ilə İqtisadiyyat və İdarəetmə Sahəsində Magistr və Doktorantların III Beynəlxalq Elmi Konfransı keçiriləcək.***

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunması ilə əlaqədar, konfrans "Nizami Gəncəvi və dayanıqlı inkişaf" mövzusuna həsr olunub.

Konfrans bütövlükdə onlayn təşkil edilsə də, rəsmi açılış nüfuzlu qonaqların iştirakı ilə 4 iyun saat 11:00-da Gəncə şəhərində Heydər Əliyev Mərkəzində baş tutacaq.

Konfransın açılışında İqtisadiyyat naziri Mikayıl Cabbarov, Təhsil naziri Emin Əmrullayev, UNEC rektoru professor Ədalət Muradov, Gəncə şəhər İH-nin başçısı Niyazi Bayramov, PAŞA Holdinq Şirkətlər Qrupunun Baş İcraçı Direktoru Cəlal Qasımov çıxış edəcəklər.

34 ölkədən 700-ə yaxın iştirakçı 66 bölmədə 444 və 16 "Workshop"da 65 məruzələri dinləniləcək. İyunun 7-dək davam edən kinfransda ölkəmiz üçün xüsusi aktuallıq kəsb edən ciddi məsələlər müzakirə ediləcək.

Məruzələr kitabı Harvard, Oxford, Yale, Stanford, Princeton, Columbia, Toronto, Çikaqo, Duke və digər aparıcı universitetlərin, eləcə də Royal Danish Library, British Library, Biblioteque Nationale de France kimi nüfuzlu universitet və dövlət kitabxanalarının kataloqlarında yerləşdiriləcək.




Konfransın açılış mərasimində Nizami Gəncəvi irsi ilə bağlı tədqiqatlar aparan ABŞ-ın Prinston Universitetinin professoru Maykl Barrinin "Nizami Gəncəvi İrsi" və Corc Vaşinqton Universitetinin dekanı, professor Maykl Feyerin "Təhsil və İqtisadiyyat" mövzusunda videoməruzəsi olacaq.

Konfrans UNEC-in rəsmi Facebook səhifəsindən (www.facebook.com/unecedu) canlı yayımlanacaq.



# Gələn ildən "Aİ-95" Azərbaycanda istehsal olunacaq - Deputat

***Dünya yanacaq bazarındakı dəyişiklər bəzən qlobal siyasi proseslərlə izah olunur.***

Bunu Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib. Onun sözlərinə görə, hazırda gedən siyasi proseslər, münaqişələr, İran ətrafında baş verən proseslər, Rusiya-ABŞ münasibətləri və bu münasibətlərin gərginləşməsi fonunda dünyada yüksəkoktanlı benzinə olan tələbat artır: "Bunun nəticəsidir ki, məhz bu kateqoriyadan olan benzinin qiymətində və neftin qiymətində artım müşahidə olunmaqdadır".

Deputat bildirib ki, beynəlxalq yanacaq bazarındakı qiymət dəyişikliyindən asılılığı aradan qaldırmaq üçün Azərbaycanda yeni zavodların inşası nəzərdə tutulub: "Məndə olan məlumata görə, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Heydər Əliyev adına Neft Emalı Zavodunda aparılan modernizasiya nəticəsindəgələn ildən "Aİ-95" və "Premium" markalı benzinlərin istehsalı mümkün olacaq. Bu da bizi beynəlxalq yanacaq bazarındakı asılılıqdan azad edəcək və dövlət bu marka benzinlərin də tənzimlənməsini həyata keçirə biləcək".

N. Həmzəyev deyir ki, ümumilikdə nəzərə almalıyıq ki, hazırda qonşu ölkələrlə müqayisədə Azərbaycanda yenə də bu marka benzinlərin qiyməti aşağıdır: "Ancaq istənilən halda, biz bu asılılığı tamamilə aradan qaldırmaq və qiyməti stabil saxlaya bilmək üçün məhz bu marka benzinləri istehsal edəcək zavodların tikilməsini həyata keçirməliyik. Bilirsiniz ki, əslində "Aİ-95" və "Premium" markalı benzinləri daha çox bahalı avtomobillərin sürücüləri istifadə edirlər. İstər-istəməz, bu, yüklərin daşınmasında və kənd təsərrüfatı məhsullarının artımına elə də böyük təsir etməməlidir. Bu baxımdan da biz çalışmalıyıq, xüsusilə də aidiyyatı qurumlar çalışmalıdırlar ki, bunu bəhanə gətirərək süni qiymət artımına imkan verilməsin. Çalışmalıyıq ki, bu məsələdə hər birimiz fəallıq göstərək".

Deputat düşünür ki, qətiyyən imkan verməк olmaz ki, süni qiymət artımı baş tutsun: "Çünki, bu kateqoriya və bu markalı benzinlər daha çox bahalı xarici avtomobillərdə istifadə edilir, yük daşımalarında isə "Aİ-92" markalı və dizel yanacağından istifadə olunmaqdadır: "Təəssüflə qeyd etmək lazımdır ki, "Aİ-95" və "Premium" markalı benzinlərin hazırda Azərbaycanda istehsalı mümkün olmadığı və xaricdən alındığı üçün, bu yanacaqların qiymətinin artımı da beynəlxalq yanacaq bazarındakı qiymət dəyişiklikləri ilə əlaqədardır. Azərbaycanda yeni zavodunun tikilməsi və ya mövcud zavodda modernləşdirmə işləri yekunlaşdıqdan sonra bu marka benzinlərin də istehsalı mümkün olacaq ki, bu da dövlət tərəfindən qiymətin tənzimlənməsinə şərait yaradacaq".

Xatırladaq ki, iyunun 1-dən Azərbaycanda benzinin qiyməti bahalaşıb və "Aİ-95" markalı benzinin qiyməti 1,40 manat olub.

Qeyd edək ki, qiymət artımına qədər bu markalı yanacağın qiyməti 1,25 manat təşkil edib.

## “Nikol Putinin təklifini qəbul etsəydi, minlərlə itkimiz olmazdı” - Keçmiş MTX rəhbəri

***Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Mikael Hambardzumyan ölkəsinin ağır duruma düşməsinə münasibət bildirib.***

O İrəvanın ağır və biabırçı məğlubiyyətdən qaçması üçün şansı əldən verdiyini deyib: “Nikol Paşinyan Təhlükəsizlik Şurasının 20 oktyabr iclasında müharibəni dayandırmaq üçün Rusiya prezidentindən təklif aldığını demədi. Baxmayaraq ki, Onik Qasparyan və David Tonoyan görüş zamanı qələbə şansımızın olmadığını ətraflı şəkildə izah etmişdilər, ”biz uduzuruq” demişdilər”.

Keçmiş MTX rəhbərinin sözlərinə görə, Nikol Paşinyan müharibəni bitirmək təklifini qəbul etsəydi, minlərlə erməni hərbçi ölməzdi. Hambardzumyan Qarabağdakı məğlubiyyətə və Ermənistanın verdiyi itkilərə görə, hazırkı hakimiyyətin məsuliyyət daşıdığını xatırladıb.

## Rusiya və ABŞ səfirləri ilə bağlı Peskovdan açıqlama

***Kremlin sözçüsü Dmitri Peskov Rusiya və ABŞ Prezidentləri Vladimir Putinlə Co Baydenin görüşündən sonra hər iki ölkənin səfirlərinin işə qayıtma ehtimalını qiymətləndirib.***

“Unikal”ın “İzvestiya” nəşrinə istinadən məlumatına görə, danışıqların nəticəsi olaraq səfirlərin fəaliyyətinin bərpa olunub-olunmayacağına dair suala Peskov, “Ola da bilər, olmaya da”,- deyə cavab verib.

Nəşr öz mənbəsinə istinadən bildirib ki, səfirlərin fəaliyyətinin bərpası iki ölkə arasında dialoqun davam etdirilməsinə dair kiçik bir siqnal ola bilər.

Bundan əlavə mənbə tərəflərin görüşlə bağlı “illüziyalarının olmadığını” qeyd edib. Xatırladaq ki, Rusiya və ABŞ dövlət başçıları arasında görüş iyunun 16-da Cenevrədə baş tutacaq. Amerika Prezidentinin mətbuat katibi Cen Psakinin sözlərinə görə, Baydenin Putinlə söhbət üçün seçdiyi mövzulardan biri də kiber təhlükəsizlik olacaq.

Peskov iki ölkə liderləri arasındakı danışıqlardan sonra ortaq sənədlərin imzalanması barədə razılığa gəlindiyini açıqlayıb.

## ATƏT-in Baş katibi həmsədrlərlə görüşdü

***ATƏT-in Baş katibi Helqa Şmid Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endryu Şoferlə (ABŞ) görüşüb.***

Unikal.org xəbər verir ki, bu barədə xanım Baş katib “Twitter” hesabında yazıb. “Həmsədrlər və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşiklə ilk dəfə şəxsən görüşməkdən məmnunam. Onların səylərə və fəaliyyətinə tam dəstəyimi ifadə edirəm”, - Şmid qeyd edib.

## “Nazir Xudafərin körpüsünü partlatmağı vəd etmişdi” - Erməni “Rahib”

***Ermənistanda ”Rahib” ləqəbi ilə tanınan keçmiş döyüşçü Artur Episkoposyan yerli mediaya müsahibəsində diqqətçəkən açıqlama verib.***

Azvision.az xəbər verir ki, o, əvvəlcə fövqəladə hallar naziri Andranik Piloyanın yalan məlumatlar yaydığını, daha sonra isə özünə qarşı sui-qəsd hazırlandığını iddia edib.

Keçmiş döyüşçü ona ”İjan” alay komandiri Tatul Qazaryan, komandir müavini Armen Ohanyan və Sünik bölgəsindən olan digər hərbçilərin cəsədlərinin evakuasiya edilməsi təlimatı verildiyini bildirib.

Rusiya, Azərbaycan və Ermənistan danışıqlar apardı“Piloyana bıçaq verdim. Çünki o vəd etmişdi ki, mən silah əldə edib Xudafərin körpüsünə gedərək oranı partladacaq və cəsədləri ərazidən çıxaracağam. Siz ”İjan” briqadasının məhvinə görə cavab verəcəksiniz. Bu insanlar alaylarımızı, komandirlərimizi məhv etdilər”,- deyə məğlub döyüşçü nazirlərlə bağlı ittihamlar irəli sürüb. Lakin o Piloyan barədə hadisənin detallarını açıqlamayıb.

Episkoposyan İrəvana 6 nəfərlik bir qrupun onu öldürmək üçün gəldiyini söyləyib. İddia edir ki, bu xüsusi dəstə ”Anna qrupu” (Paşinyanın arvadı nəzərdə tutulur - red.) adlanır.

”Abazyana (MTX direktoru-red.) zəng vurun, o sizə bununla bağlı operativ məlumat verəcək”- deyə ”Rahib” Paşinyana qrupun silahlı olduğunu, lakin özünün əliyalın qaldığına eyham vurub. ”Amma kimin kimi aradan qaldıracağını gələcək göstərəcək”, - deyə o qeyd edib.

# Putin-Bayden görüşü: Güney Qafqaza da yer tapılacaq - TƏHLİL

***Amerika və Rusiya prezidentləri Co Baydenlə Vladimir Putin iyun ayının 16-da İsveçrənin Cenevrə şəhərində görüşəcəklər. Bundan əvvəl iki dəfə Baydenlə Putin arasında telefon danışığı olmuş və Amerika prezidenti rusiyalı həmkarına neytral ölkədə görüşməyi təklif etmişdi. Lakin Kreml ilə Ağ evin münasibətlərində son illər müşahidə olunan gərginlik, Bayden administrasiyasının fəaliyyətə başlamasından sonra isə bu gərginliyin xüsusilə kəskin xarakter alması prezidentlərin görüşünün razılaşdırılmasını mürəkkəbləşdirirdi.***

Münasibətlərin kəskin xarakter alması “Putin qatildirmi?” sualına Baydenin müsbət cavab verməsindən sonra başladı və səfirlərin qarşılıqlı şəkildə vətənlərinə qaytarılması, həmçinin, bəzi diplomatların arzuolunmaz şəxs elan edilməsilə nəticələndi. Ardınca Ukraynada gərginliyin artması, Rusiya qoşunlarının Ukrayna ilə sərhəd bölgələrə toplanması baş verdi. Buna cavab olaraq, NATO qüvvələri Rusiya ilə sərhəd ölkələrdə hərbi təlimlərə başladılar.



Artıq Ukraynanın Rusiya ilə genişmiqyaslı müharibəyə hazırlaşdığı barədə real proqnozlar irəli sürülür və NATO qüvvələrinin Kiyevin tərəfində Rusiyaya qarşı müharibəyə girişəcəyilə bağlı ukraynalı siyasətçilərin ümid dolu çıxışları səslənirdi. Lakin bu, baş vermədi və Baydenin yumşaq ritorikaya keçərək, Putinlə görüşmək istəyini səsləndirməsi gərginliyi nisbətən azaltdı.

May ayının sonlarında hər iki dövlətin baş diplomatları - Lavrovla Blinkenin Reykyavikdə baş tutan və iki saata yaxın davam edən görüşü Moskva ilə Vaşinqton arasında dialoqun yaradılması istiqamətində ilkin addım oldu. Görüşdən sonra səsləndirilən bəyanatlar tərəflərin bir-birinə qarşı tutduğu mövqedə yumşalmaların olduğunu göstərir və ölkə liderlərinin sammitinin baş tutacağından xəbər verirdi.

Qeyd etmək lazımdır ki, Rusiya ilə Amerika arasındakı münasibətlərin vəziyyəti təkcə bu iki ölkənin taleyi baxımından deyil, ümumiyyətlə, qlobal anlamda mühüm əhəmiyyət daşıyır və bir çox ölkələrin strateji siyasi xəttinin formalaşmasına təsir göstərir.

Ümumiyyətlə baxdıqda, Rusiya ilə ABŞ-ın münasibətlərinin pisləşməsinin kökündə Amerikanın ilkin olaraq ideoloji, sonradan isə hərbi-siyasi cəhətdən Rusiya sərhədlərinə doğru irəliləməsi dayanır. Rusiya əlində olan imkanlar çərçivəsində bu prosesə mane olmağa çalışır. Doğrudur, prosesi dayandıra bilməyəcəyini anlayır, ancaq bununla belə, amerikalıları kifayət qədər yubatmağa da nail olur. Amerikanın irəliləməsi, Rusiyanın isə müqavimət göstərməsi fonunda Ukrayna, Belorus, Cənubi Qafqaz və s. kimi praktiki həlli vacib məsələlər ortaya çıxır ki, dövlət rəhbərlərinin müzakirə mövzusu da həmin məsələlərə həsr olunur.

Odur ki, heç şübhəsiz, əsas müzakirə mövzusu elə onların münasibətlərinin bu mərhələdə pisləşməsinə səbəb olan Ukrayna mövzusu olacaq. Məhz Krımın ilhaqı və Donbasda Rusiyanın dəstəklədiyi separatçıların özlərini müstəqil elan etməsindən sonra ABŞ-la Rusiyanın münasibətlərində sərinləşmə başladı. Kreml anlayır ki, Ukrayna ilə bağlı ənənəvi olaraq səsləndirdiyi “Krım Rusiyanın ərazisidir, Donbasda münaqişənin həlli üçün isə Kiyev öncə separatçı respublikaların rəhbərlərilə razılığa gəlməlidir” kimi arqumentlə Vaşinqton razılaşmayacaq və Moskvadan problemin mahiyyəti üzrə cavablar istəyəcək. Rusiya Ukrayna üzrə suallardan yayınmaq üçün “ev tapşırığı”na yaxşı hazırlaşıb və belə suallardan yayınmaq üçün bu yaxınlarda alovlanmış, müvəqqəti sakitləşdirilmiş Yaxın Şərq münaqişəsinin köklü həllində Vaşinqtona köməyini təklif edə bilər. Yaxud, ABŞ qoşunlarının tərk etməkdə olduğu Əfqanıstanda bundan sonra sabitliyin təminatı işində Amerika ilə birgə layihələrə həvəslə qoşulmağa hazır olduğunu da səsləndirməsi mümkündür. Təki, Amerika Krımın Ukraynaya geri qaytarılması tələbində ifrata varmasın.

Ukrayna ilə yanaşı, Belorusdakı vəziyyətin də iki liderin görüşününün gündəliyinə salındığı barədə Ağ ev rəsmi məlumat verib. Belorusda həyata keçirilən inqilabın Qərbin arzuladığı nəticələrlə başa çatmaması üçün kifayət qədər müstəqil xarici siyasət yürüdən Lukaşenko Putinin “qılıncının altından” keçməli oldu. Lukaşenkonu devrilməkdən xilas edən Moskva ona əlavə təsir imkanları əldə etməklə, Qərbin qarşısında üstünlük qazandı. Belorusun gələcək taleyinin necə inkişaf edəcəyindən asılı olmayaraq, bu gün Minskin idarəetmə sükanı Putinin əlindədir və endirilmiş təyyarədən çıxarılaraq həbs olunmuş beloruslu gənc müxalifətçi Protoseviçin taleyini də o həll edəcək. Moskva bu məsələdə Baydenin xahişini güman ki, yerə salmayacaq. Ancaq əvəzində, yəqin ki, həbs olunmuş rusiyalı müxalifətçi-bloger Navalnı mövzusunun bir müddət qapadılmasını istəyəcək.

Blinkenlə Lavrovun görüşü zamanı Qarabağ münaqişəsinin müzakirə olunduğunu nəzərə alsaq, prezidentlərin də Cənubi Qafqazdakı vəziyyətə diqqət ayıracağını əminliklə söyləmək olar. Münaqişənin həllində Rusiyanın əsas rol oynaması və bölgədə öz sülhməramlılarını yerləşdirilməsi Cənubi Qafqazda Vaşinqtonun Moskvadan asılı vəziyyətə salır. Vaşinqton Qərblə Şərq arasında strateji tranzit rolunu oynayan Cənubi Qafqaz regionunun tamamilə Rusiyanın təsirinə keçməsilə barışa bilməz, odur ki, Baydenin Türkiyənin prosesdə fəallığına şərait yaratmasından başqa çıxış yolu qalmır.

***Tofiq Vahid***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# "Beynəlxalq təşkilatları işğaldan azad edilmiş ərazilərə aparmalıyıq"

## Nigar Arpadarai: "Azərbaycan Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdırmaq üçün ictimai diplomatiya alətlərini yaratmalı və onlardan istifadə etməlidir"

***Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin vəziyyəti dünyanın gözü qarşısındadır. 28 il əvvəl gülüstan olan şəhər və kəndlərin yerində indi xarabalığı xatırladan mənzərə yaranıb. Bu torpaqlarda doğulan insanlar belə öz doğulduğu evlərin yerini tapmaqda çətinlik çəkirlər.***

Ermənistanın işğal dövründə Azərbaycan torpaqlarında həyata keçirdiyi vandalizm qlobal xarakter daşıyır. İşğalçı dövlət bu müddətdə nəinki evləri yağmalayaraq dağıdıb, Dağlıq Qarabağda bütün canlı aləmi məhv edib, ekologiyaya ciddi zərər vurublar. Təbiətlə yanaşı işğaldan azad edilmiş bölgələrimizdə bütün tarixi, mədəni, dini abidələr yerlə-yeksan edilib. İndi Azərbaycan Dağlıq Qarabağ həqiqətlərini dünyaya nümayiş etdirmək üçün işğaldan azad edilmiş ərazilərimizi açıq havada "muzey"ə çevirib. İşğalçı dövlətin əsil vandal simasını göstərən bu "muzey" dünyanı da dəhşətə gətirib. İşğaldan azad edilmiş şəhər və kəndlərin xarabalığa çevrilən mənzərəsi görənləri dilindən, dinindən, irqindən asılı olmayaraq dəhşətə gətirir. Hər kəs bu vəhşiliyi törədənlərlə qonşu olan Azərbaycanı indiyədək göstərdiyi təmkinə görə təqdir edir, bunu törədənlərə isə sivilizasiyadan kənar qalmış xalq kimi baxır. Prezident İlham Əliyevin dediyi kimi, "sanki işğal altında saxlanılan torpaqlardan vəhşi qəbilə keçib".

Artıq müharibə başa çatsa da, işğaldan azad olunmuş torpaqlarımızın simasında Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması işi davam edir. Hətta bu cür səfərlərin təşkilini bəzi ölkələr səbirsizliklə gözləyir. Britaniya parlamentinin üzvü Bob Blekmen də Azərbaycanın işğaldan azad edilmiş torpaqlarına səfər etməyi səbirsizliklə gözlədiyini söyləyib: "Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini, Dağlıq Qarabağa geri dönməsini qeyd edirik. Mən Azərbaycanın işğaldan azad edilmiş torpaqlarına səfər etməyi səbirsizliklə gözləyirəm. Biz oradakı yenidənqurma işləri ilə tanış ola biləcəyik. Ümid edirəm ki, Azərbaycan və Ermənistan arasında sülh uzun müddətli olacaq", - deyə Bob Blekmen bildirib.

Ekspertlər bildirir ki, xarici ölkələrin diplomatik nümayəndələrinin, beynəlxalq təşkilatların, parlament üzvülərinin işğaldan azad edilmiş ərazilərə səfərləri vacibdir. Amma Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması işi kompleks həyata keçirilməldir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, deputat Nigar Arpadarai deyir ki, Azərbaycan Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdırmaq üçün ictimai diplomatiya alətlərini yaratmalı və onlardan istifadə etməlidir: "Biz 44 günlük müharibə zamanı çox aktiv və həmrəy olduq. Bizim həm diasporumuz və həmçinin xarici ölkələrdə yaşayan aktivistlərimiz, təşkilatlarımız həmrəy olaraq ermənilərin ritorikasını neytrallaşdırırdı. Ermənilər həmişə informasiya müharibəsində öndə gedirdilər. Amma 44 günlük müharibə dövründə onlar informasiya müharibəsində uduzdular. Zəfər qazanandan sonra biz informasiya müharibəsində müharibə dövründə olduğumuz qədər aktiv deyilik. Bu da bizim müharibədə zəfər çalmağımızla bağlıdır. Amma indi biz daha çox beynəlxalq səviyyədə ictimai diplomatiya alətlərini yaratmalıyıq. Bizim fondlarımız, QHT-lər, professorlarımız ictimai diplomatiyanın alətləri olmalıdırlar. Bu çox önəmli məsələdir" deyə N. Arpadarai söyləyir.

Deputat bildirir ki, bu gün işğaldan azad olunmuş ərazilərə səfərlər çox önəmlidir. N. Arpadarai söyləyir ki, bu səfərlər qeyd etdiyim ictimai diplomatiyanın tərkib hissəsi olmalıdır: " Bu zaman iş sistemli şəkildə aparıldığından effekt də daha çox olacaq. Diaspor, aktivistlər, professorlar və QHT-lər böyük bir cəbhə olmalıdır. Biz dünyaya eyni mesajları çatdırmalıyıq. Biz beynəlxalq təşkilatları, beynəlxalq mətbuatı, blogerləri işğaldan azad edilmiş ərazilərə aparmalıyıq. Onların işğaldan azad edilmiş ərazilərə səfərləri fakt araşdırıcı missiya kimidir. Onların fikrini heç kəs dəyişə bilməz. Sabah Azərbaycandan kimsə işğaldan azad edilmiş ərazilərin viran edildiyi barədə danışdıqda bunu propaqanda kimi qələmə vermək mümkün olmayacaq. Onlar təsdiqləyəcəklər ki, bu ərazilərdə olub həmin vəhşiliyi, vandalizm aktını gözləri ilə görüblər. Ona görə də bu səfərlərə mən çox önəm verirəm. Çünki, bu səfərlər zamanı beynəlxalq təşkilatlar cari vəziyyəti görürlər. Bu da fakt araşdırıcı missiya rolunu oynayır. Bunun sistemli həyata keçirilməsi beynəlxalq səviyyədə icimai diplomatiya siyasətimizin tərkib hissəsi olmalıdır".

N. Arpadarai deyir ki, ictimai diplomatiya dedikdə QHT-lər, professorlar, aktivistlər, diasporumuz nəzərdə tutulur. Deputat onu da bildirir ki, həmin kateqoriya bizim cəbhəmiz olmalıdır. Deputatın sözlərinə görə, bu cür səfərlər Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, ermənilərin işğalçılıq mahiyyətinin dünya ictimaiyyətində təbliğ edilməsi baxımından olduqca mühümdür.

Qeyd edək ki, belə səfərlər torpaqlarımız işğaldan azad olunandan bir müddət sonra başlayıb. Fevralın 6-da xarici ölkələrin səfirləri, hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri işğaldan azad olunmuş torpaqlarımıza - Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. Səfərin məqsədi erməni quldurlarının Azərbaycanın tarixi torpaqlarını işğalda saxladıqları 30 ilə yaxın müddətdə törətdikləri vəhşiliklərin izləri ilə tanış olmaq olub. Xarici dövlətlərin təmsilçiləri Prezidentin köməkçisi Hikmət Hacıyevin və Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyovun müşayiəti ilə Cocuq Mərcanlıya, sonra Cəbrayıl və Zəngilana yollanıblar. Zəngilanın mərkəzində dağıdılmış şəhər məscidinə, Mincivan yaşayış məntəqəsinə, Cəbrayılda dağıdılmış qəbiristanlığa, "Çinar" çay evinin qalıqlarına və digər dağıdılmış tikililərə baş çəkiblər. Nümayəndələr tarixi Xüdafərin körpüsündə də olublar. Səfər əsnasında diplomatlar ermənilərin Azərbaycanın tarixi abidələrinə, qəbiristanlıqlara, mülki əhaliyə vurduqları ziyanla yaxından tanış olublar. İşğaldan azad edilən rayonlarda törədilmiş vəhşilikləri öz gözləri ilə əyani şəkildə görüblər. Gördüklərindən heyrətə düşən diplomatlar belə acınacaqlı mənzərə ilə ilk dəfə qarşılaşdıqlarını deyiblər. Diplomatik korpus nümayəndələri ilə birgə Cəbrayıl rayonunda səfərdə olan Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp dağıntıların miqyasının kifayət qədər böyük olmasından təəssüfləndiyini deyib. Səfir vurğulayıb ki, bölgə tamamilə dağıdılıb və ruhlar şəhərinə çevrilib. Şarp həmçinin Britaniya şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılacaq quruculuq işlərinə cəlb olunmasından da danışıb: "Qarşıda görüləcək çox işlər var. Bu ərazilərin vəziyyəti öyrənilməli, minalardan təmizlənməlidir. Daha sonra Britaniya şirkətləri burada bərpa olunan enerji, kənd təsərrüfatı, turizm baxımından maraqlı ola bilər". İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari də qeyd edib ki, artıq nifrəti kənara qoymağın və regionda uzunmüddətli dayanıqlı sülhə nail olmağın vaxtıdır:

"Etiraf edim ki, Cəbrayılda dağıntıları görəcəyimi, heç də yaxşı mənzərə ilə üzləşməyəcəyimi bilirdim. Xüsusilə də Cəbrayıl qəbiristanlığındakı həmin mənzərəni qeyd etməliyəm. Bütün bunlara görə bir daha bildirirəm ki, regionun müxtəlif xalqları arasında sülh şəraitində yaşayış üçün çalışmaq lazımdır. Ümid edirəm, Cəbrayıl qəbiristanlığında gördüklərimizə bir daha şahid olmayacağıq. Bu, hər hansı dinə, irqə, millətə aid olmaqla bağlı deyil. Bu, ölülərə hörmətlə bağlıdır. Azərbaycanlılarda olduğu kimi, italyanlarda da vəfat etmiş doğmalar çox vacibdir. Gəlin nifrəti arxada qoyaq və sülh içində birgə yaşayış üçün irəliyə baxaq". Massari bəyan edib ki, Roma Cənubi Qafqaz regionunun stabilliyində və təhlükəsizliyində maraqlıdır: "Xudafərin körpüsü simvolik olaraq sülh içində birgə yaşayışı təmsil etməlidir". Onu da



vurğulamaq lazımdır ki, xarici ölkə səfirlərinin, hərbi attaşelərin və beynəlxalq təşkilatların erməni işğalından azad olunmuş ərazilərə səfərləri Prezident İlham Əliyevin təlimatına əsasən təşkil edilir. Məqsəd həmin ərazilərdə erməni vandallığını xarici diplomatlara əyani şəkildə göstərmək və gizlədilən həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır. Ona görə də bu cür ziyarətlərin mütəmadi təşkil olunması, xarici ölkə təmsilçilərinin Qarabağdakı dağıntıları öz gözləri ilə görməsi xüsusi əhəmiyyət kəsb edir. Bununla ilk növbədə uzun illər dünya ictimaiyyətinin gözünü boyamağa çalışan erməni təbliğat maşınının yalanları ifşa olunur. Həmçinin, Azərbaycan dünya ictimaiyyətinin diqqətini Qarabağa, erməni vəhşiliyinin izlərinə yönəldərək, düşmənin əsl mahiyyətini açır və rəsmi Bakının haqlı mövqeyini daha da gücləndirir.

***Mələk Eyvazlı***

# Balakəndə şok olay: Gənc oğlan sevdiyi qızı qaçırdı və... - Təfərrüat



***Balakən rayonunda 1998-ci il təvəllüdlü Qaqu yetkinlik yaşına çatmayan Samirə (ad şərti verilib - red.) ilə ailə həyatı qurub.***

Teleqraf.com-un xəbərinə görə, Qaqu Balakən rayon Hənifə kəndində yerləşən evinin yataq otağında 2004-cü il təvəllüdlü Samirənin razılığı ilə onunla təbii yolla cinsi əlaqədə olub. Bundan sonra 2020-ci ilin əvvəllərinə kimi onlar mütəmadi cinsi əlaqədə olublar.

İstintaq orqanı tərəfindən Qaqunun barəsində Cinayət Məcəlləsinin 152.1-ci (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) maddəsi ilə ittiham elan edilib.

Qaqu elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O, bildirib ki, Balakən rayon Hənifə kəndində Samirə və ailə üzvləri ilə birlikdə yaşayır: "Fərdi əməklə, yəni kənd təsərrüfatı işləri ilə məşğul oluram. Həmkəndlim, hal-hazırda həyat yoldaşım olan Samirə ilə aramızda sevgi münasibətləri olub. Samirəyə evlənmək istədiyimi, onun barəsində ciddi fikrim olduğunu bildirdim. 2019-cu ildə Samirə mənə qoşularaq ailəmlə yaşadığım evə gəldi. Məqsədimiz ailə qurmaq, evlənmək olub. Ailə üzvlərimin də bundan xəbəri olub.

Hər iki ailənin üzvləri Samirə ilə gələcəkdə evlənməyimə etiraz etməyib. Amma Samirənin 16 yaşı tamam olmadığına görə ailəsi həmin vaxt ailə qurmağımıza razı deyildi. Buna görə də Samirə ilə həmin il mayın 5-də yaşadığımız Hənifə kəndində yolda görüşdük. Bir az söhbət etdikdən sonra Samirə ilə qaçmağa razılaşdıq".

Qaqu qeyd edib ki, ertəsi gün Samirə evdən çıxaraq saat 12 radələrində Hənifə kəndində onunla görüşüb və birlikdə evlənmək məqsədilə yaşadığı evə gəlib: "Evdə atam-anam Samirəni hədə-qorxu, yaxud qorxutmaqla gətirib-gətirmədiyimi soruşdular. Samirə öz istəyi ilə evlənmək məqsədi ilə bizə gəldiyini dedi.".

Qaqunun ifadəsinə görə, iyunun 10-da Samirə ilə Balakən rayon Hənifə kəndində hazırda birlikdə yaşadıqları evdə cinsi əlaqədə olub: "Həmin günə qədər isə onunla cinsi əlaqədə olmamışdım. Ayrı-ayrı otaqlarda yatmışdıq. Samirə cinsi əlaqədə olmağa özü razılıq verdi. Yataq otağında Samirə ilə cinsi əlaqədə oldum, çarpayıda mələfə qana bulaşdı. Samirəyə mələfəni yandıracağımı bildirdim. Səbəb ailə üzvlərimin bunu görməsindən utanmağım olub. Çölə çıxdım, mələfəni yandıraraq geri qayıtdım. Hazırda Samirə ilə ər-arvad kimi birgə yaşayırıq".

Qaqunun bildirdiyinə görə, ata-anası da onlarla birlikdədir: "Samirə ilə cinsi münasibətdə olduqdan bir müddət sonra hamilə qaldı. Birlikdə yaşadığımız vaxtda 2019-cu ilin dekabrın 31 tarixinədək təxminən 20-25 dəfə cinsi münasibətdə olmuşuq. 2019-cu ilin dekabrın sonlarından yaxınlıq etmədik. Cünki Samirə hamiləliyinə görə narahatçılıq keçirdi.

2020-ci ilin martında Balakən rayon Mərkəzi xəstəxanasına müraciət etdik. Samirənin 36-37 həftəlik hamilə olduğunu bildirdilər. Martın 21-də Balakən rayon mərkəzi xəstəxanasında bir övladımız dünyaya gəldi. Hazırda Samirə ilə ər-arvad olaraq birlikdə yaşayırıq. Evliliyimizdən bir oğul övladımız var".

Bu cinayət işinə Balakən rayon Məhkəməsində hakim Hümbət Səlimovun sədrliyi ilə baxılıb.

Qaqunun barəsində Cinayət Məcəlləsinin 70-ci (şərti məhkum etmə) maddəsi tətbiq olunub. Ona 1 il sınaq müddəti ilə şərti cəza təyin olunub.

# İspaniyada 800 kq-dan çox qara kokain ələ keçirildi

***İspaniya polisi kömür kimi maskalanmış və bu səbəbdən qara rəngli və qoxusuz olan 826 kiloqram kokain ələ keçirib.***

Əməliyyat Portuqaliya xüsusi xidmət orqanları ilə birgə həyata keçirilib. Yük Kolumbiyadan gətirilib və İspaniya Baskoniya muxtariyyətinə göndərilməli idi.

Polisdə olan məlumata görə, partiya qara bazarda təxminən 30 milyon avro dəyərindədir.

Hüquq-mühafizə orqanlarının əməkdaşları həmçinin bir Əlcəzair, iki İspaniya vətəndaşını da saxlayıb.

# Ona pul borcu olanın qardaşına dəhşət yaşatdı - Ağdaşda şok olay

***Ağdaş rayonunda 1997-ci il təvəllüdlü Fəqan pul borcu üstündə yaranan mübahisə zəminində qohumu Xəyalı döyüb.***

Teleqraf.com-un xəbərinə görə, rayonun Aşağı Ləki kəndində qeydiyyatda olan Fəqan qohumu Xəyalla Orta Ləki kəndinin çöl ərazilərində yerləşən örüş sahəsində mübahisə və dava-dalaş edib.

Dava-dalaş zamanı Fəqan Xəyalın baş və üz nahiyələrinə bir neçə dəfə yumruqla, bel, qol, kürək və ayaq nahiyələrinə ağac parçası ilə vurub. Xəyal aldığı zərbələrdən müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

İstintaq orqanı tərəfindən Fəqanın barəsində Cinayət Məcəlləsinin 128-ci (qəsdən sağlamlığa yüngül xəsarət yetirmə) maddəsi ilə ittiham elan edilib.





Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Fəqan ona elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O, ifadəsində göstərib ki, Xəyal onun əmisi qızının əridir: "Əvvəllər aramızda heç bir narazılıq və problem olmayıb. 2020-ci ilin yay aylarında Xəyalın qardaşı Vüqar məndən 2000 manat borc pul istədi, sonra keçilərini sataraq pulu geri qaytaracağını söylədi. Həmin vaxt Vüqara 2000 manat borc pul verdim.

Qarabağ müharibəsi başlayan ərəfədə Vüqara könüllü yazılaraq müharibəyə gedəcəyimi söylədim, ona görə pulumu geri qaytarmasını istədim. Vüqar mənə 500 manat pul qaytardı, qalan 1500 manatı anama verəcəyini söylədi. Həmin vaxt qardaşım da hərbi xidmətdə idi. Ona görə anam tək qalmışdı. Müharibədə olan müddətdə bir neçə dəfə Xəyala zəng etdim, pulu anama verməsini söylədim. Xəyal bir neçə dəfə söz verdi, sonra isə pulu qaytarmayacağını bildirdi. Ona görə telefon danışığı zamanı aramızda mübahisə baş verdi".

Fəqan bildirib ki, 2021-ci ilin yanvarında müharibədən qayıdıb: "Evə qayıdandan sonra bir neçə dəfə Xəyala və onun ailə üzvlərinə zəng etdim, pulumu geri qaytarmalarını söylədim. Sonuncu dəfə Xəyal telefon danışığı zamanı mənə nalayiq ifadələr işlətdiyinə görə bu danışığın ona baha başa gələcəyini dedim. Növbəti gün yenə Xəyala zəng etdim. Lakin zəngimə cavab vermədi. Belədə Xəyalla görüşmək qərarına gəldim.

Onun sahədə qoyun otardığını bildim. Təxminən saat 17.00-da örüş sahəsinə getdim. Xəyala yaxınlaşaraq niyə zəngimi açmadığını, telefon danışığı zamanı məni söyməsinin səbəbini soruşdum. Xəyal ondan uzaq durmağımı, nə deyibsə yaxşı etdiyini söylədi. Aramızda mübahisə yarandı, mənə nalayiq ifadələr işlətdi. Xəyala çox hirsləndim, əlində olan dəyənəyi alaraq onu vurmağa başladım.

Dəyənəklə Xəyalın bel, qol, kürək və digər nahiyələrindən vurdum. Sonra yumruqla Xəyalın üz və baş nahiyələrinə də zərbə endirdim".

Fəqanın sözlərinə görə, bundan sonra Xəyal pulu 1 həftəyə qaytaracağını söyləyib: "Xəyalla birlikdə onun yaşadığı ev istiqamətində getdik. Sonra Xəyal məndən uzaqlaşdırdı".

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Xəyal bildirib ki, Fəqan Qarabağ müharibəsi bitdikdən sonra yaşadığı evə gəlib: "Bir neçə dəfə arvadıma zəng edərək məni soruşub. Fəqan müharibəyə getməmişdən əvvəl qardaşım Vüqar ondan 2000 manat borc almışdı. Həmin pulla qardaşım onun üçün ev tikməli idi.

Fəqan müharibəyə gedəndə pulunu geri istədi. Müharibədə olarkən də bir neçə dəfə zəng edərək pulunu istədi. Sonuncu dəfə telefonda danışanda aramızda mübahisə baş verdi. Həmin gün saat 16.00-da Fəqan mənə zəng etdi. Fəqanın zəngini açmadım. Bir saat sonra örüş sahəsində qoyunları otardığım vaxt ora gəldi. Mənə yaxınlaşdı, niyə onun zəngini açmadığımı soruşdu. Fəqana məndən uzaq durmasını, onunla danışmaq istəmədiyimi söylədim".

Xəyalın sözlərinə görə, aralarında mübahisə yaranıb: "Mübahisə vaxtı Fəqan əlimdə olan dəyənəyi götürərək məni döyməyə başladı. Ağac parçası ilə qol, ayaq və kürək nahiyələrimdən vurdu. Bu zaman həmin ağac parçası qırıldı. Sonra yumruqla üz və baş nahiyələrimdən vurdu.

Həmin vaxt pis vəziyyətdə olduğuma görə Fəqana məndən əl çəkməsini, onun pulunu qaytaracağımı söylədim. Sonra yaşadığım evə getdim. Qardaşım vəziyyətimi gördü, nə baş verdiyini soruşdu. Ona Fəqanın pula görə məni döydüyünü söylədi. Vüqardan Fəqanın pulunu qaytarıb-qaytarmadığını soruşdum.

Vüqar Fəqanın pulunu tam vermədiyini, 500 manatı qaytardığını, 1500 manatı isə hələ də borclu qaldığını dedi. Bərk ağrılarım olduğu üçün Ağdaş rayon Mərkəzi Xəstəxanasına müraciət etdim".

Bu cinayət işinə Ağdaş rayon Məhkəməsində hakim Cavid Sultanovun sədrliyi ilə baxılıb.

Fəqanın barəsində olan cinayət təqibinə xitam verilib və o, cinayət məsuliyyətindən azad olunub.

# Hazır ev almaq, yoxsa tikdirmək - Nə sərfəlidir?

***Bazarda tikinti materiallarının qiyməti təqribən 20-30 faizədək qalxıb. Bu artım materialların növlərinə görə dəyişir.***

Bu sözləri BiznesMedia-ya açıqlamasında "VECON CONSULTING" şirkətinin direktoru, Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədr müavini, iqtisadçı ekspert Vüqar Oruc bildirib.

O, həmçinin işçi haqlarının da yüksəldiyini bildirib: "İstər müəyyən işləri görmək üçün, istər tikintiyə rəhbərlik olsun, istər tikintinin ayrı-ayrı sahələrində inşaat işlərinin həyata keçirilməsi olsun, işçi qüvvələrinin ödəniş haqları əvvəlki qiymətlərdən ciddi şəkildə fərqlənir. Artım 20-25 faiz civarındadır. Bununla yanaşı torpaq sahəsinin qiymətində də artım olur. Bildiyimiz kimi torpaq elə daşınmaz əmlakdır ki, zaman keçdikcə azalır və iqtisadi böhran yoxdursa, iqtisadi hadisə baş vermirsə, torpağın qiymətlərində mütləq artım olur. Əgər torpağın qiymətində də artımı nəzərə alsaq, hazırda tikilən fərdi yaşayış evləri əvvəlkilərdən 20-25 faiz civarında daha yüksək məbləğə başa gəlir".

Hazır ev almaq, ya torpaq alıb ev tikdirmək sərfəlidir?

Vüqar Orucun sözlərinə görə, istənilən halda ev tikdirmək hazır ev almaqdan daha sərfəlidir:



"Ev əldə etmək istəyən şəxs müəyyən yerdə torpaq sahəsi alır, onun üzərində tikinti işləri həyata keçirir. Nəticədə ev sahibi olur. Lakin satış məqsədi güdən şəxs, təbii ki, torpaq alır, onun üzərində evi tikir və öz mənfəətini də onun üzərinə qoyaraq ev və ya obyekti satışa çıxarır. Həmin mənfəət birinci halda olmadığına görə evin şəxsin özünün tikdirməyi daha məqsədə uyğundur. Satın alma zamanı bu qiymət artımı ilə hər bir halda qarşılaşacağıq. Əvvəl hazır yaşayış evi bir qiymətə təklif edilirdisə, indi qiymətlərin qalxmağı nəzərə alınacaq. Aralıqdakı mənfəət fərqi yenə də qalacaq. Bütün variantlarda, qiymət artımı olsa belə, ucuz başa gəlməsi üçün fərdi yaşayış evini insanın özünün tikməsi daha məqsədə uyğundur".

"İH Decor Construction MMC"nin icraçı direktoru Hüseynov İsgəndər isə tikinti materialları bazarında qiymətlərin 25-40 faiz arası artdığını vurğulayıb: "Bu məhsulların növünə görə dəyişir. Belə ki, hər məhsulda qiymət artımı fərqli faizdə baş verib. Məsələn, kərpicin bazarda əvvəlki qiyməti 0,38 AZN idi. Hazırda bazarda kərpicin qiyməti 0,46 AZN-dir. Əvvəl sementin 50 kq-lıq kisəsi 5,50 AZN idi, indi qiymət artıb 6,30-6,50 AZN olub.

Taxtanın kubuna görə əvvəlki qiyməti 220-250 AZN idi, indi isə 320 AZN-dir. Metal materiallarının qiyməti tonuna görə hesablanır. Belə ki, 1 ton armatur 850 AZN idisə, indiki qiymət 950 AZN-ə bərabərdir.

İşçi haqları qiymətlərinə gəldikdə usta əvvəl suvağı 3-4 manata edirdisə, indi 6-8 manata edir. Kərpiclə divar hörgü işləri əvvəl 3 manat idi, hazırda 4-5 manata edilir.

Fərdi evin tikilməsi əvvəl təmirli şəkildə 1 kv/m 140-150 azn-ə başa gəlirdisə, hazırda təmirsiz şəkildə həmin qiymətə tikmək mümkündür. Orta təmirli evin tikintisi isə indi 65 faiz artımla 250 manata başa gəlir".

***Nübar Lətifli***

# Yeni onlayn satış portalı istifadəyə verildi

***Sahibkarların məhsullarının onlayn satışına və tanıdılmasına dəstək məqsədilə yeni onlayn satış platforması - www.kobmarket.az fəaliyyətə başlayıb.***

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) verilən məlumata əsasən, bu portal elektron ticarət konsepsiyası əsasında onlayn-mağaza kimi fəaliyyət göstərir.

Portal əsasən mikro və kiçik biznesin inkişafına dəstək olmaq, KOB subyektlərinin məhsul və xidmətlərinin vahid platforma üzərindən onlayn satışının həyata keçirilməsinə və geniş kütləyə tanıdılmasına dəstək məqsədilə yaradılıb.

Sahibkarlar elektron ticarət portalına qoşulmaqla satış imkanlarını genişləndirə bilərlər. Portalda istifadəçilər üçün vahid ödəniş sistemindən və çatdırılma xidmətlərindən istifadə imkanı yaradılıb. Qeydiyyat prosesi sadədir, portalda hər bir onlayn mağaza üzrə satışa, mağazadakı məhsullar üzrə qalıqların idarə olunmasına, müştərilərin təhlilinə və satışa dair digər zəruri məlumatları hesabat şəklində sahibkara təqdim edəcək müxtəlif alətlər mövcuddur.

www.kobmarket.az sahibkarların onlayn satış imkanlarını genişləndirməklə yanaşı, ölkədə onlayn ticarətin inkişafına, KOB-ların və istehlakçıların rəqəmsallaşdırılması prosesinin sürətləndirilməsinə, eləcə də nağdsız ödənişlərin artırılmasına və "kölgə iqtisadiyyatı"nın azaldılmasına dəstək göstərilməsini hədəfləyir.




www.kobmarket.az portalında onlayn mağaza açmaq istəyən mikro, kiçik və orta sahibkarlıq subyektləri portalda qeydiyyatdan keçməlidir. Sahibkarlıq subyektlərinin www.kobmarket.az portalı ilə bağlı hər hansı sualları yaranarsa portal üzərindən onlayn müraciət edə bilərlər.

# Mənzillərin bahalaşma sürətinə görə ölkələrin reytinqi

***Mənzil qiymətlərinin artım sürətinə görə ölkələr arasında Türkiyə birinci yerdədir.***

2020-ci ilin birinci rübünün sonundan cari ilin birinci rübünün sonunadək dünyanın 56 ölkə və bölgəsindəki mənzil qiymətlərilə bağlı "Knight Frank" beynəlxalq məsləhət mərkəzinin bu gün açıqladığı hesabatına görə, qonşu ölkədə 32 faizlik bahalaşma qeydə alınıb.



Sonrakı yerləri ardıcıllıqla Yeni Zellandiya (22,1 faiz), Lüksemburq (16,6 faiz), Slovakiya (15,5 faiz), ABŞ (13,2 faiz), İsveç (13 faiz), Avstriya (12,3 faiz), Niderland (11,3 faiz), Rusiya (11,1 faiz), Norveç (10,9 faiz) tutur.

Ümumilikdə isə reytinqin əhatə etdiyi ölkə və bölgələrdə sözügedən müddət ərzində orta qiymət dəyişikliyi 7,3 faizdir. O cümlədən, 13 ölkədə qiymət artımı ikirəqəmlidir. Bu isə cari ilin birinci rübünə təsadüf edib. Cari ildə qeydə alınan bahalaşma 2006-cı ildən bu yana ən yüksək həddir.

Ekspertlərin qənaətincə, cari ilin sonunadək qiymət artımı səngiyəcək. Bunun əsas səbəbləri kimi koronavirusun yeni variantlarının ortaya çıxması, yeni peyvəndlərin hazırlanması, peyvəndləmənin ləngiməsi göstərilir.



# Bu arayışın alınması ilə bağlı elektron xidmət istifadəyə verildi

***Azərbaycan İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən "Daşınmaz əmlakın mövcudluğu barədə arayışın alınması" elektron xidməti istifadəyə verilib.***

"Unikal"ın nazirliyə istinadən verdiyi məlumata görə, artıq müraciət edən şəxs adına daşınmaz əmlakın olub-olmaması barədə arayışı xidmətin ərazi idarələrinə müraciət etməklə yanaşı, elektron qaydada da əldə edə bilər.

Daşınmaz əmlakla bağlı göstərilən xidmətlərin elektron müstəviyə keçməsi Dövlət Xidmətinin prioritetlərdəndir və yeni xidmətin istifadəyə verilməsi vətəndaş məmnunluğunun təmin edilməsinə, çevikliyin artırılmasına, vaxt itkisinin aradan qaldırılmasına yönəlib.

Daşınmaz əmlakın mövcudluğu barədə arayışın alınması ilə bağlı müraciət etmək istəyən şəxslər İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Elektron Xidmətlər Portalına (e-emlak.gov.az) daxil olmalıdır. Bundan sonra "Daşınmaz əmlakın mövcudluğu barədə arayışın alınması" bölməsinə (portalın xidmət bölməsində 15-ci sıra) keçid edərək şəxsə aid tələb olunan məlumatlar daxil edilir. Açılan pəncərədəki müvafiq məlumatları doldurduqdan sonra müraciət göndərilir və ardınca təsdiqetmə bildirişi monitorda görünür. Bildirişdə qeydiyyat nömrəsi ilə icra müddəti göstərilir.

Arayış hazır olduqdan sonra müraciət edən şəxsə xidmət haqqının onlayn (elektron) qaydada ödənilməsi ilə bağlı SMS bildirişi göndərilir. Xidmət haqqı ödənildikdən sonra Əmlak Məsələləri Dövlət Xidmətinin Elektron Xidmətlər Portalında (e-emlak.gov.az) "Daşınmaz əmlakın mövcudluğu barədə arayışın alınması" bölməsinə daxil olaraq "Elektron arayışlarım" alt bölməsindən ona məxsus daşınmaz əmlaka dair arayışla tanış olur.

Elektron xidmətin istifadə qaydası ilə bağlı videotəlimatla aşağıdakı linkə keçid etməklə (https://bit.ly/3uKIHGU) tanış olmaq olar.

Qeyd edək ki, müraciət edən şəxsin adına hər hansı daşınmaz əmlak aşkar edilmədikdə, xidmət haqqı tələb olunmur.

İstifadəçinin adına daşınmaz əmlakın mövcud olmaması barədə SMS bildiriş həmin şəxsin mobil nömrəsinə göndərilir.

# Azərbaycanda minik avtomobillərinin istehsalı azalıb

***2021-ci ilin yanvar-aprel aylarında Azərbaycanda istehsal edilmiş minik avtomobillərinin sayı azalıb.***

Unikal.org xəbər verir ki, qeyd olunan müddət ərzində ölkədə maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu vəyarımqoşquların istehsalı sahələrində 85,4 milyon manatlıq məhsul istehsal edilib, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə maşın və avadanlıqların istehsalı isə 2,7 dəfə artıb.

Yanvar-aprel aylarında 508 ədəd və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 164 ədəd az minik avtomobili istehsal olunub. Dövr ərzində əvvəlki ilin yanvar-aprel ayları ilə müqayisədə traktorların istehsalı 54,3 faiz artıb.

## ELAN

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Hüseynov Rafiq Təvəkkül oğluna verilmiş AA 03335 nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.**



# Xəstəxanaların birləşdirilmə səbəbləri açıqlandı - SİYAHI

***"Tibb mərkəzlərinin birləşdirilərək yenidən təşkil edilməsi, bir müəssisədə daha çox sayda tibbi xidmət göstərilməsini təmin etmək üçündür".***

Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) Tibbi iddialar departamentinin rəhbəri Vüqar Qurbanov Azərbaycanda tibb müəssisələrinin birləşdirilməsilə bağlı sualları cavablandırarkən deyib.

V.Qurbanov qeyd edib ki, əhalinin tibbi xidmətlərə əlçatanlığının təmin edilməsi baxımından bu birləşmələr labüddür: "Məsələn, bir müəssisədə 18 yaşdan yuxarı vətəndaşlarımız üçün xidmət göstərəcək bütün sahələr mövcud idi, amma uşaqlar üçün tibbi xidmət yox idi. Bu birləşmələr sayəsində həm böyüklər, həm də uşaqlar üçün təşkil edəcək müəssisələr formalaşdırılır. Məqsədimiz odur ki, tibb müəssisəsinə müraciət edən vətəndaşımız ehtiyacı olan bütün xidmətləri bir müəssisədə əldə etsin".

Qeyd edək ki, son dəyişikliklə "M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi" "Xüsusiləşdirilmiş Angioloji Mərkəz"in ona qoşulması, "K.Y.Fərəcov adına Elmi-Tədqiqat Pediatriya İnstitutu" "Uşaq Nevroloji Xəstəxanası" və "6 nömrəli Uşaq Klinik Xəstəxanası"nın ona qoşulması ilə yenidən təşkil edilir.

Buna qədər isə "Kliniki Tibbi Mərkəz" publik hüquqi şəxs professor Ə.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanası, 3 nömrəli Uşaq Xəstəxanası və "Ş.Ələsgərova adına 5 nömrəli Kliniki Doğum Evi" Publik Hüquqi Şəxsin ona qoşulması yolu ilə yenidən təşkil olunur.

"Lökbatan Tibb Mərkəzi" Publik Hüquqi Şəxs 4 nömrəli Birləşmiş Uşaq Xəstəxanası hüquqi şəxsin ona qoşulması yolu ilə yenidən təşkil edilir.

"Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası" Publik Hüquqi Şəxs "Respublika Uşaq Klinik Xəstəxnaası" Publik Hüquqi Şəxsin ona qoşulması yolu ilə yenidən təşkil edilir. "Nərimanov Tibb Mərkəzi" Publik Hüquqi Şəxs 7 nömrəli Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanası, 8 nömrəli Şəhər Poliklinikası,18 nömrəli Şəhər Poliklinikası və 6 nömrəli Uşaq Poliklinikası hüquqi şəxslərin ona qoşulması yolu ilə yenidən təşkil edilir.

"Sabunçu Tibb Mərkəzi" Publik Hüquqi Şəxs 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanası, 5 nömrəli Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanası və "2 nömrəli Doğum Evi" Publik Hüquqi Şəxsin ona qoşulması yolu ilə yenidən təşkil edilir. "Sumqayıt Tibb Mərkəzi" Publik Hüquqi Şəxs "1 nömrəli Sumqayıt Şəhər Xəstəxanası" Publik Hüquqi Şəxs, 2 nömrəli Şəhər Xəstəxanası, Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanası və Sumqayıt Uşaq Xəstəxanasının ona qoşulması yolu ilə yenidən təşkil edilir.

# Bakıya gizli səfər, illərdir qorunan əmanət: Rəsulzadənin qeyb olan qızının ürəkdağlayan HƏYAT HEKAYƏTİ

***Gecə Cəmşidin evinin qapısını naməlum bir adam döyür. O, kiçik bir məktubu Cəmşidə uzadıb, elə gəldiyi kimi də yox olur. Hə, hər şey məlum idi. Əmanət yiyəsi əmanətini tələb edirdi. Bəlkə də xahiş edirdi. Amma nə fərqi var; hər iki halda əmanət yiyəsinə çatmalı idi. Çünki o, kişi sözü vermişdi. Və təxminən bir aydan sonra Cəmşid əmanəti Məhəmməd Əminə çatdırır, özü də Ankarada. Həmin əmanət isə "Əsrimizin Səyavuşu" kitabının əlyazması idi. Məhəmməd Əminin "bir kəndli" adlandırdığı şəxs isə qaçaq Cəmşid.***



1943- cü il... Bakıdan eyni istiqamətə bir gənc qadın üz tutur. Onu heç kim tanımamalı idi. Tamamilə üzünü örtən, onu tanınmaz edən bir geyimdə çıxmışdı yola. Amma izlənilirdi. Hiss edirdi özü də. Bəs, hara gedirdi o? Bu qədər təhlükəli yola niyə çıxmışdı? Ümumiyyətlə bu gənc qadın kim idi?

27 yaşlı Xalidəydi, Xalidə Rəsulzadə. Məmməd Əmin Rəsulzadənin qızı Xalidə. Qazaxıstanın Taldı Kurqan şəhərindən Aktauya düz 3500 km məsafə qət etmişdi. Oradan isə Bakıya gəlmişdi gəmiylə. Həm də tamamilə gizli.

Tarixçi-alim Zaur Əliyev danışır: "Uzun zaman idi ki, Məmməd Əmin Rəsulzadənin ailə üzvləri barədə müxtəlif yazıları izləyirəm. Mənə maraqlı olan Bakıya Qazaxıstandan gizli yolla gələn qızı Xalidə Rəsulzadənin taleyi idi. Bir dəfə Rəis bəy Rəsulzadəyə də zəng elədim. O, da bu barədə məlumatsız olduğunu dedi. Mən bu işin dalınca düşüb Qazaxıstandan başlayan və Neftçalada izi itən bir səfəri araşdırmağa başladım".

1916-cı ildə Məhəmməd Əmin Rəsulzadənin ailəsində doğulub Xalidə xanım. Rəsulzadə ailəsinə olan repressiyaya məruz Xalidə Qazaxıstanın Taldı Kurqan vilayətində sürgün həyatı yaşamağa başlayır. 1940-cı ildə anası Ümbulbanu xanımın vəfatından sonra ailənin kiçik övladları Azərlə Xalidə tək qalırlar.

Ardını da elə Zaur bəyin özü danışsın: "Artıq ailə darmadağın olur. Xalidə xanım sürgündə nənəsi Maral xanımı, anası Ümbülbanu xanımı qürbət torpaqda dəfn edir".

Bundan sonra Xalidə xanım Qazaxıstandan baş götürüb Bakıya qaçmağı planlaşdırır. O, 1943-cü ildə Taldı Kurqandan Qazaxıstanın Xəzər sahillərinə gəlib çıxır. Bakıya səfər edən gəmiyə bilet əldə edir. Qulluqçular olan otaqda qalan Xalidə Bakıya çatan kimi İçəri Şəhərə, qohumu Seyid Hüseynin evinə gedir. Qeyd edim ki, Məhəmməd Əmin Rəsulzadənin əmisi qızı Ümgülsüm Sadıqzadə ilə ailəli olan və 1938-ci ildə güllələnən Seyid Hüseynin evində gizli yaşayır".

İlkin ehtimala görə, Şamaxıya getmək planı olur Xalidə xanımın. Bəs niyə Şamaxıya? Əslində Şamaxıya da yox, Lahıca. Şamaxıdan atasının da keçdiyi dağ yollarıyla Lahıca qohumlarını tapmaq istəyirmiş. Çünki Lahıcda Müsavatın çox güclü dayağı olub. Lahıclı Rəsul Rəhimoğlu Rəsulzadənin yaxın dostu idi. Bir də Rəsulzadənin qızı Lətifə Lahıcda ərdə olmuşdu. Onun əri Daməd Hacımüslümoğlu məhz bu kənddən idi. Orada xeyli qohumu vardı. Və ən əsası bir versiyaya görə, Lahıcda Rəsulzadəyə məxsus xeyli sənəd və əşyalar, necə deyərlər əmanət vardı.

Hə, Xalidə onun dalınca düşən iki xüsusi xidmət orqanı işçisini görüb fikrini dəyişir. Bileti indiki Neftçala istiqamətinə alır.

"Qatarda saxlayırlar onu və düşürürlər. Bir neçə saat milis idarəsində qalan Xalidənin taleyini həll etmək üçün Bakıya, ordan da Moskvaya zənglər edilir. Qərar belə olur. Onu gizlətmək".

Belə bir ehtimal var ki, Xalidə Rəsulzadənin Neftçalada adalardan birində yerləşdirirlər. Bəs, onun sonrakı taleyi necə olur? Hə, bax, bunu hələ də bilən yoxdur.

"Ad və soyadını dəyişdirən Xalidə Rəsulzadə barədə bundan sonra heç bir məlumat yoxdur. Neftaçalaya gedib bunu araşdıran zaman bir neçə ağsaqqala görüşdüm. Onlar da deyirdilər ki, o zaman Neftçalada belə şayiə gəzirdi ki, "bəyin bacısını gətiriblər". Bu, sadəcə bir deyimdir. Yəqin ki, bəyin qızını nəzərdə tutublar. Düzü arxivlərdə Xalidə Rəsulzadənin orada hansı adla və soyadla saxlanması barədə heç bir məlumat tapa bilməmişəm...Amma mütləq bir gün o sənəd üzə çıxacaq..."

Digər bir ehtimal da var. Deyilənlərə görə, elə ki, Xalidə xanım Neftçalaya çatır onu tutub aparırlar. Güman olunur ki, elə rayonun köhnə qəbiristanlığında da güllələnir həmin o gənc qadın...

Bir sözlə, əsil müəmma...

***Lamiyə Məmmədova***

# Bu gün IX sinif şagirdləri buraxılış imtahanı verir

***Dövlət İmtahan Mərkəzi tərəfindən Naxçıvan MR-də, Şirvan və Sumqayıt (1-ci hissə) şəhərlərində, Gəncə şəhərinin Nizami rayonunda, Ağstafa, Astara, Daşkəsən, Hacıqabul, Lerik, Qəbələ, Qobustan, Şabran, Ucar, Yardımlı, Yevlax və Zərdab rayonlarında ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçirilir.***

İmtahanlar saat 11:00-da başlanır. İmtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:



- İmtahana buraxılış vərəqəsi;
- Sağlamlıq haqqında bəyannamə;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli;
- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 98 imtahan binası, 1605 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 98 ümumi imtahan rəhbəri, 267 imtahan rəhbəri, 1945 nəzarətçi-müəllim, 196 buraxılışı rejimi əməkdaşı (mühafizə), 98 bina nümayəndəsi ayrılıb.

Bu gün keçiriləcək imtahanlarda 20438 şagirdin iştirakı nəzərdə tutulur.

# Şuşada Müdafiə Nazirliyinin təşkilatçılığı ilə ilk kitab təqdimatı keçirilib

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə ilk kitab təqdimatı keçirilib.***




Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, məhşur "Gəncə qapısı" tarixi memarlıq abidəsinin qarşısına toplaşan 44 günlük Vətən müharibəsinin iştirakçıları və ölkəmizin mirvarisi olan gözəl Şuşamızın müdafiəsində bu gün də mərdliklə dayanan Azərbaycan Ordusunun hərbi qulluqçuları əvvəlcə xalqımızın ümummilli lideri ulu öndər Heydər Əliyevin, Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini hörmət və ehtiramla yad ediblər.

Hərbi hissə komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini polkovnik Elşad Əbilov bu gün Şuşada ilk kitab təqdimatı keçirilməsinin heç də təsadüfi olmadığını qeyd edərək bildirib ki, Şuşada tarixən elmə, təhsilə, ədəbiyyat və incəsənətə böyük maraq olub. Vaxtilə burada zəngin muzeylər, kitabxanalar fəaliyyət göstərib. "Məclisi - üns", "Məclisi - fəramuşan" poeziya məclislərində onlarla şairlər formalaşıb, püxtələşib, inkişaf edib. Yurdumuzun bu füsunkar guşəsi Azərbaycanın mədəniyyət xəzinəsinə görkəmli rəssam, şair, alim Mir Möhsün Nəvvab, şairə və rəssam Xurşudbanu Natəvan, ədəbiyyatımızda tarixi dram janrının banisi Əbdürrəhim bəy Haqverdiyev, milli dramaturgiyamızda faciənin əsasını qoyan Nəcəf bəy Vəzirov, ilk ədəbiyyat tarixçisi, maarifçi, Qori və Qazax seminariyalarının müdiri Firudin bəy Köçərli, satirik şeirmizin təməlini qoyanlardan biri Qasım bəy Zakir, Şərqdə ilk operanın banisi, böyük dramaturq, musiqili komediya janrının yaradıcısı, qüdrətli publisist Üzeyir Hacıbəyli, ilk tarixi romanlar müəllifi Yusif Vəzir Çəmənzəminli, Azərbaycan dövlətçiliyinin ilk nəhəng ideoloqlarından biri, yazıçı - publisist, alim, erməni terrorizminə qarşı ilk türk "Difai" milli təşkilatının yaradıcısı Əhməd bəy Ağayev və neçə-neçə böyük sənətkarlar bəxş edib.

Nəzərə çatdırılıb ki, Şuşa və şuşalılar zaman-zaman yadellilərin hücumlarına məruz qalsalar da tarixin sərt sınaqlarından uğurla çıxıb, bu müqəddəs torpağı canları, qanları bahasına mərdliklə qoruyublar. 2020-ci ildə Ermanistanın təxribatlarına cavab olaraq dövlətimizin



başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında "Dəmir Yumruq" əməliyyatı ilə başladığımız Vətən müharibəsi məhz Şuşanın işğaldan azad edilməsi ilə Zəfərlə başa çatıb.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını salamlayaraq məlumat verib ki, müəllifi olduğu "Vətən müharibəsi şəhidləri" nəşri yeddi kitabdan ibarət olacaq və bu kitablarda Vətən müharibəsində şəhadətləri ilə tarix yazan, adları tarixə yazılan üç minə yaxın şəhidimizin həyatı, Vətənə sədaqətli xidmətləri və şanlı döyüş yolu barədə ətraflı məlumatlar veriləcək.

Birinci kitab Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Hərbi Qənimətlər Parkında təltif olunan hərbi qulluqçularla görüşdə çıxış edərkən dediyi bu fikirlərlə başlanır: "Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah onların yaxınlarına səbir versin. Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı..."

Təqdim olunan 800 səhifəlik ilk kitabda Azərbaycan Ordusunun şəhid zabit və gizirlərinin əbədiyaşar ömürlərinə çıraq tutulur. Bütün cəbhələrdə, eləcə də Şuşa istiqamətində, Şuşa şəhərində son gülləyə, son nəfəsədək vuruşan qəhrəman şəhid döyüşçülərimiz ehtiramla xatırlanır. Nə qədər müstəqil Azərbaycan dövləti var, nə qədər qədirbilən xalqımız var onlar heç vaxt unudulmayacaq, xatirələri əziz tutulacaq, adları əbədiləşdiriləcək, bu kimi nəşrlərdə, ürəklərdə yaşayacaqlar.

Kitabın ilk nüsxələri Şuşaya qədər şərəfli döyüş yolu keçmiş və xidmətləri Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamları ilə yüksək qiymətləndirilmiş, orden-medallara layiq görülmüş hərbi qulluqçular Tural Qocayev, Elçin Hüseynov, Cavid Mustafayev, Yusif Əlizadə, Şamxal Novruzlu, Nizam Aydəmirova və hərbi hissənin kitabxanasına hədiyyə edilib.

Aprel döyüşlərinin, o cümlədən Vətən müharibəsinin qəhrəman iştirakçılarından olan reaktiv - artilleriya batareyasının komandiri Elçin Hüseynov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu şəhid Nizami Aydəmirovla birgə döyüşlərdə fəal iştirak edən qardaşı əsgər Nizam Abdullayev çıxış edərək şəhidlərin intiqamını artıqlaması ilə aldıqlarını və bu gün də Müzəffər Ali Baş Komandanın əmri ilə istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadir olduqlarını vurğulayıblar.

Müəllif və tədbir iştirakçıları yüksək poliqrafiya keyfiyyətinə malik "Vətən müharibəsi şəhidləri" silsiləsindən birinci kitabın nəşrə hazırlanmasında və işıq üzü görməsində göstərdiyi xeyirxah köməyə görə Müdafiə Nazirliyinin və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rəhbərliyinə, eləcə də "Apostrof-A" nəşriyyatınnın kollektivinə minnətdarlıq ediblər.

Məlumat üçün bildiririk ki, nəşr olunan birinci kitab 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününədək şəhid ailələrinə, respublikanın mərkəzi muzey və kitabxanalarına hədiyyə ediləcək.



# Dağlar diyarının igid oğlu

***Vətən müharibəsində torpaq uğrunda canını fəda edib şanlı zəfər salnaməmizə adını yazan Əliqismət Mükafat oğlu Yaqublu dağlar diyarı Lerik rayonunun Kələxan kəndində anadan olmuşdu. Əsl azərbaycanlı adət-ənənələrinə söykənən ailə mühitində böyüdüyü üçün Vətənə, doğa torpağa məhəbbət lap ana südü ilə axıb onun qəlbinə hopmuşdu. Odur ki, Əliqismətin ağlı kəsəndən yurda saf hisslərlə bağlılığı onun parlaq gələcəyindən xəbər verirdi. Vətən ondan ötrü hər şeydən əziz, yüksək görünür. Elə bu ilahi sevgiyə tapınmaqla yağı düşmənin ədalətsiz təcavüzü, əzəli yurd yerimiz Qarabağın işğalı köksündə gəzdirdiyi ürəyə dağ boyda yük olur. Bunu öz iç dünyasında götür-qoy etməklə həyat Əliqisməti döyüş, vuruş meydanına səsləyirdi.***

Sözün qısası, Əliqismət Vətən torpaqlarını azad görmək məqsədilə taleyini hərbiyə bağlayır. Heydər Əliyev adına Bakı Ali Məktəbini, eləcə də Təlim Tədris Mərkəzini bitirib mükəmməl bilik və bacarığa malik bir Vətən sevdalısı kimi 2015-ci ildə Qobustandakı hərbi hissəyə Azərbaycan Silahlı Qüvvələrinin leytenant rütbəsində təyinat alır. Vətən, torpaq naminə seçdiyi çətin, olduqca şərəfli peşənin ən sadiq, etibarlı yolçusu olmaqdan ötrü bütün eşqini ona verir. Qaldı ki, Qarabağın düşmən tapdağında olduğu bir vaxtda Əliqismət qaynar bölgələrdə, daha doğrusu cəbhə xəttində düşmənlə qarşı-qarşıya dayanmaq, məqamı gələndə döyüşə atılıb ona qan qusdurmaq istəyir. İstəyini yerinə yetirirlər. Bu an Aprel döyüşləri başlanır, düşməndən qisas almaq zamanı gəlir. Əliqismət axıra qədər müharibə meydanında olur, erməni dığalarına ürəyincə matəm libası geyindirə bilir. Və bundan sonra da düşmənlə döyüşüb işğal edilən hər qarış torpağının qisasını almağa and içir.

Əliqismət Yaqublu xidmət etdiyi hərbi hissələrdə döyüşkən, mərd, cəsur, əsgərinə sədaqətli komandir olaraq sevilir. Baş leytenant rütbəsinə layiq görülür. Bir müddət Cəlilabaddakı Xüsusi Təyinatlı Qüvvələrinin xidmət rəisi vəzifəsini icra edir.

Vətənin qalib şəhidi ikinci Qarabağ müharibəsində sözün əsl mənasında tarix yazır. Murovdağda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Laçında dığalara qan qusdurur. Şuşa şəhərinin düşmən tapdağından təmizləməkdə böyük şücaət göstərir. Dığalara od qoymaqla, həm də neçə-neçə yaralını alovun içindən çıxardır. Vətənin yağı düşməndən azad olması üçün bütün qüvvəsini qoyur. Arzusuna çatacaq bir addımlıqda, 5 noyabr 2020-ci ildə namərd gülləsi onun ürəyinə dəyir. 28 yaşında milyonların ürəyinə köçür.

İndi Əliqismətin halal ailə ocağında Əliəsgər və Məmməd adında iki igid böyüyür. Artıq onlar ataların kim olduğunu başa düşürlər. Əlisgər qəhrəman atadan yadigar qalan "Azərbaycan Bayrağı" ordenini, " Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medallarını balaca döşünə taxanda özünü ən qürurlu əsgər sayır. Və babası Mükafat kişini qucaqlayıb deyir:" Baba, mən də böyüyəndə atam kimi Vətən layiqli oğlu olaram."

***Zəfər Orucoğlu, AJB üzvü***

# Gənc ömrünü, toyunu Vətən yolunda qurban verdi...

## 67 gün itkin sayılmış - şəhid Vüsal Ramazanov



***...O gecə Fatma ananın yuxusu ərşə çəkildi. Səhərə kimi yata bilmədi. Gecə yarısı bir neçə dəfə həyətə düşüb, oğlunun cəbhədən sağ-salamat qayıtması üçün dualar etdi... Digər tərəfdən isə, düşmənə nifrət hissi onu boğurdu, narahatlığı daha da artırdı: "Allah erməni dığalarının bəlasını versin, qırılıb qurtarmadılar, hələ torpaqlarımızı işğal etməkləri azmış kimi, müharibəyə başladılar, gənc oğullarımızı, Vətənin qeyrətinə, onun toxunulmazlığına, bütövlüyünə çalışan balalarımıza namərdcəsinə atəş də açırlar, analarımızı, bacılarımızı, nişanlı qızlarımızı gözü yollarda, intizarda qoyurlar. Mənim kimi, oğlumun nişanlısı kimi... nə olardı müharibə tez qurtaraydı, oğlum da, bütün müharibədə olanlarda sağ-salamat əzizlərinin yanına dönəyilər..." bu fikirlərlə Fatma ana səhəri gözü açıq açdı...***

...Bir daha İkinci Vətən Müharibəsi sübut etdi ki, qeyrətli Azərbaycan qadını əsrlər boyu olduğu kimi yenə də qəhrəman oğullar dünyaya gətirirlər və onlara ancaq - ancaq Vətənə məhəbbət ruhu aşılayırlar... Bu oğullar isə, yaşadıqları torpaqların, doğma yurdunun düşməndən qorunmasından ötrü əsil şücaətlər göstərirlər, hətta bu yolda canlarını fəda verirlər...

...44 günlük faşist xislətli ermənilərlə savaşda canını fəda verən Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndindən olan tarixlər boyu döyüşkən ruhlu, düşmənin gözünə dik baxan avar xalqının nümayəndəsi olan Vüsal Vahid oğlu Ramazanov Zaqatala rayonunun bu savaşda ki, 33 cü şəhid oğlu və xalqın, torpaqlarımızın xilaskarı...

...Əlbəttə ki, anası Fatma xanım, qardaşı və digər əzizləri onun ölümü ilə barışmırlar... Çünki inanılmazdır... Vüsalın taleyi həyatda olduğu kimi cəbhədə də keçməkeşli olub. Fatma ana iki oğlunu böyütmək üçün çox böyük zəhmət çəkib, əziyyətlər görüb...

...Şəhid Vüsal Vahid oğlu Ramazanov barəsində daha ətraflı məlumat toplamaqdan ötrü Zaqatala rayonunun ən qədim tarixə malik kəndi olan Yuxarı Çardaxlar kəndində oldum. Şəhidin anası Fatma xanımla, qardaşı Validlə görüşdüm. Yenə də zəhmətkeş, sadə, mülayim xarakterli, amma böyük bir itkini unuda bilməyən, ağrısı-acısı ilə yaşadan Ramazanovlar ailəsi... Həmişə olduğu kimi bu dəfə də məni bir sual narahat edirdiş. "Söz yox ki, Vətən hamımızın Vətənidir, onun dar günündə düşməndən qorumaq hamımızın borcudur, kimliyindən asılı olmayaraq. Bəs görəsən, məhz əvvəlki savaşlarda olduğu kimi (əlbəttə ki, faktlar və sübutlar bir deyil, iki deyil, onlarladdır. E. M.) bu Vətən Müharibəsində də belə sadə, öz halal zəhməti ilə dolanan ailələrin övladları hərbi səfərbərliklə, "könüllülər" və yaxud təlim adı ilə müharibəyə aparılıblar. Niyə görəsən bu məqamlarda ailələrin vəziyyətlərini niyə nəzərə almırlar?! Söz yox ki, belə ailələrdə tərbiyə alan, böyüyən gənclərdə Vətənpərvərlik hissləri daha güclü olur...

...Böyük oğlu Vüsal 09 oktyabr 2020 -ci il tarixindən, yəni müharibəyə getdiyi gündən yuxusuz gecələr, çox narahat gündüzlər keçirən Fatma ana üçün danışmaq, hətta mənim onunla oğlu barədə danışmaq çox çətin idi. Şəhid anasının necə hisslər keçirdiyini çox yaxşı başa düşürdüm...

...Şəhidin qardaşı Valid Ramazanovla söhbət əsasında öyrəndim ki, böyük qardaşı Vüsal Ramazanov 1994 -cü il təvəllüdlüdür. O, 2011 -ci ildə Yuxarı Çardaxlar kəndindəki şəhid Ramazan Muradov adına tam orta məktəbini müvəffəqiyyətlə bitirib. Lakin ailəsinə kömək etmək üçün Vüsal təhsilini davam etdirməyib.

"...Qardaşım 2012 -ci ildə Milli Ordu sıralarına həqiqi hərbi xidmətə gedib. Azərbaycan Silahlı Qüvvələrinin düşmənlə üzbə-üz mövqelərində yerləşən, "N" saylı hərbi hissəsində, Murov Dağ silsiləsində yerləşən hərbi mövqelərdə hərbi xidmət keçib. O, dəfələrlə düşmən təxribatlarının qarşısının alınmasında iştirak edib və düşmənə layiqli cavab verib. Qardaşım, 2014 -cü ildə hərbi xidmətini layiqincə, vicdanla yerinə yetirərək, ordudan tərxis olunub..." deyərək söhbətimizi davam etdirən Valid Ramazanov bildirdi ki, qardaşı Vüsal əsgərlikdə olan zaman, yəni 18 yaşında ataları Vahid kişi vaxtsız dünyasını dəyişib. Atasının vəfatından sonra ailə qayğılarını Fatma ana çəkib. Vüsal da hərbi xidmətini başa vurandan sonra ailəsinə yaxından köməklik göstərib.

Belə ki, o, əvvəlcə Bakı şəhərində 3 ay tikinti sahəsində çalışdıqdan sonra rayona qayıdıb. Zaqatala şəhərində Bazar ərazisində yerləşən Elektrik malları satışı mağazasında işə girib və qısa müddət ərzində işgüzarlığı, mədəni rəftarı ilə alıcıların, kollektivin hörmətini qazanıb.

Söhbətimizə qoşulan Fatma ana deyir ki: "Vüsal Ramazanov ailənin dayağı idi, ailə qayğılarının, çatışmamazlıqlarının əksəriyyətini o, yerinə yetirirdi. Oğlumuza qonşu kənddən, özünün dərin məhəbbətlə sevdiyi qızı nişanlamışdıq. 2020 -ci ilin oktyabr ayında toyları müəyyən edilmiş, şərtləri və qaydaları pozmayaraq, el-adəti ilə nişanlısını evimizə gəlin gətirməliydik... Amma...

Böyük həvəslə, xoş niyyətimizlə bu toya hazırlaşırdıq... Ana kimi böyük oğlum Vüsala gəlin gətirmək ən böyük arzum olub... Atalar yaxşı deyiblər: Sən saydığını say, gör fələk nə sayır..." - şəhid anası qəmli-qəmli oğlu Vüsalın sonrakı taleyindən danışdı: "övladlarını böyüt, ərsəyə çatdır, əziyyət, zəhmət çək, onların qayğısına qal, xoş günlərini görəsi vaxtları isə əzəli düşmənimiz müharibəyə başlasın... Bütün arzularımızı puç etsin... Müharibə başlayan ikinic günü oğlum Vüsal və Valid də Səfərbərlik və Çağırışa üzrə Dövlət Xidmətinin Zaqatala rayon Şöbəsinə çağırıldılar, qismən səfərbərliklə əlaqədar Vətənin dar günündə onu düşməndən qorumaq hər bir kəsin müqəddəs borcudur. Mən də bir valideyn kimi övladlarıma müsbət hissləri aşılamışam. Unutmayaq ki, bu Vətən hamı üçün Vətəndir... Əlbəttə ki, oğullarım müharibəyə getməyə könüldən və candan hazır olduqlarını bildirirdilər. Balaca oğlum Valid isə qardaşının nişanlı olduğunu əsas gətirərək, təkidlə özünün gedəcəyini dedi... Ancaq 09 oktyabr 2020 -ci il tarixində böyük oğlum Vüsal cəbhəyə yola düşdü..."

...Fatma xanım daha da qəhərləndi, sonra baş verən prosseslər barədə danışa bilmədi... Müharibədə oğlunun başına gələnləri nəql etmək ana üçün rahat deyil. Şəhidin qardaşı Validdən öyrəndim ki, Vüsal Ramazanov müharibəyə gedən ikinci günü Müdafiə Nazirliyinin Qusarda yerləşən "N" saylı hərbi hissəsinin tərkibində müharibənin ən qaynar mövqelərində döyüşlərə qatıldı... Qeyd edək ki, elimizin igid oğlu Vüsal hazırlıq hərbi təlimlərdə iştirak etməsə də, öz inamı, düşmənə nifrət hissləri ilə müharibədə odun-alovun içinə atılmağa heç vaxt tərəddüd etməyib. Müharibənin keçdiyi dövrdə əldə etdiyimiz məlumatlara əsasən bildirək ki, məhz Vüsal Ramazanov tərkibində döyüşdüyü həmin hərbi hissənin Vətənpərvər hərbiçiləri Cəbrayılın, Qubadlının, Zəngilanın, Fizulinin, Hadrutun, Suqovuşanın azad edilməsi uğrunda təşkil olunan döyüş əməliyyatlarında iştirak edərək, düşmənin bütün həmlələrini dəf etməklə yanaşı, ermənilərin xeyli sayda döyüş texnikasını məhv ediblər. Qızğın döyüşlər zamanı həmin ərazilərdə uğurlu döyüş əməliyyatlarının təşkil olunmasında yüksək təcrübəli, rütbəli hərbiçi, 24 ildən çox Azərbaycanın Silahlı Qüvvələrində əla xidmət etmiş Zaqatala rayonunun Dardoqqaz kəndindən olan şəhid polkovnik-leytenant Abakar Məmməd oğlu Hacıyevin böyük şücaəti olub. Məhz, Vüsal Ramazanov da döyüş meydanlarında tez-tez Abakar Hacıyevlə birgə döyüşlərdə iştirak edib, qorxu bilmədən, böyük şücaətlə...

Şəhidin qardaşı Valid Ramazanov deyir ki, qardaşı Vüsal imkan tapıb 27 oktyabr 2020 -ci il tarixində səhər saat 830 -da qısa zaman ərzində anası ilə telefon danışığı olub. O, demişdi ki: "...Ana, məndən narahat olmayın, nigaran qalmayın, mən hələ döyüşə getməmişəm..." Halbu ki, həmin vaxt Vüsal Dağlıq Qarabağın ən mühüm strateji məntəqələrindən biri olan "Qırmızı Bazar" uğrunda gedən döyüşlərdə vuruşurdu. Düşmən Şuşaya hücumu məhz, Qırmızı Bazar istiqamətlərindən gözləyirdi.

Məlum olduğu kimi 19 oktyabr 2020 -ci il tarixində Füzuli rayonu mərd oğullarımız tərəfindən düşməndən azad edildikdən sonra, Qırmızı Bazar istiqamətində amansız döyüşlər gedib. Vüsal Ramazanov sonuncu dəfə anası Fatma xanımla danışan zaman həmin döyüşlərdə iştirak edirmiş... Və, həmin gündən Vüsalın ailəsi ilə əlaqəsi kəsildi...

Qardaşı Valid söhbətimiz zamanı əlavə etdi: "Beləliklə, qardaşım Vüsaldan düz 67 gün xəbər almaq mümkün olmadı. Bəzi yaralı döyüşçü yoldaşlarının söylədiklərinə görə, qardaşımın son döyüşü 30 oktyabr 2020 -ci il tarixində Qırmızı Bazar qəsəbəsi ərazisində olub. Həmin günü 5 nəfər hərbiçimiz şəhid olub, çoxlu sayda döyüşçümüz yaralanıblar. Azğın düşmən şəhidlərimizi döyüş meydanından çıxarmağımıza aman verməyiblər.

Düz, 67 gündən sonra hərbiçilərimizin meyitləri həmin ərazidən götürülüb və tanıtım müayinəyə verilib. Qeyd edək ki, mən əmimlə qardaşımın axtarışı ilə bağlı iki dəfə onların hərbi hissəsində olmuşam. Amma onu da söyləyim ki, qardaşım Vüsal 01 noyabr 2020 -ci il tarixindən itkin hərbiçi kimi qeydiyyata salınmışdı...

Uzun müddət baş verən axtarışlardan və müraciətlərdən sonra xüsusi tanıtım müayinəsindən sonra qardaşımızın nəşi təhvil verildi...

Qardaşımın arzuları çoxdu....

Ailə qurandan sonra təzə ev inşa edib, təzə mənzilə köçmək ən böyük arzusu idi. O, sadə, mehriban, xeyirxah insan idi. Kiminsə xətrinə dəymək istməzdi, ailəmizin sağ əli idi... Daima mənimlə maraqlanardı mənə çox gözəl məsləhətlər verərdi... Vüsal ayrı qardaş, ayrı oğul idi. Çox heyif onun toyunu görə bilmədik...

...İkinci Vətən Müharibəsində ən ağır döyüşlərdə fədakarlıqla döyüşmüş, mənfur düşmənə qarşı sarsıdıcı zərbələr endirmiş, son döyüşlərin birində 30 oktyabr 2020 -ci il tarixində şəhadətə qovuşan, 67 gündən sonra nəşi tapılan Vüsal Vahid oğlu Ramazanov 08.01.2021 -ci il tarixində Zaqatalanın 33 -cü şəhidi kimi dünyaya göz açdığı Yuxarı Çardaxlar kəndində minlərlə insanların, onu sevənləri müşayiəti ilə son mənzilə yola salındı...

...Belə insanlar dünyaya nadir hallarda gəlirlər... Onların etdikləri dəyərli əməllərin qiyməti yoxdur, sonsuzdur... Haqqında söhbət açdığımız Vüsal Ramazanov Vətənimizin və torpaqlarımızın düşmənlərdən xilas etmək üçün, hətta toyunu, gənc ömrünü yarımçıq qoydu...

Bu addımı ancaq halallıqla böyüyən və əsil nümunəvi ailə tərbiyəsi alan oğullar atırlar. Zaqatala rayonu Yuxarı Çardaxlar kəndinin fəxri, qüruru, Böyük Qafqaz kimi vüqarı Vüsal kimi igidlərimiz...

...Başını uca tut şəhid anası, qəm yemə, kədərlənmə, Siz ən uca zirvələrdə dayanan qadınsınız, Fatma xanım!

...Çünki cənnət bağında uyuyan, şəhadətə qovuşan oğlunuz Vüsal gənc ömrünü və toyunu Vətən yolunda qurban versə də, adını ölkəmizin şanlı tarixinə qızıl hərflərlə yazdı, insanların qəlbində əbədi, dərin izlər saldı...

**O, dilsiz daşların silib tozunu,**
**Yanıq bir səslə hönkürüb, ağlar.**
**Oğul böyütdü ki, görsün toyunu,**
**Ana ürəyində qaldı arzular...**

Prezident sərəncamı ilə şəhid Vüsal Vahid oğlu Ramazanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azadlığı uğrunda" və "Cəbrayılın azadlığı uğrunda" medalları ilə təltif olunub.

*Elman Maliyev*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Siyavuş Aslanla adı çıxdı, aktyorun ailəsini dağıtmaqda günahlandırıldı, ruhi sarsıntıdan pirlərə üz tutdu

***"Unikal" Kulis.az-a istinadən ötən əsrin 70-ci illərində duetləri ilə böyük məşhurluq qazanan müğənnilər Təranə Vəlizadə və Eyvaz Həsənov haqqında maraqlı faktları təqdim edir.***

Təranə Vəlizadə ilə Eyvaz Həsənov Asəf Zeynallı adına musiqi kollecində tanış olublar. Təranə xanım kollecin gündüz şöbəsində, Eyvaz Həsənov isə axşam şöbəsində oxuyurdu. Lakin bəzən, onlar dərsləri bir yerdə keçir, mahnılar oxuyub, bir-birindən öyrənirdilər. Belə günlərin birində onların isti münasibəti yaranır.

Eyvaz Həsənov həm də romantik şeirlərin müəllifi idi. O, Təranə xanımla tanışlığının ilk günlərində ona da bir neçə şeir həsr etmişdi. Günlərin birində Təranə imtahana getmək üçün evdən çıxıb qadın pərəstişkarları həddindən artıq çox imiş. O, hər dəfə toydan, konsertdən evə gələndə paltarlarının cibindən çoxlu məktublar çıxırmış. Təranə Vəlizadə isə həyat yoldaşını hədsiz dərəcədə qısqanır, onunla mübahisə edir. Təranə xanım müsahibələrinin birində bu haqda deyir: "Əlbəttə, hər bir ailədə söz-söhbət, mübahisə olduğu kimi bizdə də olurdu. Mən onu çox qısqanırdım, o da məni qısqanırdı, amma mənim qədər büruzə vermirdi. Buna baxmayaraq, onun mənim qədər kimisə sevməsinə inanmıram."

Bəzən, Eyvazı toya tək dəvət edəndə onunla danışığa qadın gəlirmiş. O isə həmin qadınla danışmaz, Təranə xanımın telefonunu verib deyirmiş ki, mən qadınla toy haqqında danışıb ondan pul istəyə bilmərəm. Bu nömrəni götürün, münasibəti yaşayıb. Hətta, bu hadisə Xalq artistinin ailəsinin dağılmasına, Ofeliya Aslanın ərindən ayrılmasına səbəb olub. Televiziya verilişlərinin birində müğənni deyilənlərin yalan olduğunu bildirib:

"Müğənninin axı öz ailəsini güclə saxlayan qoca kişi nəyinə lazım idi? O, xüsusi insanlar tərəfindən uydurulmuş şayiə idi ki, həm onun, həm də mənim ailəmi dağıtsın. Sadəcə, məni bu məsələdə qurbanlıq quzu etdilər. O zaman mən Səyavuş Aslanı tanımırdım, heç yerdə görüşüb belə salam verməmişdim. Onunla ünsiyyəti olanı Allaha tapşırıram. Bu xəbərlər əsassız idi".

Məşhur "Qal, sənə qurban" mahnısı məxsusi olaraq Təranə Vəlizadə üçün yazılıb. Belə ki, Təranə ilə Eyvaz təzə ailə qurandan



trolleybusa əyləşir. Həmin vaxt Eyvaz əlində tutduğu balaca şeir dəftərçəsini Təranəyə verib oradakı şeirləri oxumasını istədiyini deyir və ondan uzaqlaşır. Dəftərçənin ilk vərəqində "Həyatımdakı ən əziz insana ithaf edirəm" sözləri yazılmışdı.

Həmin vaxtdan onların sevgi münasibəti başlayır. On səkkiz yaşlı Təranə ilk gündən Eyvazı sevir, ona həm də yaxın dost, müəllim kimi baxır. Bir müddət sonra Eyvaz sevdiyi qız üçün elçilərini yollayır. Həmin ərəfədə Təranəyə bir neçə yerdən adlı-sanlı adamlar elçi düşdüyü üçün atası Eyvazın adamlarına "hə" cavabı vermir. Ancaq qızının sevgisinin güclü olduğunu görəndən razılaşmaqdan başqa çarəsi qalmır.

Onlar yağışlı noyabr günündə ailə qurur. Dostlarının, yaxınlarının sözlərinə görə, cütlüyün sevgi macərası o dövr üçün görünməmiş hadisə idi. İnsanlar onlara dövrün Leyli və Məcnunu kimi baxır, o cür qəbul edirdilər. Onlar bir-birini o qədər gözəl tanıyırdılar ki, bəzən demək istədiklərini bir baxışla anladırdılar.

Ancaq deyilənə görə, Eyvazın Təranə ilə danışın.

Günlərin birində Təranə xanım yuxudan oyanıb görür ki, evdən quzu mələrtisi gəlir. Əvvəl elə bilir yuxu görür, sonra reallıq olduğunu anlayır. Eyvaz yatan otağa keçib görür ki, yerində yatan Eyvazın qucağında balaca bir quzu var. Sən demə, gecə saatlarında onların tövləsində quzu doğulub və quzunun anası ölüb. Eyvazın quzunu tövlədə tək qoymağa ürəyi gəlmir.

Azərbaycanda ilk duet ifaçıları Eyvaz Həsənovla Təranə Vəlizadə olub. Onların konsertləri hər zaman böyük anşlaqla keçib. Konsertlərə bilet tapılmayıb, konsert zamanı izdihamdan klubların pəncərələri, qapıları sınırmış. Bu konsertlərdə bəzən insanlar konsert salonlarına, klublara yerləşməyib, bayırdan konserti izləməyə çalışırmışlar. Kolxozlarda konsert verən zaman isə onlar insanların sevgisini nəzərə alıb, tarlanın ortasında lafetin üstündə konsert verirmişlər.

Ancaq deyilənlərə görə, Təranə Vəlizadə özündən on beş yaş böyük olan Xalq artisti Səyavuş Aslanla uzun müddətli sevgi

üç ay sonra dalaşırlar. Təranə atası evinə küsülü gedir. Atasına isə yalandan "Eyvaz qastrola gedib" deyir. Üç gündən sonra onun atası məsələdən xəbərdar olub qızını maşınla öz evinə gətirir. Təranə evə gələndə üzünü saç-saqqal basmış Eyvazın səsi də batmışdı. Təranə Vəlizadə stolun üstündə bir kağız görür. Kağızda məşhur "Qal sənə qurban" mahnısının sözləri yazılıbmış. Müğənni mahnının ona həsr edildiyini düşünür. Bir neçə gündən sonra bəstəkar Bəhram Nəsibov bu şeirə mahnı bəstələyir.

Günlərin birində səhər saat 6-da toy məclisini yola vermək üçün ansamblın nağaraçalanı Ənvərlə birlikdə Eyvazın maşınına minib Gürcüstana yola düşürlər. Maşını əvvəlcə Eyvaz özü sürür. Sonra Ənvər sürməyə başlayır. Ənvər çox yorğun olduğundan qəza törədir, qarşıdan gələn yük maşını ilə toqquşurlar. Qəza vaxtı Eyvaz dünyasını dəyişir.

Bu hadisədən sonra Təranə Vəlizadə dərin depressiya keçirir. Dostları, yaxınları çalışırlar ki, onu depressiyadan çıxarıb, az da olsa, əvvəlki vəziyyətinə qaytara bilsinlər.

Uzun müddət xəstə yatır. Kardeologiya şöbəsində. Lakin orada həkimlər bütün bunların qorxudan baş verdiyini deyir.

Bir müddət onun canındakı qorxunu çıxarmaq üçün pirlərə də aparırlar. Ancaq heç cür təskinlik tapa bilmir. Bir ildən sonra Təranə Vəlizadə qara paltarla ekrana çıxır.

Həyat yoldaşından sonra o, ikinci dəfə ailə həyatı qurmadı. Eyni zamanda, sənətlə də əvvəlki şövqlə məşğul ola bilmədi. O, Eyvazdan sonra konsertlərə və toylara getməsini isə yalnız dolanışıqla əlaqələndirir, bu məcburiyyət olmasa, heç oxumazdım deyir.

Cütlüyün Xəyalə adlı bir qızları var.

## Azərbaycan filmlərindəki məşhur erotik səhnələr



***Adətən, filmlərdə erotik səhnələri xarici kinolarda, seriallarda görürük.***

Ancaq Azərbaycanın istehsal etdiyi bəzi ekran əsərləri var ki, həmin filmlərdə də məhz yuxarıda qeyd etdiyimiz səhnələrə müraciət edilib.

"Unikal" gent.az-a istinadən bildirir ki, həmin filmlərdən bəziləri hətta kino tariximizin ən uğurlu əsərlərindən sayılır.

Bu mənada 3 ən məşhur erotik səhnəni diqqətinizə çatdırırıq:

**"Yarasa" filmi, 1995-ci il**

Azərbaycanın ən uğurlu filmlərindən biri heç şübhəsiz "Yarasa" filmidir. "Yarasa" tamaşaçıya həsr olunmuş kino əsəridir, daha doğrusu, sənət əsərinə tamaşa edən gözlər haqqındadır. "Yarasa"nın mövzusu təsadüfən yaranmayıb. Bu, rejissorun indiyə kimi kino haqqında, mədəniyyət haqqında olan düşüncələrənin nəticəsidir. Bu, rejissorun kinoya olan məhəbəti və nifrətidir.

**"Babamın babasının babası", 1981-ci il**

Çoxumuzun sevə-sevə izlədiyi bu ekran əsərində də erotik səhnəyə yer verilib. Filmin əsas qəhrəmanı Əziz kişinin (Hüseynağa Sadıqov) uşaq çağında gizli məhəbbəti olan Zeynəbin (Həmidə Ömərova) başını ayranla yuduğu epizodda çılpaq olması həmin motivə söykənir.

**"İlahi məxluq", 2011-ci il**

Film Qafqaz dağlarında heyvan saxlayan bir çoban ailəsindən bəhs edir. Bu ekran əsərində baş rol ifaçılarından olan Vəfa Zeynalovanın xalq artistimiz Nürəddin Mehdixanlı ilə 18+ səhnəsi tənqidlərə tuş gəlsə də, Azərbaycan kino tarixinin uğurlu erotik filmlərindən sayılır.

## "Art Olimpia 2021" sənət yarışmasının qalibləri müəyyən oldu

***Azərbaycan Gənclər Ittifaqı və Azərbaycan İncəsənət və Mədəniyyət Birliyinin təşkilatçılığı ilə "Art Olimpia 2021" adlı dördüncü qiyabi sənət yarışması baş tutub. Aprel və may ayı ərzində keçirilən incəsənət yarışmanın cavabları 1 iyun tarixində açıqlandı.***

1 iyun Uşaqların Beynəlxaq Müdafiəsi günü münasibətilə bütün uşaqları təşkilatımız adından təbrik edir, xoşbəxt, sevincli, uğurlu həyat yolu arzulayırıq!

Müsabiqə solo və duet, kiçik qrup nominasiyaları üzrə keçirilib. İncəsənət növləri: musiqi (dilli, nəfəs və zərb alətləri), vokal, vizual sənətlər, teatr və bədii qiraət, rəqs. Sənətin bütün sahələri xalq, müasir və klassik (akademik) janrlarda təqdim olunub.

"Karantin şəraitində belə öz tələbələrinə qarşı biganə qalmayan müəllim heyətinə təşəkkür edirik. Bütün bu gənc istedadlar sizlərin əziyyətiniz sayəsində var. Hər kəsə seçdiyi sənət yolunda uğurlar arzulayırıq. Skripka sahəsi üzrə Grand Prix layiq görülmüş 21 saylı Rostrapoviçlər adına musiqi məktəbinin tələbələri Maqsud Cəfərli, Məmmədli Ramizə, Məmmədli Aysu və Qələndərov Kənanı xüsusilə təbrik edir, fəaliyyətləri üzrə uğurlar arzulayıram" - Azərbaycan İncəsənət və Mədəniyyət Birliyinin sədri, yarışın əsas təşkilatçısı - Əziz Əzizov dedi.

Müsabiqənin münsiflər heyəti - Azərbaycan Rəqs Assosiasiyasının prezidenti Əziz Əzizov, SSRİ (1988-ci ildən) və Azərbaycan ressamlar ittifaqının üzvü Rəfael Əliyev, AMK tərkibində İncəsənət Gimnaziyasının direktoru Aytən Əhmədova, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ifaçılıq kafedrasının müdri Səbinə Mehdiyeva və kafedranın münsifləri.

# Bağırsaqlara mənfi təsir göstərən qidalar



***Vaşinqtonun Sent-Luis Universitetinin tibb fakültəsi və Klivlend Klinikasının alimləri hansı pəhrizin infeksiya və bağırsaq iltihabı riskini artırdığını açıqlayıb. Alimlər karbohidrat və yağ istehlakının, mədə-bağırsaq traktının immun sisteminə təsirinin, dəyişiklikləri geri dönməz hala gətirib çıxara biləcəyini bildirib.***

Tədqiqatçılar Qərb həyat tərzinə xas olan çox miqdarda şəkər və yağ yeməyin, bakteriyalara qarşı qorunma təmin edən və iltihabı idarə etməyə kömək edən Panet hüceyrələrinə (nazik bağırsaq hüceyrələri) zərər verdiyini göstərib. Alimlər 400 nəfərin demoqrafik və klinik məlumatları bazasını təhlil etdilər. Yüksək bədən kütlə indeksi (BKİ) Panet hüceyrələrinin disfunksiyası ilə əlaqəli idi, BKİ nə qədər yüksək olsa, bağırsaq hüceyrələri bir o qədər pis görünür. Patoloji piylənmə 20-30 il qeyri-sağlam həyat tərzi sürdükdən sonra baş verir. Alimlərin fikrincə bu, Panet hüceyrələrinə bir daha sağalmayan dərəcədə təsir edə bilər.

# Yazın ən faydalı 7 meyvəsi



***Bədənimizin ehtiyac duyduğu vitaminlər sağlam və ləzzətli meyvələrdən əldə edilə bilər. Həm ləzzətli, həm də bədənə faydaları olan meyvələri istifadə edərək yayda, xüsusilə də koronavirusa qarşı immunitetimizi güclü saxlamaq mümkündür.***

"Unikal" kult.az-a istinadən ən faydalı 7 yaz meyvəsini təqdim edir:

**1. Qarpız**

Xüsusilə isti yay günlərində susuzluğu yatırmaq üçün yeyilən qarpız həm ləzzətli, həm də faydalıdır. A və C vitaminləri, kalium, maqnezium, likopen və antioksidantlar sayəsində toksinlərdən qurtulmağa kömək edir. Həzm dostudur və böyrəklərin sağlam işləməsini təmin edərək xərçəngin əmələ gəlməsinin qarşısını alır.

**2. Yemiş**

Yemiş də qarpız kimi ən şirəli yay meyvələrindən biridir. Tərkibindəki A və C vitaminləri sayəsində immunitet sistemini gücləndirərək göz, ürək və dəri sağlamlığını qoruyur. Beta karoten tərkibi sayəsində antioksidant xüsusiyyətləri də var.

**3. Alça**

Turş dadı ilə alça demək olar ki, hamının sevərək yediyi meyvələrdən biridir. Tərkibində A, B, C, K vitaminləri və bir çox mineral var. Tərkibindəki yüksək antioksidant sayəsində detoks təsiri göstərərək qocalma əleyhinə təsir göstərir. İştahı artıraraq həzmə kömək edir və asanlaşdırır.

**4. Ərik**

Ərik bir çox faydalı vitamin və minerallara əlavə olaraq kalsium, maqnezium, dəmir, fosfor və lif sayəsində sümük və diş sağlamlığı üçün vacibdir. Uzun müddət yeyildikdə sümük əriməsinin qarşısını alacağı da deyilir. Əriyin ən çox bilinən faydası bağırsaqları işlədərək həzmi asanlaşdırmasıdır.

**5. Şaftalı**

A və C vitaminləri ilə zəngin və kaliumla zəngin olan şaftalı immunitet sistemini gücləndirərək xərçəngdən qoruyur. Pulpa tərkibi ilə bağırsaqların nizamlı işini təmin edir və isti havada qan təzyiqini tarazlaşdırmaq üçün idealdır. Eyni zamanda, sidikqovucu rolunu oynayan şaftalı böyrəkləri və öd kisəsini də nizamlı olaraq işləməsinə kömək edir.

**6. Albalı**

Albalı, yüksək lif tərkibi və antioksidantları sayəsində yayda ən çox yeyilən meyvələrdəndir. Tərkibindəki A, C və kalium miqdarı sayəsində xərçəng xəstəliklərinin qarşısını alaraq ürək sağlamlığını da qoruyur. Təzyiqi tənzimləyərək sidikqovucu rolunu oynayır.

**7. Çiyələk**

Digər yay meyvələri kimi, vitamin və minerallarla zəngin olmaqla yanaşı kalsium və kalium tərkiblidir. Antioksidant olduğundan immunitet sistemini gücləndirir və xərçəngdən qorunmanı təmin edir.

# İntim əlaqə zamanı nələrdən "qaçmaq" lazımdır?

Sekspotoloqların əksəriyyətinin fikrincə, seksdə kişilər yalnız cinsi yaxınlıq barədə düşünür. Qadınlarda isə əksinə, hər zaman nazlı, işvəli tərəf olduqları üçün kişilərin nəyi istəyib-istəməyəcəklərinə elə də əhəmiyyət vermirlər. Lakin buna baxmayaraq, qadınlar bilməlidir ki, kişilərin də cinsi yaxınlıqdan soyudan, qarşı tərəfdən uzaqlaşdıran intim səbəblər var. Əgər həyat yoldaşınızı xoşbəxt etmək istəyirsinizsə, onun zövqünü oxşamağı da bacarmalısınız. Bəs tərəf-müqabillər seksdə, intim münasibətlərdə zövqü oxşamaq üçün hansı problemlərdən uzaq durmalıdırlar?



### Psixoloji və ruhi sarsıntılardan

Bəzən seksdə intim münasibətlərdə yüksək təcrübəyə malık olmayan qadınlar kişilərin yaşadığı problem və ruhi narahatlıqlarını yatağa girən kimi unutduqlarını düşünürlər. Lakin unudurlarlar ki, kişilər intim münasibətlə bağlı yaşanan duyğusal problemlərdən təsirlənir. Bu isə kişilərin yataqda intim münasibətlərə diqqətini yönəltməsini və bundan zövq almasını çətinləşdirir. İntim münasibətində yaşadığı problemləri qarşı tərəfə büruzə verməyən kişilərin əksəriyyəti seks zamanı hansısa hərəkətiylə bunu qadəna çatdırmağa çalışır. Sanki bu yolla seksdəki tərəf-müqabilini incidərək cəzalandırır. Bu isə qadının nədə səhv etdiyini öyrənməsinə yox, seksdə çaş-baş qalmasına gətirb çıxarır.

### Partnyora qarşı istək, ehtiras və fantaziyarını azaldır

***Allah qadın və kişini fərqli yaratdığı kimi onların yataqda da istəklərini 180 dərəcə ayırıb.*** Bu baxımdan hər zaman kişilər qadınların, qadınlar isə kişilərin nəyi istəyib-istəməyəcəyi ilə bağlı baş sındırır, yaxud da bu sahədə praktiki biliklərini artırmağa səy göstərirlər. Əksər qadınlar "kişi yataqda nə istəməz?" sualının cavabını tapmaqda çətinlik çəkməyəndə cinsi həyatda xoşbəxt seks anlarına sahib olurlar.

### Seks zamanı utancaqlıq etmək

Əksər qadınlar yataqda təcrübəli olmasının kişi tərəfindən yanlış anlaşacağını düşündükləri üçün hisslərini açıq-aşkar biruzə verməkdən çəkinirlər. Halbuki kişilər yataqda passiv qalan və intim hərəkətlərdən çəkinən, bütün addımların kişi tərfindən atılmasını gözləyən qadınlarla cinsi yaxınlıq etməyi sevmirlər

Nə qədər təcrübəsiz olsanız da, cinsəlliyin hisslərlə, emosiyalarla yaşandığını unutmayın və qarşı tərəfi xoşbəxt etmək üçün sadəcə onun sizə tətbiq etdiyi seks hərəkətlərini siz də oana qarşı göstərin. Adətən, daha çox seks haqqında ütaliəsi olmayan qadınların əksəriyyəti yataqda passivləşirlər. Baxmayaraq ki, kişilər partnyorlarını seks aktivliliкərinin üstünlükləriylə heyran etdiklərini öyrənmək istəyirlər. İntim yaxınlıq zamanı hərəkətsiz qalan qadın kişinin doyum hissini azaldır və bu hiss azaldıqca kişidə paartnyoruna qarşı ses həvəsini soyudur.

### "Alınmayacaq" həyəcanı

Ağlı kəsəndən anasının ona təkrar-təkara, ürəkdən və qürur duyaraq "kişi balam" cümləsi kişilərə çox böyük şəkildə stimul verir. Uşaqlıqdan bu cümləni eşidən kişilər böyüyəndə kişiliyin sübutu kimi seksdə cinsi yaxınlığı yeganə təsdiq vasitəsi sayırlar. "Sən kişisən" cümləsiylə böyüyənlər isə cinsi yaş dövrünün müvafiq mərhələsində seks zamanı yaşanan ən xırda uğursuzluğu belə qəbul etmək istəmirlər. Uğursuz seksdən sonra kişi yenidən cinsi yaxınlığa girmək istəməsiylə bağlı narahatlıqlar yaşayır. Bəzən təsadüfi yaşanan uğursuzluq da bu narahatlığa yol aça bilər. Bir sonrakı cinsi yaxınlıq zamanı eyni problemi bir də yaşayacağını düşünən kişi cinsi yaxınlıqdan qaça bilər. Hətta eyni insanla yenə eyni halın yaşanmasından qorxan kişinin qarşı tərəfə meyli azala bilər.

### Seksdə intim gigiyena

Qadınlar kimi, kişilər də intim gigiyenaya önəm verirlər. Seks zamanı tərəf-müqabillərdən hansındansa hiss edilən xoşagəlməzqoxu da bu hissi azaldacaq. Şəxsi gigiyenaya önəm verən kişilər əsasən səliqəsiz, pinti və baxımsız qadınlarla intim münasibətdən qaçırlar. Tərəf-müqabilinin yataqda baxımsız, natəmiz olduğunu düşünən kişi həmin qadınla seksdən və intim münasibətdən qaça bilər. Bununla yanaşı, qadının fiziki görünüşündə yaşanan dəyişikliklər də kişinin eyni istəklə ona yanaşmasına əngəlləyir. Buna görə yatağa girməzdən öncə, duş qəbul etmək, rayihəli gel və şampunlardan istifadə olunması vacibdir.

### Təcrübə qıtlığı

Qadınların seks münasibətlərində ən çox şikayətləndiyi problem ilk cinsi yaxınlıqdan sonra kişilərin onlara qarşı diqqətinin minumuma enməsidir. Sekspotoloqların fikrincə, kişilər üçün ilk dəfə sevdiyi qadınla intim münasibətdə olmaq çox önəmlidir. Əgər onun ilk intim münasibərdən xoşu gəlməzsə, ikinci dəfə bunun təkrarlanmayacağına şübhəniz olmasın. İlk intim münasibət zamanı qarşı tərəfin erogen nöqtələrini müəyyənləşdirməkdəi, nəyi xoşladığını, nədən həzz aldığını bilməyəndə kişi partnyorunu razı sala bilməyəcəyindən qorxur.

### Doğuşdan sonrakı sindirom

Kişilərdə də qadınlarda olduğu kimi, övladları dünyaya gəldikdən sonra intim münasibətlərdə yaxınlıqla bağlı bəzi dəyişikliklər yaşanır. Qadınların doğuşdan sonrakı vəziyyəti kişilərdə narahatlıq yarada, seks istəklərini azalda bilər. Buna görə də, qadınlar günboyu kişiyə münasibətdə daha mehriban, gülərüz və diqqətli olmalıdırlar. Kişi əmin olmalıdır ki, seks münasibətlərində doğuşdan sonrakı sindiromlar baş verməyəcək.

# Bir mövsümün ən məhsuldarları - Ronaldo hələ əlçatmazdı

***Aleks Ferqyusonun gedişindən sonra eniş yaşayan "Mançester Yunayted", nəhayət, geridə qalan mövsüm nisbətən uğurlu çıxış edə bilib.***

"Unikal" qəzetinin məlumatına görə, "qırmızı şeytanlar"ın Premyer Liqda 2-ci yeri tutmasında yarımmüdafiəçi Bruno Fernandeşin rolunu xüsusi vurğulamaq lazımdır.

Keçən ilin yanvarında Mançesterə köçən portuqaliyalı ulduz futbolçu qısa müddətdə qol və assistlərlə adını klubun tarixinə yazdırıb. Ötən mövsüm Premyer Liqada 30 qolda yaxından iştirak edən Fernandeş bu baxımdan "mankunianlar"ın tarixinə ən məhsuldar 5-ci oyunçu kimi düşüb. Yarımmüdafiəçi 18 qol, 12 assistlə bunu bacarıb. Rekordçu isə hazırda "Yuventus"da çıxış edən Kriştiano Ronaldodur. Brunonun həmyerlisinə çatması üçün 7 qolda yaxından iştirakı çatmayıb.



1. Kriştiano Ronaldo - 37 qolda iştirak (2007/08)
2. Robin van Persi - 35 (2012/13)
3. Ueyn Runi - 31 (2011/12)
4. Erik Kantona - 30 (1993/94)
5. Bruno Fernandeş - 30 (2020-21)

# Havier Eskalante Bakıda - seminar keçəcək

***Azərbaycan Milli Karate Federasiyasının (AMKF) dəvəti ilə Dünya Karate Federasiyasının (WKF) Hakimlər Komitəsinin sədri, həmçinin Tokio Olimpiadasında karate yarışlarının baş hakimi Havier Eskalante Bakıda səfərdədir.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə AMKF- məlumat yayıb.

Məlumata görə, WKF rəsmisi iyunun 4-də milli hakimlər üçün beynəlxalq seminar keçirəcək. Tokio Yay Olimpiya Oyunlarının karate yarışlarını idarə etməyə təyin edilən 15 beynəlxalq hakimdən biri Cahangir Babayev isə seminarda H.Eskalanteyə assitentlik edəcək. Pandemiya şəraitində toplanmaq qaydaları ilə əlaqədar regionlardan olan hakimlər seminara internet yayımı ilə qatıla biləcəklər. Seminar iştirakçılarına beynəlxalq sertifikatlar təqdim ediləcək.

National Karate Federation
WKF
AZERBAIJAN
Azerbaijan Republic

# Messinin müqavilasinin detalları bilindi

***Lionel Messinin "Barselona" ilə bağlayacağı yeni müqavilənin detalları müəyyənləşib.***

"Unikal" qəzetinin məlumatına görə, argentinalı superulduz maaşının azaldılması şərtilə 10 illik sazişə qol çəkəcək. Anlaşmaya əsasən, 34 yaşlı oyunçu növbəti iki mövsümü "Barselona"da keçirdikdən sonra daha iki il Devid Bekhemin sahibi olduğu "İnter Mayami"də oynayacaq. Leo 50 milyon avroluq illik məvacibinin 35 milyona endirilməsinə razılıq verib. O, 2025-ci ildə karyerasını başa vuracaq və növbəti 6 ili "Barselona"nın səfiri kimi fəaliyyət göstərəcək. Qeyd edək ki, Lionel Messi ötən mövsüm bütün turnirlərdə keçirdiyi 47 oyunda 38 qol vurub, 14 məhsuldar ötürmə verib.



# Tokio-2020: 10 min nəfər könüllü olmaqdan imtina etdi

***Tokio-2020 Yay Olimpiya və Paralimpiya Oyunları üçün təxminən 10 min şəxs könüllülükdən imtina edib.***

"Unikal" qəzeti "Newsweek"ə istinadən xəbər verir ki, kütləvi imtinaların əsas səbəbi koronavirus pandemiyasının yaratdığı təhlükələrdir.




Bildirilib ki, yerli hakimiyyət orqanları peyvənd kampaniyasında uğursuzluqla üzləşib. Yaponiya əhalisinin 2,3 faizi koronavirusa qarşı peyvənd olunub. Ölkədə 750 mindən çox insan infeksiyaya yoluxub, onlardan təxminən 13 mini dünyasını dəyişib.

Olimpiada və paralimpiadanın keçirilməsində təxminən 80 min könüllünün iştirakı planlaşdırılır.

Qeyd edək ki, Tokio Yay Olimpiya Oyunları 2020-ci il 24 iyul - 9 avqustda keçirilməli idi. Oyunlar koronavirus pandemiyası üzündən bu il 23 iyul - 8 avqusta təxirə salınıb. Tokio Yay Paralimpiya Oyunları bu il 24 avqust - 5 sentyabrda gerçəkləşməlidir.

# Azərbaycanlı idmançı Avropa çempionu oldu

***Polşanın Bıdqoşç şəhərində keçirilən paraatletika üzrə Avropa açıq çempionatında daha bir idmançımız qızıl medal qazanıb.***

"Unikal" xəbər verir ki, F53 kateqoriyasında iştirak edən Elvin Astanov nüvə itələmə növündə 8,23 m nəticə göstərərək yarışın qızıl medalını qazanıb.

Qeyd edək ki, bu, millimizin çempionatda qazandığı dördüncü medaldır. Daha öncə T12 kateqoriyasında iştirak edən Səid Nəcəfzadə uzunluğa tullanma növündə 6,97 m nəticə göstərərək yarışın qızıl, T11 kateqoriyasında iştirak edən Toğrul Hümbətov uzunluğa tullanma növündə 5,67 m nəticə göstərərək bürünc, F57 kateqoriyasında iştirak edən Həmid Heydərli nizə atma növündə 43,49 m nəticə göstərərək yarışın gümüş medalını qazanıb.

## Azərbaycanın ev sahibliyinə namizəd olduğu daha bir turnir başqa ölkəyə verildi

***Kikboksinq üzrə böyük kadetlər, kiçik və böyük juniorlar arasında keçiriləcək Avropa çempionatın ev sahibi bilinib.***

"Unikal" qəzetinin xəbərinə görə, yarış Monteneqronun Budva şəhərində keçiriləcək.

Çempionat bu il 5-14 noyabr tarixlərində baş tutacaq.

Qeyd edək ki, bu yarışı keçirməyə digər namizədlər Azərbaycanla Niderland idi. Hətta bunun üçün WAKO (Ümumdünya Kikboksinq Təşkilatları Assosiasiyası) prezidenti Roy Beyker Bakıya gəlmiş, Azərbaycan Kikboksinq Federasiyası və Milli Olimpiya Komitəsində görüş keçirmişdi.

Onu da bildirək ki, daha əvvəl Azərbaycanın da ev sahibliyinə namizəd olduğu böyük və veteran kikboksçular arasında keçiriləcək dünya çempionatı İtaliyaya salınmışdı. Həmin dünya çempionatı bu il 15-24 oktyabr tarixlərində baş tutacaq.

## Rövnəq Abdullayev İJF-nin İcraiyyə Komitəsinə üzv seçildi

***Macarıstanın paytaxtı Budapeştdə Beynəlxalq Cüdo Federasiyasının (İJF) Konqresi keçirilib.***

"Unikal" qəzetinin məlumatına görə, qurumun baş toplantısında bütün üzv ölkələrin nümayəndələri, İcraiyyə Komitəsinin üzvləri və digər rəsmilər iştirak edib.

Azərbaycanı Konqresdə Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı ilə təmsil olunub. İlk olaraq Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizerin hesabat nitqi dinlənilib.

Əsasən cüdonun dünyada geniş təbliği ilə bağlı nəhəng media şirkətləri ilə uğurlu əməkdaşlıqdan, cüdo yarışlarının məlum təqvimindən, cüdonun bütün dünyada inkişaf etdirilməsi üçün müxtəlif dövlətlərə ianələr şəklində ayrılan dəstək, təhsil məsələləri və gələcək hədəflərdən bəhs edilən hesabatdan sonra təşkilatın baş katibi və maliyyə departamentinin rəhbərinin hesabatları dinlənilib.

Həmçinin İJF Nizamnaməsinin nizam-intizam və etik kodla bağlı qanunvericilik maddələrində müəyyən dəyişikliklər qəbul olunub. Konqresdə beynəlxalq qurumun prezident seçkiləri baş tutub. Marius Vizer yeganə namizəd kimi yekdilliklə İJF-nin prezidenti seçilib.

Daha sonra o, növbəti 4 il ərzində işləyəcəyi İcraiyyə Komitəsi üzvlərinin siyahısını Konqres iştirakçılarının diqqətinə çatdırıb. Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev 2-ci dəfə növbəti dörd il müddətinə qurumun İcraiyyə Komitəsinə üzv seçilib.

Sonda İJF-nin prezidenti Marius Vizer iştirakçılara gördükləri işlərə görə təşəkkürünü bildirib və konqresin işinə yekun vurub.

## Boltun Rekordu qırıldı

***Əfsanəvi atleti Useyn Bolta məxsus rekordlardan biri qırılıb.***

"Unika" qəzetinin məlumatına görə, onun yeniyetmələr arasında 200 metr məsafəyə qaçışda müəyyənləşdirdiyi göstəricini amerikalı Errion Nayton geridə qoyub.

17 yaşlı ABŞ təmsilçisi məsafəni 20,11 saniyəyə qət edib. Onun Ceksonvilldəki "Duval County Challenge" turnirindəki bu nəticəsi 18 yaşadək idmançılar üçün yeni dünya rekordu olub. Bolt 2003-cü ildə 20,13 saniyə nəticə göstərib.

Bir müddət öncə Nayton 100 m məsafədə 9,99 saniyə nəticəyə imza atıb. O, bu ay Tokio Yay Olimpiya Oyunlarına seçmə xarakterli yarışda da qüvvəsini sınayıb.

Səhifəni hazırladı: Aygün İlqarqızı